# Xalq qəzeti

Xalqın qəzeti!

№ 101 (30217) 16 may 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


## Günün sözü

**Prezident İlham Əliyev:**

**Bu gün Türkiyə Avrasiyanın ticarət, enerji, nəqliyyat, siyasi mərkəzidir. Gündən-günə Türkiyənin önəmi, rolu artır. Türkiyənin güclü sənayesi həm Türkiyəni gücləndirir, həm də Türkiyənin müttəfiqlərini gücləndirir.**

# Prezident İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri

## Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüş



**Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 14-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü olub.**

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Görüşdə dövlətimizin başçısı Brüsselə səfərə dəvətə görə Avropa İttifaqı Şurasının Prezidentinə təşəkkürünü bildirdi.

Hər iki tərəf Azərbaycan və Ermənistan münasibətlərinin normallaşdırılması prosesinin Brüssel formatının bərpası ilə bağlı məmnunluqlarını ifadə etdilər. Prezident İlham Əliyev Şarl Mişelə bu istiqamətdə göstərdiyi səylərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı son aylar ərzində Azərbaycan–Ermənistan münasibətləri ilə bağlı baş verən hadisələr, Vaşinqton danışıqları, Azərbaycan–Ermənistan sərhədində vəziyyət, habelə bu gün Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə keçiriləcək üçtərəfli görüşün gündəliyi müzakirə olundu.

***AZƏRTAC***

# Prezidentin Mətbuat Xidmətinin məlumatı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.**

Dövlətimizin başçısı Türkiyədə keçirilən prezident və parlament seçkilərində səs çoxluğu qazanması münasibətilə Prezident Ərdoğanı və Cümhur İttifaqını təbrik edib.

Prezident İlham Əliyev qeyd edib ki, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyə Respublikası böyük inkişaf yolu keçib və bunun təzahürü olaraq qardaş Türk xalqı öz liderinə bu seçkilərdə də etimad göstərib.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və təbrikə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı dövlət başçıları iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin daimi və sarsılmaz olduğunu bir daha qeyd ediblər.

## Türkiyənin demokratiya örnəyi: seçkilərdə qalib uca türk millətidir



Səhifə ⇨ 8

## XİN: Suverenliyimizə qarşı qərəzli fikirlərə son qoyulmalıdır



Səhifə ⇨ 4

## Sülhə yol ərazi bütövlüyündən keçir



Səhifə ⇨ 6

# “Brüssel formatı”: Avropa təşəbbüsü və Cənubi Qafqazda sülh mesajı

Səhifə ⇨ 4

## Cənub Qaz Dəhlizi Azərbaycanın beynəlxalq mövqeyini daha da möhkəmləndirir




Səhifə ⇨ 7

## Vətən sevdalısı idi... Torpaq yolunda şəhid oldu



Səhifə ⇨ 10

## Xalq yazıçısının yubileyə sənət hesabatı

Səhifə ⇨ 10



## “Yaşıl hidrogen” layihələrinə start verilib




Səhifə ⇨ 7

## İdmanın zirvəsinə aparan böyük uğurun qarantı



Səhifə ⇨ 11

## ABŞ və Avropa İttifaqı iqtisadi təhlükəsizlik əməkdaşlığını gücləndirir



Səhifə ⇨ 9

# Prezident İlham Əliyevin Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri ilə görüşü



**Mayın 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olub.**

***AZƏRTAC***

# Prezident İlham Əliyevin Belçikaya işgüzar səfəri başa çatıb

**Mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatıb.**

***AZƏRTAC***

# Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanla görüşdən sonra mətbuata açıqlaması



**Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel mayın 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlama verib.**

**Şarl Mişel açıqlamasında deyib:**

– Axşamınız xeyir, xanımlar və cənablar. Bu gün biz böyük məmnuniyyətlə Prezident Əliyevi və baş nazir Paşinyanı Brüsseldə təşkil olunmuş beşinci görüşdə qəbul etdik. Bizim fikir mübadiləmiz səmimi, açıq və nəticəyönümlü idi. Əsas diqqət Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə yönəldilmişdi. Liderlər Cənubi Qafqazda sülhün bərqərar olunması üçün birgə istəklərini ifadə etdilər. Mən müvafiq səyləri təqdir edirəm. Biz gündəliyimizdə olan bütün məsələləri birlikdə nəzərdən keçirdik. Bu yaxınlarda sülh sazişi ilə bağlı ABŞ-da keçirilmiş müsbət danışıqlardan sonra bu impuls saxlanılaraq Azərbaycan ilə Ermənistan arasında əhatəli sülh sazişinin imzalanması üçün qətiyyətli addımlar atılmalıdır.

Sərhəd məsələlərində biz irəliləyişi və sərhədlərin delimitasiyası ilə bağlı atılacaq növbəti addımları müzakirə etdik. Həmin kontekstdə liderlər sərhəd məsələləri ilə bağlı ikitərəfli görüşlərin bərpasına dair razılığa gəldilər. Liderlər 1991-ci ilin "Alma-Ata Bəyannaməsi"nə və Ermənistanın 29,800 kvadratkilometr və Azərbaycanın 86,600 kvadratkilometr ərazisinin toxunulmazlığına birmənalı sadiqliklərini təsdiq etdilər. Sərhədlərin delimitasiyasının yekunlaşdırılması danışıqlar vasitəsilə baş tutacaq.

Bağlantılar məsələsində tərəflər regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası istiqamətində müzakirələrdə aydın irəliləyişə nail olublar. Bu mövzuda xüsusilə də Naxçıvana və əks istiqamətdə dəmir yolu əlaqəsinin bərpasına dair mövqelər olduqca yaxınlaşıb. Dəmir yolu əlaqələrinin bərpası ilə bağlı modallıqları və konkret qrafik üzrə zəruri inşaat işlərini özündə ehtiva edəcək ümumi razılaşmanın yekunlaşdırılmasına dair müvafiq heyətlərə təlimatlar verilib. Bu işdə tərəflər Ümumdünya Gömrük Təşkilatından dəstək alınmasına dair razılığa gəliblər.

Humanitar məsələlərə gəldikdə, qarşıdakı həftələr ərzində saxlanılan daha çox şəxslər azad ediləcəkdir. Öz tərəfimdən onu vurğuladım ki, sadəcə, yolunu azan və qarşı tərəfə keçən əsgərlərin sürətli prosedur vasitəsilə azad olunmalarına dair qarşılıqlı anlaşmanın təmin olunması davam etdirilməlidir.

Biz, həmçinin itkin düşmüş şəxslərin taleyi ilə bağlı və minaların təmizlənməsi işinin sürətləndirilməsinin vacibliyinə dair müzakirələr apardıq.

Biz keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilərin hüquqları və təhlükəsizliyi məsələsi ilə əlaqədar müzakirələri davam etdirdik. Mən Azərbaycanı beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlıq çərçivəsində həmin əhalinin hüquq və təhlükəsizliyinin təmin olunması ilə bağlı müsbət gündəliyin formalaşdırılmasına dəvət etdim. Mən, həmçinin Bakının bu əhali ilə şəffaf və konstruktiv dialoq aparması zərurəti məsələsini qaldırdım. İnanıram ki, düşmənçilik ritorikasından çəkinmək, qarşılıqlı məqbul həll yollarına nail olmaq üçün xoş niyyət və liderliyin nümayiş etdirilməsi vacibdir.

Avropa İttifaqının gizli gündəliyi yoxdur. Bizim yeganə məqsədimiz Azərbaycana və Ermənistana əhatəli və ədalətli sülhə nail olmaqda kömək etməkdir. Biz onların birgə səylərinə dəstək verməyə hazırıq.

Biz Brüssel görüşlərini mümkün qədər tez-tez keçirmək barədə razılığa gəldik. Liderlər növbəti dəfə Brüsseldə iyul ayında görüşəcəklər. Artıq bəyan etdiyimiz kimi, biz yenidən yaxın gələcəkdə Fransa Prezidenti Makron və Almaniya Kansleri Şolts ilə Kişineuda keçiriləcək 2-ci "Avropa siyasi birliyi" Zirvə Toplantısı çərçivəsində görüşəcəyik.

Mən, həmçinin liderləri oktyabrda Qranadada təşkil ediləcək 3-cü "Avropa siyasi birliyi" Zirvə Toplantısı çərçivəsində daha bir belə görüşə dəvət etmək niyyətindəyəm.

***AZƏRTAC***

# Azərbaycan İslam ölkələrinin həmrəyliyini daim dəstəkləyir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Ərəb Parlamentinin prezidenti Adel bin Əbdulrəhman əl-Asumini qəbul edib.**

Dövlətimizin başçısı Adel bin Əbdulrəhman əl-Asuminin ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakından məmnunluğunu ifadə etdi.

Prezident İlham Əliyev ulu öndərin Azərbaycanın ərəb ölkələri ilə münasibətlərinin inkişafına çox böyük töhfə verdiyini vurğulayaraq, bu gün də bu siyasətin davam etdirildiyini bildirdi, özünün ərəb ölkələrinin rəhbərləri ilə çoxsaylı görüşlərinin və qarşılıqlı səfərlərin bunun əyani sübutu olduğunu dedi. Xalqlarımızı ortaq tarixin birləşdirdiyini vurğulayan dövlətimizin başçısı ərəb ölkələri ilə münasibətlərin uğurla və hərtərəfli inkişaf etdiyini dedi, ötən il Ərəb Dövlətləri Liqasının Zirvə Toplantısına dəvət olunmasını əlaqələrimizin yüksək səviyyəsinin göstəricisi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı ərəb ölkələrinin həm işğal dövründə, həm İkinci Qarabağ müharibəsi zamanı, həm də Zəfərimizdən sonra Azərbaycanla həmrəy olmasını yüksək qiymətləndirdi və Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də çoxsaylı qətnamələr qəbul olunmasının önəmini qeyd etdi.

Azərbaycan Prezidenti 30 illik işğal dövründə ermənilərin xalqımıza qarşı mədəni soyqırımı törətdiklərini bildirərək, həmin ərazilərdə onların İslam maddi-mədəniyyət irsini məhv etdiklərini, 67 məsciddən 65-ni dağıtdıqlarını diqqətə çatdırdı. Dövlətimizin başçısı Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işləri haqqında məlumat verdi.

Prezident İlham Əliyev Ərəb Parlamentinin prezidentinin ölkəmizə səfərinin əməkdaşlığın genişlənməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən qonaq dedi: "Sizin kimi böyük dünya lideri ilə görüşməkdən və ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirilən bu tədbirlərdə iştirak etməkdən şərəf hissi duyuruq".

Qonaq Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifənin və Bəhreyn Krallığının vəliəhdi, Nazirlər Şurasının sədri Salman bin Həməd Al Xəlifənin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Bəhreynin Kralına və Vəliəhdinə çatdırmağı xahiş etdi. Eyni zamanda, dövlətimizin başçısı dost və qardaş ərəb ölkələrinin rəhbərlərinə də öz ehtiramını çatdırdı.

Ərəb Parlamentinin Azərbaycana qardaş ölkə kimi münasibət bəslədiyini bildirən qonaq Fələstin problemi ilə bağlı göstərilən dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısının ulu öndərin layiqli davamçısı olduğunu məmnunluqla qeyd edən qonaq Azərbaycan Prezidentinin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmizin qazandığı nailiyyətləri vurğuladı. O, Azərbaycanın İslam dəyərlərinin müdrikliyi əsasında inkişaf edən və bu dəyərlərin hökm sürdüyü bir ölkə olduğunu dedi.

Ölkəmizə ikinci dəfə səfər etdiyini bildirən Adel bin Əbdulrəhman əl-Asumi daha əvvəl Azərbaycana Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı konfransında iştirak etmək üçün gəldiyini diqqətə çatdırdı.

Qonaq Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini təqdir etdiklərini bildirdi, ölkəmizin Hərəkatın təsisatlanması, beynəlxalq səviyyədə nüfuzunun artması istiqamətində çox ardıcıl siyasət həyata keçirdiyini məmnunluqla vurğuladı.

Azərbaycan Prezidenti ölkəmizin İslam həmrəyliyini hər zaman dəstəklədiyini bildirdi. Bu xüsusda bir müddət əvvəl Fələstində Azərbaycanın diplomatik nümayəndəliyinin açılmasını, Azərbaycanın xarici işlər nazirinin Fələstinə səfərini və orada ölkəmiz tərəfindən məktəbin inşasını qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsini xatırladı, ölkəmizin Avropada islamofobiya meyillərinin artmasından narahatlığını ifadə etdi, bu cür meyilləri qınadığını dedi və bir müddət əvvəl Azərbaycanda islamofobiya ilə əlaqədar çox əhəmiyyətli beynəlxalq konfransın keçirildiyini vurğulayaraq, gələcəkdə bu xüsusda birgə platformanın yaradılmasının önəmini diqqətə çatdırdı.

Görüşdə Azərbaycanla İslam və ərəb dövlətləri arasında iqtisadiyyat, ticarət, investisiya sahələrində əlaqələrin genişləndirilməsinin vacibliyi diqqətə çatdırıldı, əməkdaşlığın birgə səylərlə daha da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Sonda qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi. Bu hədiyyənin ancaq ərəb dövlətlərinin liderlərinə verildiyini vurğulayan Adel bin Əbdulrəhman əl-Asumi dedi ki, müstəsna hal kimi bu hədiyyəni Azərbaycan Prezidentinə təqdim etməkdən şərəf hissi duyur.

***AZƏRTAC***

# Azərbaycan–Özbəkistan dostluq əlaqələri strateji tərəfdaşlığa əsaslanır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı qəbul edib.**



Prezident İlham Əliyev Tənzilə Narbayevanın rəhbərlik etdiyi nümayəndə heyətinin ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakını yüksək qiymətləndirərək ulu öndərin xatirəsinə göstərilən ehtirama görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı Özbəkistana səfəri zamanı Prezident Şavkat Mirziyoyevlə birlikdə ulu öndərin abidəsinin və onun adını daşıyan parkın açılmasını da bu ehtiramın təzahürü olduğunu dedi. Ümummilli liderin dost və qardaş Özbəkistanla və Özbəkistan xalqı ilə əlaqələrə böyük diqqət yetirdiyini xatırladan Azərbaycan Prezidenti bu siyasətin bu gün də bütün istiqamətlərdə davam etdiyini məmnunluqla vurğuladı. Prezident İlham Əliyev Özbəkistanın dövlət başçısı ilə dostuq münasibətlərinin ikitərəfli əlaqələrimizin genişlənməsi işinə xidmət etdiyini bildirdi və bu işdə qarşılıqlı səfərlərin önəmini qeyd etdi.

Dövlətimizin başçısı bu yaxınlarda Füzulidə olarkən Özbəkistan Prezidenti tərəfindən özbək xalqı adından hədiyyə olaraq burada inşa edilən məktəb binasında aparılan tikinti işləri ilə tanış olduğunu məmnunluqla bildirdi.

Prezident İlham Əliyev Tənzilə Narbayevanın ölkəmizə səfərinin də əlaqələrimizin inkişafı baxımından önəmini qeyd etdi.

Tənzilə Narbayeva, ilk növbədə, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdıraraq qeyd etdi ki, Özbəkistan Prezidenti strateji tərəfdaşlığa söykənən Azərbaycanla dostluq əlaqələrini yüksək qiymətləndirir və Azərbaycan Prezidentinə qardaşlıq münasibətləri bəsləyir.

Azərbaycan Prezidenti salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Şavkat Mirziyoyevin rəhbərliyi ilə Özbəkistanda uğurlu islahatların aparıldığını dedi, bu yaxınlarda keçirilmiş referendum münasibətilə təbriklərini çatdırdı.

Öz növbəsində Tənzilə Narbayeva hər iki dövlət başçısının rəhbərliyi ilə Azərbaycan və Özbəkistanda bütün sahələrdə uğurların əldə edildiyini vurğuladı.

Özbəkistan Ali Məclisi Senatının sədri ümummilli liderin 100 illiyinə həsr olunmuş Milli Məclisin xüsusi iclasında iştirakından məmnunluq hissi keçirdiyini bildirərək ulu öndərin ölkələrimiz arasında dostluq münasibətlərinin qurulmasında xüsusi rolunu qeyd etdi. Vurğuladı ki, Özbəkistanda ulu öndərin xatirəsi dərin hörmətlə yad olunur və dahi şəxsiyyətin anadan olmasının 100 illiyi münasibətilə tədbirlər davam edir.

Qonaq bildirdi ki, torpaqlarımızı işğaldan azad etməklə Azərbaycan Prezidenti ata vəsiyyətini yerinə yetirib və Azərbaycan xalqının qəhrəmanı olaraq tarixi missiya həyata keçirib.

O, eyni zamanda, Qoşulmama Hərəkatına Azərbaycanın uğurlu sədrliyini xüsusilə qeyd etdi və ölkəmizin rəhbərliyi ilə Hərəkatın nüfuzunun artdığını, onun təsisatlanması istiqamətində mühüm işlərin görüldüyünü vurğuladı.

Tənzilə Narbayeva mədəniyyət və humanitar sahələrdə əməkdaşlığımızın xüsusi əhəmiyyət kəsb etdiyini deyərək, bu xüsusda Azərbaycan Prezidentinin Özbəkistanın mədəniyyət xadimlərini, Özbəkistan Prezidentinin isə Azərbaycanın mədəniyyət xadimlərini təltif etmələrinin önəminə toxundu, bunun mədəniyyət işçilərinə böyük ruh və həvəs verdiyini diqqətə çatdırdı.

Qonaq Özbəkistandan Azərbaycana səfər edən nümayəndə heyətlərinə daim göstərilən diqqətə görə də təşəkkürünü bildirdi.

Söhbət zamanı xalqlarımız arasında ortaq tarixi köklərin, mədəniyyət və dil bağlılığının olması xüsusilə qeyd edildi.

Görüşdə qeyd edildi ki, maşınqayırma, kənd təsərrüfatı, tekstil sənayesi, energetika, investisiya qoyuluşu və digər sahələr üzrə konkret layihələr və birgə fond var. Hər iki prezident tərəfindən bu layihələr davamlı şəkildə diqqət mərkəzində saxlanılır.

Ölkələrimizin beynəlxalq təşkilatlar, Türk Dövlətləri Təşkilatı çərçivəsində uğurlu əməkdaşlığı vurğulandı, gənclər sahəsində əməkdaşlığın, Azərbaycan və Özbəkistan gənclərini bir araya gətirən forumların keçirilməsinin önəmi bildirildi.

***AZƏRTAC***

# Birgə layihələr Azərbaycanla Gürcüstanı daha da yaxınlaşdırır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycanla Gürcüstan arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini dedi və parlamentlərarası əlaqələr sahəsində səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu bildirdi.

Prezident İlham Əliyev Şalva Papuaşvilinin ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakının əlaqələrimizin genişlənməsi baxımından önəmini qeyd etdi.

Dövlətimizin başçısı özünün Gürcüstana səfərini, Gürcüstanın Baş nazirinin isə Azərbaycana səfərini məmnunluqla xatırladı və bu səfərlər zamanı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi ilə əlaqədar çox ətraflı müzakirələrin aparıldığını qeyd etdi.

Prezident İlham Əliyev 1990-cı illərin əvvəllərində Azərbaycanın və Gürcüstanın üzləşdiyi problemlərə toxundu, birgə layihələrin icrasının əhəmiyyətini vurğuladı. Bu xüsusda ilk layihə kimi Bakı–Supsa neft boru kəmərinin reallaşdırıldığını diqqətə çatdırdı və bundan sonra digər layihələrin də uğurla həyata keçirildiyini dedi.

Bu gün ölkələrimizin bu layihələrin icrası sayəsində enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadıqları vurğulandı. Həmçinin Orta Dəhliz vasitəsilə nəqliyyat imkanlarının artırılmasında Azərbaycanla Gürcüstanın əməkdaşlığının mühüm əhəmiyyət kəsb etdiyi qeyd olundu.

Şalva Papuaşvili ulu öndərin 100 illiyinə həsr olunmuş tədbirdə iştirak etməkdən şərəf hissi keçirdiklərini bildirdi. Qonaq ümummilli liderin Azərbaycanın hərtərəfli inkişafındakı rolunu vurğulayaraq, eyni zamanda, məhz onun rəhbərliyi ilə strateji layihələrin həyata keçirildiyini qeyd etdi. Gürcüstan parlamentinin sədri vurğuladı ki, vaxtilə ulu öndərin atdığı müdrik addımlar Azərbaycanın gələcəyi üçün böyük önəm daşıyır. O, Azərbaycanla Gürcüstan arasında strateji tərəfdaşlıq əlaqələrinin qurulması işində şəxsən Azərbaycan Prezidentinin roluna görə minnətdarlığını bildirdi.

Qonaq ölkələrimizin həyata keçirdiyi birgə layihələrin əhəmiyyətinə toxundu. Bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın Qara dənizin dibi ilə elektrik xəttinin çəkilişi layihəsini, həmçinin Azərbaycanla olan tərəfdaşlarla birlikdə Qara dənizin dibi ilə sualtı fiber-optik kabel xətti kimi irimiqyaslı layihələrin həyata keçirildiyini qeyd etdi.

Şalva Papuaşvili Azərbaycanın və xalqımızın Gürcüstan üçün çətin dövrlərdə ölkəsinin ərazi bütövlüyünü dəstəklədiyini yüksək qiymətləndirdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Misir Azərbaycanın Qoşulmama Hərəkatına rəhbərliyini yüksək qiymətləndirir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Misir Ərəb Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri Hanaf Ali Əl Gebalini qəbul edib.

Prezident İlham Əliyev Misir parlamenti Nümayəndələr Palatasının sədrinə ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakına görə təşəkkürünü bildirdi. Ulu öndərin Azərbaycanın dövlət quruculuğunda müstəsna rol oynamış bir şəxsiyyət olduğunu vurğulayan dövlətimizin başçısı, eyni zamanda, ümummilli liderin Azərbaycan–Misir əlaqələrinin inkişafında böyük xidmətlərini qeyd etdi.

Prezident İlham Əliyev Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycana səfərini məmnunluqla xatırladı, bu səfərin əlaqələrimizin inkişafına ciddi təkan verdiyini dedi, səfər zamanı Azərbaycanla Misir arasında müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari əlaqələrin inkişafı, enerji, kənd təsərrüfatı, səhiyyə və digər sahələrdə əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu qeyd etdi.

Dövlətimizin başçısı salamlarını Misirin Prezidentinə çatdırmağı xahiş etdi.

Azərbaycanda özlərini ölkələrindəki kimi hiss etdiklərini deyən qonaq Azərbaycanla Misir arasında çox möhkəm qardaşlıq münasibətlərinin mövcud olduğunu vurğuladı. "Azərbaycan bizə dost ölkədir və dostluğumuzun böyük tarixi var",– deyən Hanaf Ali Əl Gebali qeyd etdi ki, Misirdə ulu öndərin xatirəsi daim böyük ehtiramla anılır. O vurğuladı ki, ölkə üçün çox çətin vaxtlarda məhz Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycan bütün sınaqlardan uğurla çıxaraq inkişaf yoluna qədəm qoyub və Prezident İlham Əliyev bu siyasəti müvəffəqiyyətlə davam etdirir.

Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq həyata keçirdikləri vurğulandı, bu xüsusda dövlətimizin başçısının Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında iştirakı məmnunluqla xatırlandı.

Qonaq Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu fəaliyyətinə görə təbriklərini çatdırdı, məhz Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının dünyada rolunun və nüfuzunun daha da artdığını qeyd etdi.

Misir Ərəb Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

***AZƏRTAC***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Çox hörmətli İlham Heydər oğlu!**

Azərbaycan xalqının dahi oğlu, dünyaşöhrətli dövlət və siyasət xadimi, iki dəfə Sosialist Əməyi Qəhrəmanı, müdrik, hörmətli və alicənab lider, böyük insan, öz xalqının xoşbəxtliyi və rifahı uğrunda yorulmaz mübariz Heydər Əlirza oğlu Əliyevin anadan olmasının

100 ili tamam olub. İcazə verin, bu əlamətdar yubiley münasibətilə Zati-alinizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edim.

Siyasi müdrikliyi sayəsində hələ sağlığında canlı əfsanəyə çevrilən Heydər Əlirza oğlu Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinə nail olmaqla, öz xalqına demokratik və hüquqi dövlətdə yaşamaq imkanı hədiyyə etdi. O, öz xalqının xoşbəxt gələcəyi üçün bütün zəruri şəraiti yaradaraq, özündən sonra möhkəm təməl qoydu.

Fəxr edirəm ki, Heydər Əliyev kimi görkəmli, zəhmətsevər şəxsiyyətlə çiyin-çiyinə işləmək və fəaliyyət göstərmək mənə nəsib olub. Mən onunla görüşlərimi xüsusi səmimiyyətlə və hörmətlə xatırlayıram, sevinirəm ki, o, mənim üçün əsl müdrik müəllim və gözəl dost olub. Heydər Əliyevin çoxsaylı dövlət mükafatları və təltifləri arasında Moskva Universitetinin Fəxri professoru – bizim universitetin ali mükafatının olması təhsil ocağımızda çalışan insanlar üçün xüsusi fəxrdir.

Çox hörmətli İlham Heydər oğlu, biz aydın şəkildə görürük ki, böyük respublikanın bu günü və gələcəyi möhkəm və etibarlı əllərdədir. Siz öz atanızın işini şərəflə, ləyaqətlə davam etdirir və səylərinizi əsirgəməyərək ölkəni inkişaf və tərəqqiyə doğru aparırsınız.

Biz Heydər Əlirza oğlunu, onun açıqfikirliliyini, sevdiyi işə sədaqətini, səmimiyyəti və sonsuz fədakarlığını, gələcək nəsillərin bəhrəsini görəcəyi vicdanlı əməyini heç vaxt unutmayacağıq.

**Dərin hörmətlə, Sizin**

***Viktor SADOVNİÇİ,***
***M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik***

*

**Cənab Prezident İlham Əliyev!**

Allahın salamı, bərəkəti və rəhməti üzərinizə olsun!

Müasir Azərbaycan dövlətinin banisi, atanız Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə Zati-alinizə səmimi məhəbbət, hörmət və minnətdarlıq hisslərimi bildirməkdən məmnunluq duyuram. Uca Allahdan atanıza rəhmət, onun yolunu davam etdirərək dost Azərbaycan dövlətinin, xalqının inkişafı və rifahı uğrunda atdığınız addımlarda Sizə müvəffəqiyyətlər diləyirəm.

Cənab Prezident, İslam mədəniyyətimizdə belə bir deyim var ki, elə insanlar var onların istədikləri Allahın istədiyidir. Bu, o deməkdir ki, insanlar üçün yaxşılıq iradəsi Allahın iradəsi ilə eyniləşir. Xeyirxahlığın ən yüksək və ən nəcib ayələri yaxşı idarəçilikdə təcəssüm olunur. Yaxşı idarəçilik iki əsas prinsipə əsaslanır: birinci prinsip Allahın razılığı və məhəbbəti, ikinci prinsip isə insanların etibarı və sədaqətidir.

Azərbaycan xalqına müdrik rəhbərliyi zamanı Allaha iman nuru ilə işıqlanan, xalq tərəfindən sevilən və onu sevən insanlardan biri də Prezident Heydər Əliyev olmuşdur, Allah onun ruhunu şad etsin. O, xalqı azadlıq, suverenlik və firavanlıq yoluna çıxardı.

Azərbaycanın və ümumən Qafqaz regionunun çətin dövründə Prezident Heydər Əliyevin rəhbərliyi asan olmayıb. Ona görə də onun Azərbaycan xalqını və dövlətini nicata, suverenliyə, müstəqilliyə, ardından isə firavanlığa, inkişafa doğru aparması müstəsna nailiyyət idi.

Fransanın keçmiş Prezidenti Jak Şirak siyasəti mümkün olmayanı mümkün etmək sənəti kimi təsvir edib. Bu mənada Prezident Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərliyi zamanı əldə etdiyi uğurlar qeyri-mümkün olanı mümkünə çevirmək sənətinin nümunəsi idi. Bu gün eyni ruhla, eyni iradə ilə, eyni uğurla Siz atanızın yolunu davam etdirirsiniz.

Prezident Heydər Əliyev bir sıra çətinliklərlə üzləşdi və bu çətinliklərin qolunu bir-birinin ardınca bükməyə müvəffəq oldu. Budur, bu gün Siz müdrik, özünə güvənən və xalqının bütün çətinliklərinin öhdəsindən gəlməyə qadir olduğuna inanan rəhbər olaraq yeni çağırışların qarşısında əzəmət və qürurla dayanırsınız. Bu işdə ilk növbədə Allahın rizasına və zəfərinə, eləcə də Azərbaycan xalqının sədaqəti və etibarına arxalanırsınız. Bu çağırışların haradan gəlməsi önəmli deyil. Önəmli olan odur ki, Allahın razılığı və xalqın etibarı üzərinizə yağır. Qeyri-mümkün olanı mümkün, hətta qaçılmaz edən ilahi rizanın və xalq etimadının birləşməsidir.

Beləliklə, Prezident Heydər Əliyev taleyüklü çətinliklərin öhdəsindən gəlmək üçün qəbul etdiyi qərarların ölçüsünə görə böyük olduğu kimi, Siz də, cənab Prezident, hazırda dünyada baş verən dəyişikliklər kontekstində çağırışlarla mübarizə aparmaq üçün verdiyiniz qərarların ölçüsünə görə böyüksünüz. Üstəlik, Allaha inamınız və sədaqətli Azərbaycan xalqına güvəniniz Sizi bu sınaqların öhdəsindən gəlmək üçün möhkəm qala içində qoruyur və qələbənin Tanrıdan gəldiyindən əmin edir.

Heydər Əliyevin anadan olmasının ildönümündə əziz Azərbaycan dövləti və xalqı üçün daha yaxşı gələcəyə yol açmaqda ümidlər təzələnir, inam güclənir.

Cənab Prezident, Allah Sizi qorusun və fəaliyyətinizdə uğurlar nəsib etsin!

**Sevgi və hörmətlə,**

***Məhəmməd Əl SAMMAK,***
***Livan İslam Ruhani Zirvəsinin Baş katibi, Milli İslam-Xristian Dialoq Komitəsinin Baş katibi, Ərəb İslam-Xristian Dialoqu Qrupunun katibi, Lissabondakı Kral Abdullah bin Əbdüləziz Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin İdarə Heyətinin üzvü, Nyu-Yorkdakı "Sülh üçün Din" təşkilatının Yaxın Şərq regionu üzrə Baş katibi***

# Əli Əsədov Belarus baş nazirinin müavini ilə görüşüb



Mayın 15-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə səfərdə olan Belarus Respublikası Baş nazirinin müavini İqor Petrişenko ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən redaksiyamıza bildiriblər ki, görüşdə Azərbaycan ilə Belarus arasında iqtisadi-ticari əməkdaşlığın, investisiya fəaliyyətinin və sənaye kooperasiyasının aktual məsələləri nəzərdən keçirilib. Azərbaycan və Belarus arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın bu gün Bakıda keçirilən növbəti iclasının əhəmiyyəti qeyd olunub.

Tərəflər qarşılıqlı maraq doğuran sahələrdə qarşılıqlı faydalı tərəfdaşlığın inkişaf perspektivlərini də müzakirə ediblər.

***"Xalq qəzeti"***

# Baş nazir iordaniyalı qonağı qəbul edib



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 15-də ölkəmizdə səfərdə olan İordaniya Haşimilər Krallığı parlamentinin Nümayəndələr Palatasının sədri Ahmed Al-Safadi ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən qəzetimizə bildiriblər ki, görüşdə Bakıda Milli Məclisin ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan xüsusi iclasının önəmi vurğulandı, İordaniyanın tədbirdə yüksək səviyyədə təmsil olunmasından məmnunluq ifadə edildi.

Azərbaycan-İordaniya əməkdaşlığının bir çox sahələrdə uğurla inkişaf etdiyi bildirildi, parlamentlərarası əlaqələrin müsbət dinamikası yüksək qiymətləndirildi.

Eyni zamanda, iki ölkə arasında iqtisadi-ticari, investisiyaların təşviqi, humanitar, turizm və digər istiqamətlərdə əlaqələrin perspektivləri müzakirə olundu.

***"Xalq qəzeti"***

# Gürcüstanla strateji tərəfdaşlıq möhkəmlənir

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 15-də ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatında bildirilib ki, görüşdə Ş.Papuaşvilinin Milli Məclisin ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan xüsusi iclasında iştirakı yüksək qiymətləndirilib.

Azərbaycan ilə Gürcüstan arasında qarşılıqlı etimada əsaslanan əməkdaşlığın genişlənməsindən və strateji tərəfdaşlığın möhkəmlənməsindən məmnunluq ifadə olunub.

İki ölkə arasında əlaqələrin hərtərəfli inkişafında parlamentlərin rolu təqdir edilib.

Eyni zamanda, ticarət-iqtisadi, enerji, nəqliyyat-tranzit, humanitar və digər sahələrdə münasibətlərin genişləndirilməsi perspektivləri müzakirə olunub.

***"Xalq qəzeti"***

# “Brüssel formatı”: Avropa təşəbbüsü və Cənubi Qafqazda sülh mesajı

## Azərbaycan və Ermənistan liderlərinin razılaşma məqamları

**Mayın 14-də Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə dörd saata qədər davam etmiş görüş keçirildi. Bakı–İrəvan nizamlanmasının “Brüssel formatı” kimi qiymətləndirilən vasitəçilik missiyasının bərpası, ümumən Cənubi Qafqazda sülh gündəliyinin aktuallaşması baxımından vacibdir. Ölkəmizin Xarici İşlər Nazirliyinin də görüşə münasibəti mövcud məqamın vurğulanmasına əsaslanmaqdadır: “İlk növbədə, müxtəlif müdaxilə və şərtləndirmə cəhdlərinə görə 9 aya yaxın müddətdə fasilə verilən “Brüssel formatı”nda görüşün yenidən keçirilməsi tərəflər arasında ən yüksək səviyyədə dialoqun təşviqi baxımından əhəmiyyət kəsb edir”.**



Yada salaq ki, 9 ay əvvəl “Brüssel formatı” Fransanın aşkar ermənipərəst mövqeyi səbəbindən iflasa uğramışdı və indi də bu mövqedə hər hansı dəyişiklik yoxmuş kimi görünməkdədir. Ancaq, çox güman ki, hazırda Ş.Mişelin vasitəçiliyi ilə format bərpa edilirsə, deməli, Aİ probleme yanaşmasındakı Fransa patronajlığını bir kənara qoyub. Bu tendensiya nə vaxtadək özünü göstərəcək, yaxud Paris yenidən aşkar tərəfkeşliyə keçməyəcək ki? Gedişatı zaman göstərəcək.

Hələlik isə görüşün konstruktivliyini vurğulamaq mümkündür. Bunu Azərbaycan XİN-in münasibətindən də görmək mümkündür: “Avropa İttifaqı Şurasının prezidentinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Prezidenti və Ermənistanın baş naziri arasında bu formatda 14 may tarixli sayca beşinci görüşü iki ölkə arasında normallaşma gündəliyinin irəlilədilməsi baxımından faydalı və nəticəyönümlü hesab edirik”.

***

Görüşün müsbət məcrasını vurğulayan məqamlardan biri də tərəflərin Azərbaycan–Ermənistan əlaqələrinin normallaşmasında indiyədək əldə edilmiş tərəqqiyə fokuslanmaları və liderlərin Cənubi Qafqazda sülhə ümumi istəklərini ifadə etmələridir. Bu isə Ş.Mişelin sözlərinə görə, hər iki ölkənin xarici işlər nazirlərinin Vaşinqton danışıqlarından irəli gəlir: “Mən onların səylərini təqdir edirəm. Biz birlikdə gündəliyimizdəki bütün məsələləri nəzərdən keçirdik. Sülh müqaviləsi ilə bağlı bu yaxınlarda ABŞ-də keçirilmiş pozitiv danışıqların ardınca Ermənistan və Azərbaycan arasında hərtərəfli sülh razılaşmasının imzalanması istiqamətində həlledici addımların atılması üçün qazanılmış impuls saxlanılmalıdır”.

Vaşinqtondan söz düşmüşkən, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Erika Olson ölkəmizin Xarici işlər nazirinin müavini Elnur Məmmədovla telefon danışığı zamanı bildirib ki, bölgədə sülh və sabitlik üçün sülh sazişinin imzalanması zəruridir. E.Olson, həmçinin ABŞ-nin Azərbaycan və Ermənistan arasında ikitərəfli əsasda aparılan danışıqlara dəstək verməyə daim hazır olduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, “Brüssel formatı”nın bərpasından məmnunluq Azərbaycan Prezidenti İlham Əliyevlə Ş.Mişelin təkbətək görüşündə də ifadə olunub. Dövlətimizin başçısı Aİ Şurasının rəhbərinin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, regionda davamlı sülh və təhlükəsizliyin, sabitliyin təmin olunmasına yönəlmiş səylərini yüksək qiymətləndirib. Yeri gəlmişkən, təkbətək görüşdə mayın əvvəlində Vaşinqtonda sülh müqaviləsi üzrə danışıqlar məsələsinə də toxunulub və mövcud kontekstdə regional məsələlər ətrafında müzakirə aparılıb. Həmçinin üçtərəfli görüşün gündəliyinə aid başqa məqamlara nəzər salınıb, Ermənistan tərəfindən iki ölkənin sərhədində Kəlbəcər istiqamətində törədilmiş məqsədyönlü təxribatlar da gündəmə gətirilib.

Ş.Mişelin N.Paşinyanla təkbətək görüşünə gəlincə, bildiririk ki, Nikolun Avropa auditoriyasına fərqli görünmək üçün İrəvanın tır sürücülərinə bənzər geyimi ilə diqqət çəkən təmas barədə Ermənistanın Nazirlər Kabineti məlumat yayıb. Məlumatda tərəflərin regiondakı vəziyyəti müzakirə etdikləri, Paşinyanın Laçın–Xankəndi yolundakı şərti sərhəddə Azərbaycana məxsus nəzarət-buraxılış məntəqəsinin qurulmasından, adəti üzrə, şikayətləndiyi önə çəkilib. Görüşdə, habelə, Moldovanın paytaxtı Kişinyovda beştərəfli formatda, yəni Almaniya Kansleri Olaf Şoltsun və Fransa Prezidenti Emmanuel Makronun da iştirakı ilə təmasın gerçəkləşdirilməsinin vacibliyindən danışıldığı vurğulanıb. Görünür, Aİ Şurasının rəhbəri əvvəlcədən bilinən beştərəfli görüşü Paşinyanın şikayətlərinə nikbinlik ovqatı gətirmək üçün yada salıb. Təxminən belə: dərdini həm də onlara (Makrona və Şoltsa – red.) de.

Ancaq məlumdur ki, Nikolun dərdini Fransa Prezidentinə söyləməsi xoşagəlməz nəticələr doğurur. Axı, Ş.Mişelin 9 ay öncəki missiyası, məhz buna görə iflasa uğramışdı. Görünür, Aİ Şurasının rəhbərinin təşəbbüsünə Almaniya Kanslerini də əlavə etməsi keçmişin xoşagəlməz təcrübəsinə qayıdılmaması üçündür. Ola bilər, Şoltsu görüşə qatmaq Makronun mümkün tərəfkeşliyinə qarşılıq atılmış addımdır. Üstəlik, Avropa tənzimlənməsində Fransa tək deyil, Aİ-nin mühüm siması Almaniya ilə birlikdədir – məntiqi də var.

***

Ümumən, mayın 14-də keçirilmiş üçtərəfli görüş bir neçə vacib özəlliklərə malikdir. Bu baxımdan Ş.Mişelin mətbuata açıqlamasında söylədiklərinin üzərində dayanmaq mümkündür. Məsələn, Aİ Şurasının rəhbəri təmsil etdiyi qurumun fəaliyyətinin davamlılığına toxunaraq, onun hər hansı gizli gündəliyinin yoxluğunu və məqsədinin sülh olduğunu vurğulayaraq bildirdi ki, tərəflər iyulda Brüsseldə yenidən bir araya gələcəklər: “Biz onların birgə səylərinə töhfə verməyə davam edəcəyik”.

Ş.Mişelin açıqlamasındakı digər məqama diqqət yetirək: “Biz keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilərin hüquq və təhlükəsizliyi məsələsinə dair fikir mübadiləmizi davam etdirdik. Mən Azərbaycanı beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlıq yolu ilə bu əhalinin hüquq və təhlükəsizliyini təmin etmək üçün müsbət gündəliyin işlənib hazırlanmasında iştiraka təşviq etdim. Mən, həmçinin Bakı ilə bu əhali arasında şəffaf və konstruktiv dialoq aparılmasına olan ehtiyacı vurğuladım”.

Bu iqtibasdan belə nəticəyə gəlmək mümkündür ki, Ermənistanın hakim dairələrinin, eləcə də ayrı-ayrı siyasi çevrələrinin zaman-zaman qaldırdıqları Qarabağ ermənilərinin hüquq və vəzifələri məsələsi Avropa nizamlaması üçün prioritet deyil. Çünki Ş.Mişel mövcud istiqamətdə “Azərbaycanın beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlıq yolu”nu irəli sürür. Bu, o deməkdir ki, Ermənistan, heç bir halda, Qarabağ erməniləri ilə bağlı nəyəsə iddia edə bilməyəcəkdir. Əlbəttə, bu məhrumiyyət hələ heç də o demək deyil ki, beynəlxalq ictimaiyyət ölkəmizə erməni kəsimlə əlaqədar hansısa məsələni sırımağa cəhd göstərməyəcəkdir. Ancaq, həm də 14 may görüşünə görə cavab arqumentlərimiz olacaq. Eyni zamanda, nəzərə alaq ki, Bakı Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə inteqrasiyasına, kifayət qədər, səmimi yanaşıb və yanaşmaqdadır. Deməli, üçtərəfli görüşdə ölkəmizin bu mövqeyi də əsas götürülüb. Buyurub Qarabağ ermənilərinə yanaşmamızdakı pozitiv məqamlara tamaşa edə bilərlər...

Daha bir məqama diqqət yetirək. Azərbaycan və Ermənistan liderlərinin az əvvəl haqqında söz açdığımız Kişineu sammitində (Fransa Prezidenti Makron və Almaniya Kansleri Şoltsla birlikdə 2-ci Avropa Siyasi İcması Sammiti) yenidən bir araya gələcəklərini, həmçinin onları oktyabrda Qranadada keçiriləcək 3-cü Avropa Siyasi İcması Sammiti çərçivəsində görüşə dəvət etdiyini xatırladan Ş.Mişelin vurğulamaq istədiyi başlıca məqam Avropanın sülh səylərinin ardıcıl qrafikə əsaslanmasıdır. Bu fikirdən hazırkı status-kvonu saxlamaqla, Ermənistanı qorumaq məntiqi də boylana bilər.

Digər tərəfdən, Aİ rəsmisinin söylədiklərində Qərb tənzimləməsini ardıcıllıq trayektoriyası subliminal şəkildə Rusiyanın vasitəçilik səylərinə qarşı qoyulur. Başqa sözlə desək: Qərb aktivdir, Rusiya yox. Yeri gəlmişkən, “Brüssel formatı”nın bərpasına Kremldən də reaksiya gəlib. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, ölkəsi iki il əvvəl imzalanmış üçtərəfli Bəyanatın məntiqinə sadiqdir. Buradan “siz nə edirsiniz edin, əsas bizim dediyimizdir” deyimi də nəzərə çarpmaqdadır: "Biz ondan çıxış edirik ki, üçtərəfli razılaşmalar hələ də nizamlanma üçün mübahisəsiz əsasdır və nizamlanmaya nail olmaq üçün biz üçlüyün əldə etdiyi razılaşmaların həyata keçirilməsi yolu ilə getməliyik".

***

Qayıdaq mətləbə. “Brüssel formatı” çərçivəsində toxunulan məsələlərdən biri də regionda kommunikasiyaların açılmasıdır. Ş.Mişelin mövzuya dair söylədikləri maraq doğurmaqdadır. O bildirib ki, məsələ ilə bağlı mövqelər bir-birinə çox yaxınlaşıb. Xüsusən də Naxçıvana və Naxçıvandan keçən dəmir yolu əlaqələrinin yenidən açılmasına yanaşmada: “Onlar (Azərbaycan və Ermənistan liderləri – red.) komandalarına dəmir yolu əlaqələrinin açılması və konkret vaxt cədvəli ilə birlikdə zəruri tikinti işlərinin aparılması ilə bağlı prinsipial razılaşmanı yekunlaşdırmaq tapşırığı veriblər. Onlar, həmçinin bu işdə Ümumdünya Gömrük Təşkilatının dəstəyindən istifadə etmək barədə razılığa gəliblər”.

Göründüyü kimi, üçtərəfli görüşdə Azərbaycan üçün prioritet olan bu məsələnin üzərində xüsusi dayanılıb. Burada vacib məqam Naxçıvana gedən yolun statusudur. Məlum olduğu kimi, ölkəmiz üçün Zəngəzur dəhlizi məntiqi var. Ermənistan isə bunu qəbul etmir. O zaman Ş.Mişelin Ümumdünya Gömrük Təşkilatının dəstəyindən faydalanmağa dair fikri necə izah edilə bilər? Təşkilat tərəfindən dəhliz üçün hansısa fərqli status təklif olunacaq? Hər halda, söhbətin ənənəvi sərhəd-buraxılış məntəqəsindən getmədiyi aydın görünür.

O da məlumdur ki, ölkəmizin Zəngəzur dəhlizi məntiqi Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolun qlobal məramından irəli gəlir. Bu yanaşmada həmin yolun təhlükəsizlik təminatında Ermənistana etimad göstərilməsindən uzaq durulması aşkardır. Görünür, sözügedən uzaqlıq dəst-xətti Avropa tərəfindən də qəbul edilir. Ancaq Paşinyana daxili auditoriya qarşısında cavab vermək üçün istinad lazımdır. Çox güman ki, Ümumdünya Gömrük Təşkilatı, məhz, buna görə dövriyyəyə gəlməkdədir. Hər halda, mövzu müzakirə üçün açıq təsir bağışlamaqdadır.

“Brüssel formatı” çərçivəsindəki görüşün ən mühüm nəticəsinə keçid almazdan əvvəl orada qaldırılan məsələlərdən birinə də diqqət yetirməyi zəruri sayırıq. Söhbət hər iki tərəfdə saxlanılan şəxslərin azadlığa buraxılmasından gedir. Görüş zamanı həmin şəxslərin qarşıdakı həftələrdə azadlığa buraxılmalarına dair anlaşmanın əldə edildiyini diqqətə çatdıran Ş.Mişel məsələyə baxışını bu cür əsaslandırıb: “Mən həmçinin, sadəcə olaraq, azaraq sərhədi qarşı tərəfə keçmiş əsgərlərin sürətli prosedurlarla azad edilməsinin davam etməsinə dair qarşılıqlı anlaşmanın qorunmasına ehtiyacı vurğuladım. Biz, həmçinin itkin düşmüş şəxslərin taleləri və minaların təmizlənməsi işlərinin sürətləndirilməsinin vacibliyini müzakirə etdik”.

***

İndi isə keçək üçtərəfli görüşün ən əhəmiyyətli hissəsinə. Məlumdur ki, Ermənistan “Brüssel formatı” çərçivəsində ötən ilin oktyabrında keçirilmiş Praqa Sammiti zamanı Azərbaycanın ərazi bütövlüyünü tanımışdı. Eləcə də Azərbaycan Ermənistanın. Ancaq sonradan İrəvanın hərəkət və davranışlarından belə nəticəyə gəlindi ki, bu tanınma üçün Qarabağ amili, bir növ, siyasi oyundur. Yəni, Ermənistan ərazinin kimə məxsusluğunu şübhələndirməkdə israrlı göründü. Mayın 14-də keçirilmiş görüşün nəticəsi isə gələcəkdə mövcud müstəvidə manipulyasiyalara imkan və şərait tanımır. Belə ki, Azərbaycan Prezidenti Ermənistanın 29800 kvadratkilometr, N.Paşinyan isə ölkəmizin 86600 kvadratkilometrlik ərazi bütövlüyünə birmənalı sadiqliklərini təsdiqləyiblər. “Sərhədlərin yekun delimitasiyası danışıqlar yolu ilə müəyyən ediləcək”, – deyən Aİ Şurasının rəhbəri Ş.Mişel hər iki liderin 1991-ci il Alm-Ata Bəyannaməsinə söykəndiklərini vurğulayıb.

Məsələnin məhz bu formada konkretləşməsi həm də ona görə vacibdir ki, Paşinyan indiyədək Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, ölkəmizin isə Ermənistanın 29800 kvadratkilometr ərazisini tanımalı olduğunu vurğulayırdı. O, bilərəkdən 86600 kvadratkilometr sözünü dilinə gətirmirdi. Erməni tərəfi, hətta, indiki Brüssel danışıqlarında da 1975-ci ilin xəritələrinin qeyd olunmasına çalışıb, lakin alınmayıb. Əsas Alm-Ata Bəyannaməsidir və bu sənəd, artıq, spekulyasiyalar üçün tam bağlıdır.

***

Sonda qeyd edək ki, indiyədək “Brüssel formatı” çərçivəsində keçirilmiş görüşlər, mövcud xüsusda Aİ Şurasının rəhbəri Şarl Mişelin vasitəçilik missiyası Azərbaycan üçün uğurlu nəticələr verib. Mayın 14-də keçirilmiş görüş də uğur ənənəsinin davamı baxımından qiymətləndirilməlidir. Nəzərə alsaq ki, bu format çərçivəsində yaxın gələcəkdə Azərbaycan və Ermənistan liderləri daha iki dəfə üz-üzə gələcəklər, həmin təmasların məhsuldarlığına da inanmaq mümkündür.

Əlbəttə, başlıca gözləntimiz sülhlə bağlıdır. Belə görünür və bəyan edilir ki, dünyanın da gözləntisi budur. Ancaq onu da nəzərə almalıyıq ki, gözləntinin özünü doğrultması Ermənistan hakimiyyətinin hərəkətlərindən, qətiyyət və iradəsindən asılıdır. Paşinyan administrasiyası sülh gündəliyinə, xüsusən də “Brüssel formatı”nın verdiyi nikbinlik ovqatına nə dərəcədə adekvat davranacaq, bunu əlahəzrət zaman göstərəcək.

***Ə.CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***

# XİN: Suverenliyimizə qarşı qərəzli fikirlərə son qoyulmalıdır

**Avropa İttifaqı səfirinin beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycanın daxili işlərinə müdaxilə cəhdi olan fikirləri qəbuledilməzdir.**



Bu barədə Xarici İşlər Nazirliyinin mayın 15-də Avropa İttifaqının Ermənistandakı səfiri Andrea Viktorinin mətbuat konfransında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin açıqlamasına istinadən söylədiyi “Dağlıq Qarabağın erməni əhalisinin hüquq və təhlükəsizliyi təmin olunmalıdır” və bu məqsədlə “beynəlxalq mexanizm” yaradılmalıdır” fikirlərinə dair bəyanatında bildirilib.

Qeyd edilib ki, bu məsələdə ölkəmizin mövqeyi hər kəsə məlumdur.

Bildirilib ki, Qarabağ bölgəsi Azərbaycanın suveren ərazisidir və Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi, erməni sakinlərin də hüquq və təhlükəsizliyi ölkəmizin qanunvericiliyi çərçivəsində təmin olunacaq.

Azərbaycan tərəfinin erməni sakinlərlə qeyd edilən istiqamətdə dialoq səylərinə maneçilik törədilməməli, ərazi bütövlüyü və suverenlimizə qarşı olan qərəzli fikirlərə son qoyulmalıdır.

***“Xalq qəzeti”***

# Avropa Məhkəməsi Cenevrə Konvensiyasına göz yumur

**Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) 2023-cü ilin aprel ayında yolu azaraq, Ermənistan Respublikasının sərhədini keçən iki Azərbaycan vətəndaşının – hərbi qulluqçular 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlunun qohumlarının Ermənistan hökumətinə qarşı müvəqqəti tədbirin tətbiqi barədə müraciətini rədd edib.**

Xatırladaq ki, hazırda erməni əsirliyində olan hərbçilərin yaxınları əsirlikdəki doğmalarına qarşı yaşama və hüquqa zidd münasibətin təzahürlərini əsas götürərək, İrəvana qarşı işgəncədən çəkinmək öhdəliyi əsasında müvəqqəti tədbirlərin tətbiqi üçün AİHM-yə vəsatət göndərmişdi. Lakin AİHM bu vəsatətləri Avropa Məhkəməsi Qaydalarının 39-cu maddəsinə uyğun olaraq rədd edib. AİHM hesab edib ki, Ermənistan Azərbaycan hərbçilərinin konvensional hüquqlarını lazımi qaydada təmin edir. Avropa Məhkəməsinin fikrincə, Ermənistan tərəfinin bununla bağlı təqdim etdiyi sübutlar qənaətbəxşdir.

AİHM-nin məlum qərarı ilə bağlı ən çox narazılıq doğuran məqam məhkəmənin görünən faktları görmək istəməməsidir.

Qeyd edək ki, hələ cari ilin aprel ayında əsir əsgərlərimizdən Hüseyn Axundovun fiziki işgəncəyə, qeyri-insani rəftara məruz qalması ilə bağlı çoxsaylı foto-video görüntülər yayılıb. Ermənistanın teleqram kanallarında yer alan bu görüntülərdə ermənilərin əsir əsgərimizi ağır fiziki zorakılığa məruz qoyduğu aydın şəkildə görünür. Yəni işgəncə faktını sübut etmək üçün hansısa məxsusi araşdırma aparmağa, ekspert rəyi əldə etməyə ehtiyac yoxdur. Lakin bu halda belə AİHM işgəncə faktını görməzdən gəlir ki, bu da məhkəmənin görünən dağa bələdçi axtarmaq cəhdinə bənzəyir.

Məlum olduğu kimi, Cenevrə Konvensiyasını, onun tələblərini də saya salmadığını göstərir. Cenevrə Konvensiyası əsirlərə qarşı işgəncə faktını, qeyri-insani münasibəti qınayır, bunu ağır cinayət kimi dəyərləndirir. Ermənilər isə əsir hərbçilərimizi amansız işgəncələrə və təhqiramiz münasibətə məruz qoymaqla 1949-cu ildə qəbul edilən Cenevrə Konvensiyasının 3-cü maddəsinin c bəndini, 12-ci və 50-ci maddələrini açıq şəkildə pozublar. Bu isə o deməkdir ki, əsir hərbçilərimizn pozulan hüquqları bərpa edilməklə yanaşı, onları ağır işgəncəyə məruz qoyan şəxslər də müəyyən edilərək məsuliyyətə cəlb olunmalıdır.

***Seymur ƏLİYEV***

# Heydər Əliyev dərsləri

**(əvvəli “Xalq qəzeti”nin 2023-cü il 7 və 13 may nömrələrində)**

## Öz səhvlərinizin bəlasını çəkirsiniz

***Doxsanıncı illərin ortalarında Azərbaycan Milli Elmlər Akademiyası ətrafında cərəyan edən xoşagəlməz hadisələr elmi ictimaiyyət arasında bir çaşqınlıq yaratmışdı. Heydər Əliyev 1997-ci ilin yanvarında AMEA-nın rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşündə yaranmış vəziyyətin səbəblərini müzakirə etmişdi.***

Eldar Salayev (**AMEA-nın o vaxtkı prezidenti-F.S.**) görüşdə bildirdi ki, qanun qəbul olunub, indiyə qədər imzalanmayıb. Ulu öndər dərhal ona cavab verdi, bunda sizin günahınız var. Elə qanun qəbul edin ki, imzalansın. Bir tərəfdən deyirsiniz ki, akademiyanı kimsə dağıtmaq istəyir, o biri tərəfdən də 1992-ci ildə qərar qəbul etmisiniz ki, akademiya özünü idarə edən təşkilatdır, müstəqildir, filandır, heç kəsdən asılı deyil, bir Allaha tabedir. Elə bu dağıntı işini özünüz etmisiniz. Nizam-intizam pozulanda, dövlətçilik pozulanda hər şey ola bilər.

O vaxt ki, – 1992-ci ildə – dövlətçiliyi pozurdular onda siz bu fürsətdən istifadə edib bunu pozmusunuz. Elə bildiniz ki, bu, sizə xeyir gətirəcək? Xeyir gətirməyəcəkdir. Görürsünüz gəlib nə günə düşdünüz? Ona görə öz səhvlərinizin bəlasını çəkirsiniz və mən bu səhvlərə yol verə bilmərəm. Bəli, mən göstəriş vermişəm o qanunu işləsinlər. Şübhəsiz ki, elm müstəqildir, başqa sahələrdəki kimi elmdə də demokratik prinsiplər tam tətbiq olunmalıdır. Amma Azərbaycanın Elmlər Akademiyası Azərbaycan dövlətinindir və Azərbaycanın Prezidentinə tabedir. Bu, özəl təşkilat deyil ki, özünüz-özünüzdən bir şey çıxarasınız...

## Siz özünüzü kənara çəkmisiniz

***1990-cı ilin Yanvar faciəsinə vaxtında siyasi qiymət verilməməsinin əsas günahkarları o dövrki hakimiyyət təmsilçiləri idi. 1997-ci ilin yanvarında AMEA-da keçirilən görüşdə Heydər Əliyev tanınmış bir çox ziyalıların, alimlərin də bu məsələyə münasibətdə biganə qalmasının bağışlanılmaz səhv olduğunu diqqətə çatdırdı:***

– 1989-cu ildə Tbilisi hadisələri olmuşdu. Orada 16 adam həlak olmuşdu, özü də oraya kənardan qoşun gəlməmişdi, Zaqafqaziya Hərbi Dairəsinin qoşunları idi. Meydanda 16 adam həlak olmuşdu. Amma gürcülər bu məsələni qaldırdılar. Moskvada xalq deputatları, – sizlər də onların arasında vardınız, – həmin o Qurultaylar sarayında hamını ayağa qaldırdılar ki, həlak olanların xatirəsi yad edilsin. Qorbaçovu məcbur elədilər– o, gürcü xalqından üzr istədi. Amma ondan yarım il, yaxud yeddi-səkkiz ay sonra Azərbaycanın başına bundan on qat artıq bəla gəldi. Nə etdiniz? Bizdən, xalqımızdan üzr istədilərmi? Yox! Buna qiymət verildi? Yox! Həmin o yanvarın 24-25-də keçirilən plenumda – indi vəzifədə olan bəzi adamlar da var, deyirlər ki, biz nə edəcəkdik? – Görün, nə edərdiniz.

O vaxt Kommunist Partiyasının Mərkəzi Komitəsi ən yüksək, hakim dövlət strukturu idi. Sessiyada qəbul olunmuş qərarı təsdiq edəydiniz, təkrar edəydiniz, – əgər bundan artığına gücünüz, yaxud qüdrətiniz çatmırdısa. O plenumda iştirak edənlərin bəziləri buradadır, mən sizin üzünüzə deyirəm – onu təsdiq edəydiniz, təkrar edəydiniz, yaxud da ona bənzər bir bəyanat qəbul edəydiniz ki, Azərbaycan KP MK plenumu Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzü pisləyir və tələb edir ki, buna son qoyulsun. Bunu etmədiniz. Camaat küçələrdə qırıldı. Küçələrdə partiya biletlərini atanlar atdı, yandıranlar yandırdı. Amma Mərkəzi Komitənin üzvləri, deputatlar faciədən beş gün sonra yığışdılar, ağızlarına su alıb oturdular, cinayətkarları da başladılar müdafiə etməyə.

Budur, bizim tariximiz! Bu, həqiqətdir. Bu həqiqətdən heç kim qaça bilməz. Ona görə də, Eldar **(Salayev-AMEA-nın o vaxtkı prezidenti-F.S.**), sən necə çıxış etmisən, hansı cür çıxış etsən də onun qiyməti yoxdur. Çünki niyə, mən bunu belə hesab edirəm. Sənin mart ayındakı çıxışını oxumamışam, bilmirəm. Amma əgər sən orada çıxış edib ittiham etmisənsə, doğrudan da, öz etirazını bildirmisənsə, nəyisə tələb etmisənsə, gətir o sənədi, qoy mənim qabağıma, deyim onu sabah televiziya ilə versinlər. Gətir o stenoqramı. Amma sən orada durub onu bir balaca tənqid etmisənsə, bunu bir balaca tənqid etmisənsə – hesab edirsən ki, böyük iş görmüsən – bu, böyük iş deyil.

... Ona görə Qanlı Yanvar faciəsinin günahkarları, – şübhəsiz ki, onlar məlumdur, həm Moskvada, həm də Azərbaycanda – başqaları da. O cümlədən sizin çoxunuz da ki, bu işlərə biganə qalmısınız, özünüzü kənara çəkmisiniz – bağışlanılası deyil. Qətiyyən bağışlanılası deyil!




## Səməd Vurğunu heç kim qınaya bilməz

**Müstəqilliyin ilk illərində müəyyən dairələr sovet dönəmi ədəbiyyatından tamamilə imtina etmək barədə məsələ qaldırır, o dövrün yazıçı və şairlərini kommunist rejiminə xidmət etməkdə günahlandırırdılar. Tanınmış ədəbiyyat xadimləri, o cümlədən, Səməd Vurğun ciddi tənqid hədəfinə çevrilmişdi. Heydər Əliyev isə “Səməd Vurğunu heç kim qınaya biməz”– deyərək, öz fikrini belə əsaslandırmışdı:**

– Səməd Vurğunun əsərləri öz dövründə yazılıbdır. O dövrün hökmü, tələbləri Səməd Vurğunun əsərlərində də öz əksini tapıbdır. Bu gün heç kəs buna görə Səməd Vurğunun əvəzindən üzr istəməməlidir. Səməd Vurğunun bütün əsərləri ilə Azərbaycan xalqı əvvəldən axıradək fəxr edir, bundan sonra da fəxr edəcəkdir.

Səməd Vurğun komsomola həsr etdiyi poemasında da, Kommunist Partiyasına həsr etdiyi “Zamanın bayraqdarı” poemasında da öz əqidəsinə xidmət edib, öz əqidəsinə sadiq qalıbdır, eyni zamanda, yüksək şeir sənətini nümayiş etdiribdir.

Şərqdə həmişə şeir böyük hörmətə layiq olubdur və hər bir şair öz dövrünün aşiqi olubdur, öz dövrünü yazıbdır. Biz buna görə keçmiş əsrlərin heç bir şairinə hər hansı bir mənfi münasibət göstərə bilmərik və kimisə qınaya bilmərik. Səməd Vurğunu da heç kəs qınaya bilməz ki, o şeirləri, poemaları yazıbdır.

## İran bizim daxili işlərimizə qarışmamalıdır!

***1997-ci ilin martında Fransaya səfəri zamanı mətbuata bəyanatla çıxışı zamanı fransız jurnalistin İranla bağlı verdiyi suala Heydər Əliyev tutarlı və əsl hədəfə tuşlanmış cavab verir.***

**Sual:** Cənab Prezident, Sizinlə qonşu olan bir dövlət də var, onun haqqında danışmamışıq. Bu, İran dövlətidir... Bilmək istərdim ki, İrana Siz necə baxırsınız, ümumiyyətlə, İrandan inqilabın ixrac edilməsi faktı, prosesi olubmu? Ümumiyyətlə, İranın gələcək inkişafını necə görürsünüz?

**Cavab:** İran bizim böyük qonşumuzdur. Bizim İranla çox böyük sərhədimiz var. İranda da çoxlu azərbaycanlı yaşayır. Bəzi məlumatlara görə, İranda 30 milyona qədər azərbaycanlı yaşayır. Elə bilməyin ki, siz burada, Fransada hər şeyi bilirsiniz. Çox şeyi bilmirsiniz.

**Jurnalist:** Siz bu 30 milyonu deyəndə mənşəcə azərbaycanlı olan iranlıları nəzərdə tutursunuz?

**Cavab:** Əlbəttə, azərbaycanlıları deyirəm. Necə mənşəcə? Bunlar həqiqi azərbaycanlıdırlar. Tarixən Azərbaycan keçmişdə bir olubdur. XIX əsrin əvvəllərində Rusiya ilə İran arasında gedən müharibələr nəticəsində Azərbaycan iki yerə parçalanıbdır. Onun çox hissəsi İranın tərkibində qalıb, indi də oradadır. Az hissəsi Rusiyanın tərkibində qalıb. Rusiyanın tərkibində olan həmin o Azərbaycan da indi bizim yaşadığımız Azərbaycandır. Bizim aramızda ancaq Araz çayı var. Bəzi yerlərdə heç Araz çayı da yoxdur. İranda olan kəndlə bizim kəndin arasında yüz metrlik məsafə var. Ona görə də sərhədimizin İran tərəfində olan əhalinin hamısı azərbaycanlıdır. Bunu siz bilməlisiniz.

...O ki qaldı İslam inqilabının Azərbaycana təsirinə, bunun Azərbaycana heç bir təsiri yoxdur. Mənim təmsil etdiyim müstəqil Azərbaycan Respublikasının öz dövlət quruluşu, dövlət prinsipləri var. İran Respublikasının da öz dövlət quruluşu, öz yaşayış prinsipləri var. Biz onların daxili işlərinə qarışmırıq, onlar da bizim daxili işlərimizə qarışmamalıdırlar…

## Eyni gözlə baxmayın

***Heydər Əliyev diplomatiya etikası xatirinə dost, qardaş, qonşu ölkə adlandırdığı İranın həmişə Azərbaycana qarşı düşmən mövqedə dayandığını, xüsusilə Birinci Qarabağ müharibəsində Ermənistana hərtərəfli dəstək göstərdiyini çox yaxşı bilirdi. Bəzi görüşlərdə fars rejiminin Azərbaycana münasibətdə birtərəfli, ədalətsiz mövqe tutmasını bu ölkənin yüksək səviyyəli rəsmilərinin üzünə deyirdi. 2002-ci ilin aprelində İranın xarici işlər naziri Kamal Xərrazinin ölkəmizə səfəri zamanı da belə bir hal olmuşdu.***

**Heydər Əliyev:** Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması sahəsində sizin bundan sonra da səylər qoymaq məqsədinizi mən alqışlayıram və təşəkkür edirəm. Bu münaqişə artıq çox illərdir davam edir. Münaqişənin həll edilməsində dost, qardaş, qonşu ölkə olan İranın həm dəstəyinə, həm də yardımına həmişə ehtiyacımız olubdur. Bu gün də belədir. Ancaq Ermənistanla əlaqələrinizin yaxşı olması sizin siyasətinizin nəticəsidir. Amma mən istəməzdim ki, siz Azərbaycanla Ermənistana olan münasibətinizi bir tərəzidə eyni çəkidə saxlayasınız. Siz buyurdunuz ki, xoşbəxtlikdən Azərbaycan ilə yaxşı əlaqə qurmusunuz, Ermənistanla da yaxşı əlaqə qurmusunuz, bu da Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında faydalı ola bilər. Bu doğrudur. Ancaq İran–Azərbaycan əlaqələrini İran–Ermənistan əlaqələri ilə bərabərləşdirmək olmaz. Çünki bizim ölkələrimizi, xalqlarımızı bir-birinə bağlayan böyük tarixdir, bizim tarixi köklərimizdir, bizim müştərək mədəniyyətimizdir, adət-ənənələrimizdir, bizim bir dinə mənsub olmağımızdır. Amma Ermənistanla sizin, yəqin ki, ancaq iqtisadi əlaqələriniz var. Ona görə rica edərdim ki, bu əlaqələrə eyni gözlə baxmayasınız. İqtisadi məsələlər, hansıları ki, siz dediniz, həqiqətən, bizim əlaqələrimizdə belə problemlər var. Biz bunları tədricən həll edirik. Xatirinizdədir, bizim müştərək iqtisadi komissiyamız bir neçə vaxt bundan öncə İranda toplaşdı və orada çox yaxşı müzakirələr keçdi. Ancaq hələ işlərin çoxu həll olunmayıbdır. Mən öz tərəfimdən əlavə göstərişlər verəcəyəm ki, bu əlaqələrin inkişaf etdirilməsi üçün həm bizim müştərək komissiya çərçivəsində, həm də bütün başqa sahələrdə lazımi tədbirlər görülsün.

**Kamal Xərrazi:** Zati-aliləri, çox sağ olun. İran ilə Azərbaycan arasında bizi bağlayan əlaqələr, o cümlədən, tarixi, mədəni, dini əlaqələr, sözsüz ki, hər iki xalq üçün böyük sərvətdir. Biz bunların əsasında mövcud olan imkanlardan gələcək üçün geniş istifadə etməliyik. Amma bəlkə də bunları – İranın Azərbaycanla və İranın Ermənistanla əlaqəsini müqayisə etmək olmaz. İstər dərinliyi baxımından, istərsə də vüsəti baxımından İranla Azərbaycanın münasibətlərinin həddi-hüdudu ola bilməz.

**(ardı var)**

***Təqdim etdi:***
***Faiq SADIQOV,***
***Əməkdar jurnalist***

# Rusiya paytaxtında ulu öndərin yubileyinə həsr olunmuş sərgilər



**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti dünən Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasında Heydər Əliyev Fondunun dəstəyi ilə ümummilli liderin 100 illiyi münasibətilə təşkil olunmuş sərginin açılış mərasiminə qatılıb.**

Milli Məclisin mətbuat xidmətindən aldığımız məlumatda bildirilir ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu, Milli Məclisin deputatları, TASS agentliyinin rəhbərliyi, Federasiya Şurasının üzvləri və digər rəsmi şəxslər iştirak ediblər.



Sərgidə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dönəmlərini əks etdirən fotoşəkillər nümayiş olunub.

Mərasimi açan Federasiya Şurasının sədri Valentina Matviyenko müasir Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti haqqında fikirlərini bölüşüb.

Tədbirdə çıxış edən Sahibə Qafarova Azərbaycanın müasir tarixinin bir qərinədən çoxunun milli dövlətçiliyin banisi, görkəmli siyasi xadim Heydər Əliyevlə – adını ölkəmizin tarixinə əbədi yazdırmış, ömrünü Azərbaycan xalqının rifahına xidmətə fəda etmiş dahi insanla bağlı olduğunu bildirib.

Vurğulanıb ki, Heydər Əliyevin tarixi proqnozu bu gün artıq gerçəkləşib, işğaldan azad edilmiş ərazilərdə hazırda sürətli bərpa işləri aparılır, genişmiqyaslı infrastruktur layihələri icra olunur.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarovanın Federasiya Şurasının sədri Valentina Matviyenko ilə təkbətək görüşü olub.

***

Həmin gün nümayəndə heyəti Heydər Əliyev Fondunun dəstəyi ilə Rusiya Dövlət Dumasının inzibati binasında təşkil edilmiş “Azərbaycan və Rusiya arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsində Heydər Əliyevin rolu” adlı sərgi ilə də tanış olub.

Tədbiri TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman açıb.

Milli Məclisin Sədri Sahibə Qafarova görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş sərginin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib.

Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafına əvəzsiz töhfələrindən danışan Milli Məclisin sədri dahi şəxsiyyətin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində, beynəlxalq aləmdə nüfuzunun artırılmasında müstəsna rol oynadığını deyib. Bildirilib ki, məhz Heydər Əliyevin sayəsində bu gün Azərbaycanda hüquqi, demokratik dövlət qurulub və inkişaf edir.

Qeyd edilib ki, Azərbaycanın xarici siyasət strategiyasının əsas istiqamətlərini müəyyənləşdirən ümummilli lider Rusiya ilə mehriban qonşuluq və dostluq münasibətlərinin qurulmasına xüsusi önəm verib. Hazırda Azərbaycanla Rusiya arasında münasibətlər müttəfiqlik səviyyəsinə yüksəlib. Bu gün ümummilli liderin bütün vəsiyyətləri müvəffəqiyyətlə yerinə yetirilir. Azərbaycan regionun güclü dövlətlərindən birinə və etibarlı siyasi, iqtisadi tərəfdaşa çevrilib. Vətən müharibəsində Azərbaycan öz torpaqlarını erməni işğalından azad edərək, ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. İşğalçılar tərəfindən dağıdılmış tarixi şəhər və kəndlərimizin bərpası, məcburi köçkünlərin daimi yaşayış yerlərinə dinc və təhlükəsiz şəkildə qayıtmaları üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı fəaliyyət həyata keçirilir.

Sonra Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının sədri Vyaçeslav Volodin çıxış edərək, ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti barədə fikirlərini bölüşüb. O, Heydər Əliyevin keçmiş SSRİ-dəki fəaliyyətini, Azərbaycan–Rusiya münasibətlərinin inkişafındakı rolunu yüksək dəyərləndirib.

Sərgidə çıxış edən Dövlət Dumasının fraksiya rəhbəri Gennadi Züqanov, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu ulu öndər Heydər Əliyev haqqında xatirələrini və ürək sözlərini söyləyiblər.

Sonra Milli Məclisin sədri Sahibə Qafarova Dövlət Dumasının sədri Vyaçeslav Volodinlə görüşüb.

***

Həmin gün Milli Məclisin sədri TASS agentliyində ulu öndərin100 illiyinə həsr olunmuş sərgi ilə tanış olub.

Sərgidə görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin həyat və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar nümayiş olunur.

Sərgi ilə tanışlıqdan sonra TASS agentliyinin mənzil-qərargahında Azərbaycan nümayəndə heyəti ilə agentliyin rəhbər şəxsləri arasında görüş keçirilib.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin 100 illik yubileyinə göstərilən yüksək diqqətə və sərginin təşkilinə görə təşəkkürünü bildirib. Söhbət zamanı TASS agentliyinin baş direktoru Sergey Mixaylov və agentliyin əməkdaşları ulu öndər Heydər Əliyevin dahi şəxsiyyət kimi misilsiz fəaliyyətindən bəhs ediblər.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

# Sülhə yol ərazi bütövlüyündən keçir

## Yaxud Avropa İttifaqı bölgədə çoxdan gözlənilən sülhün bərqərar olması üçün göstərdiyi təşəbbüsündə nə dərəcədə ədalətli və səmimidir?

**İstər İkinci Qarabağ müharibəsinin gedişində, istərsə də şimal qonşumuz "xüsusi hərbi əməliyyatlar"a başlayana qədər, yəni artıq postmüharibə dövründə Bakı ilə bəyanat, ultimatum, sanksiya dilində danışmağa çalışan, emissarlarını bir-birinin ardınca regiona "kəşfiyyata" göndərən Avropa İttifaqının (Aİ) gündəmində bu gün Azərbaycan və Ermənistan arasında sülh dialoqudur. Aİ rəhbərliyinin qeyd etdiyimiz dönəmlə müqayisədə Bakıya münasibətinin sonradan kəskin dəyişdiyini müşahidə edirik və bunun əməldə təzahürünü qurumun şurasının prezidenti Şarl Mişelin tərəfləri dialoqa cəlbetmə missiyasında, özünün iştirakı ilə Azərbaycan və Ermənistan rəhbərlərinin üçtərəfli görüşlərinin təşkilində görürük. Bu təşəbbüslərin sülhə ümidləri doğruldacağına heç bir şübhənin əmələ gəlməməsi isə İrəvanın təklif olunan sülh sazişinin şərtlərini qəbul etməsindən birbaşa asılıdır.**



9 aylıq fasilədən sonra mayın 14-də Brüsseldə baş tutan növbəti üçtərəfli danışıqların yekunlarına dair Aİ Şurasının rəhbəri Şarl Mişelin açıqlaması sülh prosesində müəyyən irəliləyişin əldə olunduğu təəssüratını yaradır. Ən azı, tərəflərin dövlətlərin ərazi bütövlüyünün qarşılıqlı tanınması məsələsində ortaq məxrəcə, yekdil rəyə gəlməyə yaxınlaşdığı barədə cənab Mişelin sözləri diqqəti cəlb edir: "İki ölkənin liderləri 1991-ci il "Alma-Ata Bəyannaməsi"nə və Ermənistanın (29,8 min kvadrat kilometr) və Azərbaycanın (86,6 min kvadrat kilometr) müvafiq ərazi bütövlüyünə sadiq olduqlarını bir daha təsdiq etdilər".

Sülh sazişinin əsas bəndi hesab olunan dövlətlərin ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması sonrakı bütün bəndlərin bir növ leytmotividir. Tərəflərin mövqelərində yaxınlaşmanın detalları açıqlanmasa da, dördsaatıq müzakirənin məhz bu müstəvidə aparıldığını güman etmək çətin deyil.

Azərbaycan XİN-in Avropa İttifaqı Şurasının rəhbərinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Prezidenti və Ermənistanın baş naziri arasında keçirilmiş növbəti görüşə dair şərhində 14 may dialoqunun nəticəsi kimi sülh gündəliyində əldə olunan pozitiv məqamlara diqqət çəkilir: "Görüş zamanı Azərbaycan və Ermənistan arasında ikitərəfli sülh sazişi layihəsinin razılaşdırılması, sərhədlərin delimitasiyası və kommunikasiyaların bərpası istiqamətləri üzrə konkret nəticələrin əldə edilməsi məqsədilə ətraflı fikir mübadiləsi aparılıb. Azərbaycan tərəfinin regionda sülh və sabitliyin təmin edilməsi ilə bağlı prinsipial mövqeyi bir daha tərəf-müqabillərin diqqətinə çatdırılıb. Xüsusilə, dövlətlərin ərazi bütövlüyünə hörmətin bir daha təsbit edilməsi, bu kontekstdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün Ermənistan tərəfindən də qəbul edilməsi müstəsna əhəmiyyət kəsb edir".

XİN-in şərhində həmçinin münasibətlərin normallaşması üçün tərəqqi əldə edilməsinə dəstək verən səylərin alqışlandığı, rəsmi Bakının bu məqsədi güdən beynəlxalq tərəfdaşlarla dialoqu və qarşılıqlı fəaliyyəti davam etdirməyə hazır olduğunu bir daha təsdiqlədiyi vurğulanır.

"Bu dəfə danışıqlar daha predmetli olub". "Armenpress" yazır ki, bu sözləri Hayastanın xarici işlər nazirinin müavini Paruyr Ovanisyan keçirdiyi mətbuat konfransında Brüssel görüşü barədə danışarkən deyib. Dövlətlərin ərazi bütövlüyünün qarşılıqlı tanınması məsələsinə toxunan erməni nazir müavini burada söhbətin Sovet İttifaqı dağılan zaman mövcud olmuş sərhədlərdən getdiyinə diqqəti çəkib: "Bu yanaşma Alma-Ata Bəyannaməsinə tam uyğundur, indi, sadəcə, bu prinsip təsdiqlənib".

Aİ Şurasının rəhbəri Şarl Mişel mətbuat üçün açıqlamasında onu da qeyd edib ki, iki ölkə arasında sərhədlərin yekun delimitasiyası məsələsi danışıqların növbəti raundunun mövzusu olacaq: "Sərhəd məsələlərində biz irəliləyişi və sərhədlərin delimitasiyası ilə bağlı atılacaq növbəti addımları müzakirə etdik. Həmin kontekstdə liderlər sərhəd məsələləri ilə bağlı ikitərəfli görüşlərin bərpasına dair razılığa gəldilər".

Ermənistanla şərti sərhədə nəzarəti bərpa etmiş Azərbaycanın mövqeyi aydın və dəyişməzdir. Bakı özü üçün sərhəd zolağını de-fakto müəyyənləşdirib. Brüssel görüşləri tək Cənubi Qafqazda deyil, eləcə də Avropada siyasilərin diqqətlə izlədiyi dialoq platformasıdır. Onlar üçün özünü bölgədə sülhün və təhlükəsizliyin tərəfdarı kimi təsdiqləmiş Bakı ilə siyasi təmasların möhkəmləndirilməsi faydalıdır. Çünki, rəsmi Bakının Brüssel görüşlərində sərgilədiyi sağlam və prinsipial mövqeyini görən avropalılar, nəhayət, anlamağa başlayıblar ki, bölgədə dayanıqlı sülhün olmasında və sabitliyin qorunub saxlanılmasında maraqlı tərəf məhz Azərbaycandır.

Təki bu təşəbbüslər göründüyü kimi səmimi, nəticə isə ədalətli olsun. Amma, başına gələn başmaqçı olar,– deyiblər. Bizim də ağlımıza istər-istəməz artıq arxivləşmiş ATƏT-in Minsk qrupunun münaqişəni "məhşər gününə"dək uzatmağa çalışan həmsədrləri düşür. Şarl Mişelin məhz onların iflasa uğratdığımız missiyasını təkrar etməyəcəyinə, sülh gündəliyini məntiqi sonluğa daşıya biləcəyinə inanmaq istərdik.

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi



**Fikrət SADIXOV,**
**politoloq**

Şarl Mişelin bəyanatında işlətdiyi ifadələr tam mənada Azərbaycanın maraqlarına cavab verir.
Çünki orada söhbət Azərbaycanın ərazi bütövlüyündən gedir və bəyanatdakı bir neçə aspekt bizim üçün məqbul sayıla bilər. Alma-Ata Bəyannaməsinin əsas kimi götürülməsi də bizi tam qane edən məqamdır. Ermənistan uzun illər ərzində ərazi bütövlüyümüzü şübhə altına alır və Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edirdi. Bu isə sülh danışıqlarına özünün neqativ təsirini göstərirdi. İkinci müsbət məqam kimi Şarl Mişelin açıqlamasında Naxçıvana yolun açılması barədə ifadələrin yer almasını göstərə bilərik. Yəni o, birmənalı şəkildə bəyan etdi ki, Naxçıvanla Azərbaycanın əsas hissəsi birləşməlidir. Nəhayət, düşünürəm ki, Aİ Şurasının rəhbərinin açıqlamasında ermənilərin əsir götürdükləri iki hərbçimizin qaytarılmasına çağırışın səslənməsi də vacib məqamdır. Düzdür, burada söhbət, ümumiyyətlə, hərbi əsirlərin mübadiləsindən gedir, amma indi həbsdə saxlanılan əsgərlərimizdən birinin qondarma ittihamla uzun müddətə azadlıqdan məhrum edilməsi qınanmış və onların vətənə qaytarılmasına şəraitin yaradılması tövsiyə edilmişdir. Bu da təqdir olunası haldır. İrəvan isə bunun qarşısında heç bir təklif irəli sürə bilməyib. Əlbəttə ki, bu, Azərbaycanın xarici siyasətinin uğurudur.

Ermənistan Şarl Mişelin bəyanatında səslənən tövsiyələri , eləcə də sülh sazişində göstərilən şərtləri yerinə yetirməlidir.

# "Missiya yalnız sərhəddə müşahidə aparır"

**Bu sözləri Avropa İttifaqının (Aİ) Ermənistandakı nümayəndəliyinin rəhbəri, səfir Andrea Viktorin İrəvanda Avropa Gününə həsr olunmuş mətbuat konfransında erməni jurnalistin sualına cavab verərkən deyib.**



2022-ci ilin oktyabrında Aİ Xarici İşlər Nazirləri Şurasının qərarı ilə yaradılmış, 3 ay ərzində Ermənistan ərazisində yerləşdirilən mülki missiyanın fəaliyyəti bu ilin yanvar ayında 2 ilə qədər uzadıldı. Yüz nəfərdən ibarət mülki missiya Ermənistanın Azərbaycanla şərti sərhədi boyu vəziyyətin monitorinqi ilə məşğul olur.

Amma avropalı heyətin həmin monitorinqi necə və hansı formada həyata keçirdiyini nəinki şərti sərhədin bu tayında, heç Hayastanın özündə də bilən yoxdur. Bununla bağlı İrəvan rəsmiləri arasında, hərbi rəhbərliyində, hətta mediasında ara-sıra narazılıqlar, mənfi təmayüllü açıqlamalar müşahidə olunmaqdadır. Səkkiz ay bundan əvvəl Fransanın birbaşa təşəbbüsü və dəstəyi ilə bölgəyə göndərilən Avropa "legionu"nun konkret hansı fəaliyyəti həyata keçirdiyi, adı mülki, faktiki yarımhərbi bu missiyanın həqiqi vəzifəsinin nədən ibarət olduğu hayların özləri üçün də qaranlıq imiş. O zaman Aİ-nin Ermənistan üzrə missiyasının (EUMA) Azərbaycan–Ermənistan sərhədinin Ermənistan tərəfində yerləşməsinə Bakı etiraz etmədiyini, lakin onlarla əməkdaşlıqdan söhbət getmədiyini bildirmişdi. Son aylar isə erməni mediası əsasən istefada olan alman və fransız hərbçilərindən, jandarmlarından ibarət müşahidəçi kontingentin İrəvana hesabat verməli olduğu barədə məlumatları tirajlamağa başlayıb. Bu barədə səfir Andrea Viktorinə İrəvanda Avropa Gününə həsr olunmuş mətbuat konfransında ünvanlanmış sual və ona verilən cavab maraq doğurur. Mətbuat konfransından məlumat yayımlayan "armenpress" informasiya agentliyi "Azərbaycanın sonuncu təcavüz yerində müşahidələri barədə İrəvana hesabat təqdim ediblərmi?" – sualına Aİ nümayəndəliyinin rəhbəri xanım Viktorinin cavabı konkret olub: "Missiya fəaliyyəti barədə nə Ermənistana, nə də Azərbaycana heç bir hesabat vermir". Müşahidəçilərin eyni vaxtda hər yerdə ola bilmədiyini, sərhədin kifayət qədər uzun və patrulun qrafik üzrə hərəkət etdiyini deyən missiya rəhbəri onların nəyi gördükləri barədə məlumat verməyə borclu olmadığını erməni jurnalistin nəzərinə çatdırıb: "Buna görə biz yalnız müşahidə aparırıq və bu barədə Brüsselə məruzə edirik".

Həmin erməni mediası bir qədər əvvəl Aİ missiyasının tərkibindəki fransız və alman polis və eks-hərbçilərin əsas məqsədlərinin Ermənistanın Rusiya və İranla sərhədində kəşfiyyat xarakterli məlumatlar toplamaqdan ibarət olduğunu yazmışdı. Bu gün isə ümidlərini doğrultmamış, gözlədiklərini ala bilməmiş missiyadan hesabat tələb edirlər. Düzgün yola gəlməyincə, uğursuzluq zolağının onu müşayiət edəcəyini İrəvan nə qədər tez anlasa, bir o qədər yükü azalar.

2020-ci il 10 noyabr tarixli Bəyanatı imzalamaqla böynuna götürdüyü öhdəlikləri yerinə yetirməkdən hər üsulla boyun qaçırmağa çalışan İrəvanın "avropalı bacısı" Fransaya bağladığı ümidləri də fiaskoya uğrayıb. Postmüharibə dövründə Avropa İttifaqının dəstəyinə güvənərək Bakını "yola gətirmək" xəyalları ilə yaşayan Hayastan rəhbərliyinin əli hər yerdən və hər tərəfdən üzülüb. İndi onun üz tutduğu bütün kənar missiyaların ətəyindən əl çəkib, ən vacib missiyanı – sülhə gəlmək missiyasını icra etməyin məqamıdır.

***İ.HƏSƏNQALA,***
***"Xalq qəzeti"***

**Xəbər verdiyimiz kimi, mayın 14-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanla sayca beşinci üçtərəfli görüşü olub. Görüşün yekunlarına dair mətbuata açıqlama verən Ş.Mişel bildirib ki, görüş zamanı humanitar məsələlər də müzakirə olunub. Onun sözlərinə görə, qarşıdakı həftələr ərzində saxlanılan daha çox şəxs azad ediləcək: "Öz tərəfimdən onu qeyd etdim ki, sülh prosesində irəliləyiş əldə etmək üçün, sadəcə, yolu azaraq qarşı tərəfə keçən əsgərlərin sürətli prosedur vasitəsilə azad olunmalarına dair qarşılıqlı anlaşmanın təmin olunması davam etdirilməlidir. Qarşıdakı həftələrdə daha çox məhkumun azad ediləcəyi anlaşıldı".**

Ş.Mişelin sözlərinə görə, görüşdə itkin düşənlərin taleyinin həlli və minalardan təmizləmə işlərinin gücləndirilməsinin zəruriliyi də müzakirə olunub: "Biz, həmçinin itkin düşmüş şəxslərin taleyi ilə bağlı və minaların təmizlənməsi işinin sürətləndirilməsinin vacibliyinə dair müzakirələr apardıq".

Danışıqların yekunlarına dair Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında isə bildirilib ki, görüş, həmçinin münaqişədən sonrakı normallaşma baxımından vacib olan humanitar məsələlərin müzakirəsi üçün bir fürsət idi: "Bu kontekstdə, xüsusilə itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi və minasızlaşdırma sahələrində addımlar atılmasının sürətləndirilməsinin vacibliyi bir daha vurğulanıb.

***

Aİ Şurasının rəhbəri təfərrüatları açıqlamasa da, aydındır ki, söhbət aprelin 10-da və 12-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində Azərbaycan Ordusunun itkin düşmüş və haylar tərəfindən əsir götürülmüş, amansız işgəncələrə məruz qalmış əsgərləri Aqşin Bəbirov və Hüseyn Axundovdan gedir. Mayın 8-də A.Bəbirovun üzərində tələm-tələsik qurulan saxta "məhkəmə prosesi" onun qanunsuz olaraq 11,5 il müddətinə azadlıqdan məhrum edilməsi ilə yekunlaşıb.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsinin başa çatmasından az sonra – 2020-ci ilin noyabrın sonlarında Qarabağ iqtisadi rayonundakı Rusiya sülhməramlı komandanlığının vasitəçiliyi ilə Azərbaycanla Ermənistan müharibə zamanı və ondan əvvəl əsir və girov götürülmüş bütün şəxsləri qarşılıqlı əsasda geri qaytarıblar. Müharibədə Zəfər çalan Azərbaycan xoş məram və humanizm nümayiş etdirərək, həmin vaxt Emənistana onlarca əsir qaytarmışdı. Döyüşlərdə biabırçı məğlubiyyətə uğrayan Ermənistanda isə azərbaycanlı əsir yox idi. XXI əsrin müharibəsini aparan, yüksək texnogiyalardan istifadə edən, bununla yanaşı düşməndən fiziki və mənəvi-psixoloji hazırlıq baxımından qat-qat üstün Azərbaycan əsgərlərini əsir götürmək asan məsələ deyildi.

Təcavüzkar ölkədə isə cəmi iki soydaşımız saxlanılırdı. Bunlar müharibədən 6 il öncə – 2014-cü ilin iyulun 11-də Kəlbəcər rayonunda öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən girov götürülən Dilqəm Əsgərov və Şahbaz Quliyev idi. Həmin dövrdə işğal altında olan Qarabağda Əsgərov və Quliyev üzərində qurama "məhkəmə prosesi" keçirilmiş, onlar müvafiq olaraq ömürlük və 22 il müddətinə qanunsuz azadlıqdan məhrum edilmişdilər. Ermənistan müharibədən sonra Azərbaycanın onlarca erməni əsiri qaytarmasına qarşılıq olaraq saxladığı cəmi iki azərbaycanlını Rusiya sülhməramlı komandanlığına təhvil vermiş, onlar 2020-ci il dekabrın 14-də erməni girovluğundan azad edilərək təyyarə ilə Bakıya gətirilmişdilər.

Bununla iki ölkə arasında əsir və girov mövzusunun birdəfəlik bağlandığını düşünmək olardı. Lakin 2020-ci ilin noyabrın 26-da və dekabrın 8-də Xocavənd rayonunun azad olunmuş Sur kəndində və Hadrut qəsəbəsində erməni yaraqlılarının təxribatları nəticəsində Dövlət Təhlükəsizliyi Xidməti anti-terror əməliyyatı keçirmək məcburiyyətində qalmış, nəticədə xeyli erməni yaraqlısı ələ keçirilmişdi. Sonradan onlar Bakıya gətirilmiş, hərbi məhkəmələrin qanuni hökmləri ilə müxtəlif müddətlərə azadlıqdan məhrum edilmişdilər. İndi Ermənistan onların "hərbi əsir" olduğunu iddia edir və beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Buna baxmayaraq, rəsmi Bakı əvvəlki Brüssel görüşlərində əldə edilən razılaşmalara uyğun olaraq və yenə də humanist davranaraq, ötən müddət ərzində saxlanılan erməni diversantların bir çoxunu qarşı tərəfə təhvil verib. Dumanlı havada yolu azaraq qarşı tərəfə keçən iki əsgərimiz barəsində Ermənistanda qanunsuz azadlıqdan məhrumetmə qərarının çıxarılması onları hazırda ölkəmizdə saxlanılan diversantlarla dəyişmək məqsədi daşıyır.

***

Brüsseldə müzakirə olunan digər humanitar məsələ – ərazilərimizə kütləvi şəkildə minaların basdırılması isə ölkəmizin qarşısında dayanan başlıca problemlərdəndir. Rəsmi İrəvan işğaldan azad olunmuş bir neçə rayonun minalanmış ərazilərinin xəritəsini verdiyini açıqlasa da, sonradan bu xəritələrin həqiqəti əks etdirmədiyi məlum olmuşdu. Müharibənin başa çatmasından 2,5 il vaxt keçsə də, mina terroru can almaqda davam edir. Belə ki, sonuncu dəfə 2023-cü ilin aprelin 28-də Tərtər rayonunda mina partlayışı nəticəsində 3 mülki şəxs həlak olub. Bununla, Vətən müharibəsindən indiyə qədər, ümumilikdə, 298 nəfər minaya düşüb, onlardan 54-ü həyatını itirib. Bu mina partlayışları bir daha göstərir ki, Azərbaycana düzgün mina xəritələrini təqdim etməyən, üçtərəfli Bəyanatın 6-cı bəndini kobudcasına pozaraq, ölkəmizin ərazisində hərbi fəaliyyəti və minaların yerləşdirilməsini davam etdirən Ermənistanın əsas məqsədi post-müharibə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, bu ərazilərdə fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına maneçilik yaratmaqdır.

Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasının bir səbəbi də 2021-2022-ci illərdə Ermənistanda istehsal olunmuş minalarla ərazilərimizin çirkləndirilməsinin qarşısını almaq idi. Bu mənada, Brüssel görüşündə ərazilərimizin minalardan təmizlənməsi işinin sürətləndirilməsinin vacibliyinə dair müzakirələr aparılmasını yalnız təqdir etmək olar.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

# Brüssel görüşü iki əsgərimizin qaytarılacağına da ümidlər yaratdı



### Ekspert rəyi



**Rizvan HÜSEYNOV,**
**hərbi-siyasi şərhçi**

– Ümumiyyətlə, ayın əvvəlində Vaşinqtonda və bugünlərdə Brüsseldə keçirilən görüşlərin önəmi çox böyükdür. Bu görüşlər Moskvanın qurduğu dialoqun güclü alternatividir. Eyni zamanda, Fransanın müdaxiləsinin qarşısının alınmasıdır. Çünki biz görürük ki, Paris sülhün əldə olunmasına heç bir formada dəstək vermir.

Əsas məsələlərdən biri, sözsüz ki, əsir götürülən əsgərlərimizin qaytarılmasıdır. Bu, prinsipial məsələdir. Onlar azaraq Ermənistan ərazisinə keçiblər və qeyri-döyüş şəraitində əsir götürülüblər. Ermənistan sülh danışıqlarında pozitiv çalarlar əldə etmək istəyirsə, bu iki şəxsi qeyd-şərtsiz geri qaytarmalıdır.

Minaların təmizlənməsi işinin sürətləndirilməsinə dair aparılan müzakirələrə gəldikdə isə əslində, mən burada Ermənistandan heç bir ciddi kömək, dəstək, yardım gözləmirəm. Ona görə ki, birincisi, bunlar hərbçilərin əlində olan xəritələrdir. Bu xəritələr də heç vaxt dəqiq olmur. İkincisi, minalar əksər hallarda xaotik vəziyyətdə, əsasən müharibə vaxtı tələm-tələsik yerləşdirilir. Üçüncüsü, fiziki-coğrafi proseslər nəticəsində minalar 30 il ərzində sürüşərək yerlərini dəyişirlər. Buna görə də mən minalardan təmizləmə məsələsində Ermənistanın Azərbaycana konkret nə kömək edə biləcəyini aydın təsəvvür edə bilmirəm.

# Cənub Qaz Dəhlizi Azərbaycanın beynəlxalq mövqeyini daha da möhkəmləndirir

**Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə mayın 13-də Belçika Krallığına işgüzar səfəri çərçivəsində Avropa Komissiyasının vitse-prezidenti Maroş Şefçoviç ilə görüşüb. Söhbət zamanı dövlətimizin başçısı Maroş Şefçoviç ilə bundan əvvəl keçirdiyi görüşləri məmnunluqla xatırladıb. Ölkə rəhbəri Cənub Qaz Dəhlizinin uğurla icrasına Maroş Şefçoviçin verdiyi töhfəni yüksək dəyərləndirərək adıçəkilən dəhlizin Məşvərət Şurasının həmsədri kimi səmərəli işində fəal rolunu xüsusi vurğulayıb.**




## Ekspert rəyi

**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**



Azərbaycanın müəllifi olduğu Cənub Qaz Dəhlizi region ölkələrinin və Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir. 40 milyard dollardan çox investisiya qoyuluşu planlaşdırılan və 4 seqmenti özündə birləşdirən bu layihənin icrasında–Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya iştirak edir. Növbəti mərhələdə bu layihəyə üç Balkan ölkəsi – Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronun qoşulacağı da gözlənilir. Bu baxımdan da Cənub Qaz Dəhlizi enerji resurslarının şaxələndirilməsi işində böyük əhəmiyyət daşıyan layihədir.

Layihə həm mənbələrin, həm marşrutların şaxələndirilməsi deməkdir. Məhz enerji resurslarının şaxələndirilməsi, yeni marşrutların açılması ilə Avropa yeni mənbədən –təsdiq edilmiş ehtiyatları 2,6 trilyon kubmetrə bərabər olan Azərbaycandan təbii qaz tədarük edəcək. Beynəlxalq maliyyə qurumlarının da Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan layihələrə marağı böyükdür. Belə ki, bu vaxtadək Beynəlxalq Yenidənqurma və İnkişaf və Asiya İnfrastruktur İnvestisiya banklarından birbaşa müvafiq olaraq 0,4 milyard və 0,6 milyard dollar, Avropa Yenidənqurma və İnkişaf və Asiya İnkişaf banklarının hər birindən 500 milyon dollar, Asiya İnkişaf Bankının zəmanəti ilə 524,5 milyon dollarlıq sindikatlaşdırılmış kredit və Dünya Bankı Qrupuna daxil olan Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyinin (MIGA) zəmanəti ilə 750 milyon dollar məbləğində sindikatlaşdırılmış kredit cəlb olunub.

Uzun illər Azərbaycan beynəlxalq bazarda və ilk növbədə, Avropa bazarında etibarlı neft təchizatçısı olub və hazırda etibarlı qaz təchizatçısına çevrilməkdədir. Ötən il qaz ixracı təxminən 19 milyard kubmetrə çatıb ki, onun da 8,2 milyard kubmetri Avropaya nəql olunub. Bu da əvvəlki illərlə müqayisədə 40 faiz artım deməkdir. Bu il Azərbaycanın qaz ixracının 22 milyard kubmetrə qədər artırılacağı və onun 11,5 milyard kubmetrinin Avropa istehlakçılarına çatdırılacağı nəzərdə tutulub.

Ötən ilin iyul ayında xanım Prezident Ursula Fon der Lyayenin Azərbaycana səfəri zamanı Avropa Komissiyası ilə Anlaşma Memorandumu imzalanması da bu baxımdan mühüm önəm daşıyır və əhatəli sənədə əsasən, 2027-ci ilə qədər respublikamız ölkəsi təbii qazın təchizat həcmini ən azı iki dəfə artırmağı planlaşdırır.

Daha sonra Avropa Komissiyasının vitse-prezidenti Maroş Şefçoviç Cənub Qaz Dəhlizi layihəsinin uğurla həyata keçirilməsi ilə əlaqədar dövlətimizin başçısına təbriklərini çatdırıb. Görüşdə, eyni zamanda, Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin ötən ilin iyulunda ölkəmizə səfəri və bu səfər çərçivəsində respublikamızla Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair imzalanan Anlaşma Memorandumunun əhəmiyyəti qeyd edilib. Azərbaycan qazının Avropa İttifaqı məkanına ixracının artırılması prosesinin uğurla icra olunduğu və bu xüsusda aprel ayında Sofiyada imzalanan Anlaşma Memorandumunun böyük əhəmiyyət daşıdığı vurğulanıb. Həmçinin Azərbaycan qazının Avropa məkanında daha geniş coğrafiyanı əhatə etməsinin önəmi diqqətə çatdırılıb.

Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında bərpaolunan enerji istehsalı ilə bağlı əməkdaşlıq məsələləri də müzakirə edilib, bu sahənin böyük perspektivlərə malik olduğu bildirilib.

ADA Universitetinin təşkilatçılığı ilə Şuşada mayın 3-də keçirilən ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda da bu barədə ətraflı danışılıb. Bu toplantıda dövlətimizin başçısı Cənub Qaz Dəhlizi layihəsi ilə bağlı sualı bir neçə aspektdən cavablandırıb. Ölkə rəhbəri, ilk növbədə, belə bir təşəbbüsün gerçəkləşməsinə verdiyi dəstəyə görə, ABŞ-ın fəaliyyətini yüksək dəyərləndirərək deyib: "Həmin dəhlizin icrasında bir çox maneələr oldu, özü də gözlənilməz mənbələrdən. Məncə bu, artıq sirr deyil, lakin bunu yenə də ətraf mühitlə bağlı idi. Bu dəfə Bakı-Tbilisi-Ceyhandakı kimi tısbağaların söhbət getmirdi. Zeytun ağacları dillərində idi. Görürsünüz, onlar necə də "yaradıcı" yanaşırlar. Əslində, Bakı-Tbilisi-Ceyhanda tısbağaların qayğısına qalan eyni qrup insanlar idi. İtaliyada zeytun ağaclarına gəldikdə, biz öz araşdırmamızı apardıq və Cənub Qaz Dəhlizinə qarşı həyata keçirilən bu kampaniyanın arxasında kimlərin durduğunu müəyyənləşdirdik...".

Prezident İlham Əliyev daha sonra bu məsələdə üzləşilən maneələrin aradan qaldırılmasında İtaliya Prezidenti cənab Sercio Mattarellanın önəmli rol oynadığını, prosesi irəliyə doğru aparmaq üçün ciddi tədbirlər həyata keçirdiyini, "problemə" səbəb olan amilin– İtaliyada və Aralıq dənizi regionundakı digər ölkələrdə bir sıra zeytun ağaclarının yerinin dəyişdirilməsi məsələsinin həllini reallaşdırmağa nail olduğunu minnətdarlıqla diqqətə çatdırıb. Dövlətimizin başçısı bununla yanaşı, Birləşmiş Ştatların ovaxtkı Prezidenti Donald Trampın İtaliyanın Baş naziri ilə mətbuat konfransında Cənub Qaz Dəhlizinin gerçəkləşməsinə dəstək fikirləri səsləndirməsi ilə layihənin icrasına "yaşıl işıq" yandırdığını da vurğulayıb...

Yeri gəlmişkən, əsrimizin ən böyük layihələrindən biri olan Cənub Qaz Dəhlizi dörd seqmentdən – "Şahdəniz Mərhələ-II", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP qaz boru kəmərlərindən ibarətdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısına hər dəfə Azərbaycan ev sahibliyi edir. Bu isə ölkəmizin layihədə aparıcı rolunu təsdiqləyən mühüm amillərdən biridir.

Xatırladaq ki, 2018-ci il mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib və Azərbaycan təbii qazı Cənub Qaz Dəhlizi sisteminə vurulub. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində qurulan "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birgə qaz hasilatına başlanılıb. 2018-ci il iyulun sonunda isə "Şahdəniz Bravo" platformasından ilk qaz əldə olunduğu vaxtdan hasilat tədricən artıb. Mövcud "Şahdəniz" qurğularının hasilat gücü gündəlik 56 milyon (ildə 20 milyard) standart kubmetr təşkil edib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci ildə fəaliyyəti haqqında hesabatına görə, ötən il Cənub Qaz Dəhlizi vasitəsilə ümumilikdə 21 milyard kubmetr, o cümlədən Avropaya 11,4 milyard kubmetr qaz ixrac edilib. Həmin dövrdə, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında Memorandumuna əsasən, 2027-ci ilədək TANAP-la qaz nəqlinin indiki 16 milyard kubmetrdən 31 milyard kubmetrə, TAP-la isə 11 milyard kubmetrdən 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulub. Bütün bunlar Avropanın qaz bazarında Azərbaycanın rolunun artırılması məqsədini şərtləndirib.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

---

**Gəncə avtomobil zavodu İtaliyanın "SDF Group" şirkəti ilə kənd təsərrüfatı traktorlarının istehsalı sahəsində əməkdaşlıq edəcək. Bununla bağlı Gəncə Avtomovil Zavodu İstehsalat Birliyinin direktoru Bağban Nəbiyev və İtaliyanın "SDF Group" şirkətinin beynəlxalq regional direktoru Umberto Miceli müqavilə imzalayıblar.**

## Gəncədə İtaliya traktorları

Müqaviləyə əsasən ilkin mərhələdə Gəncədə alman modelləri olan "DEUTZ-FAHR 4100 W", "6205 g" və "115 G AGROFARM" modelləri yığılacaq. Eyni zamanda, gələcəkdə İtaliyanın "SDF Group"



şirkəti ilə ikitərəfli əməkdaşlıq çərçivəsində yığılacaq traktorların model sırasının genişləndirilməsi nəzərdə tutulur. Məlumat üçün bildirək ki, italyan şirkəti Avropa və dünyanın kənd təsərrüfatı bazarında öz keyfiyyəti və davamlılığı, yüksək məhsuldarlığı xüsusiyyətləri ilə seçilən traktorların istehsalı ilə məşhurdur.

Birliyin servis və marketinq şöbəsinin apardığı araşdırmalara görə, keyfiyyəti ilə seçilən alman traktorlarına Azərbaycan bazarında da tələbatın olduğunu nəzərə alan Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi ilkin mərhələdə il ərzində 300-ə yaxın traktorun yığılmasını planlaşdırır.

Məlumat üçün bildiririk ki, 2004-cü ildən fəaliyyətə başlayan Gəncə avtomobil zavodunda 2007-ci ildən bəri müxtəlif modeldə və modifikasiyada 15 minə yaxın traktor və digər kənd təsərrüfatı texnikası yığılaraq təhvil verilib. Bu müddətdə zavodda 5 mindən çox müxtəlif markalı və müxtəlif modeldə yük avtomobili yığılıb.

***"Xalq qəzet"***

---

**Energetika Nazirliyinin hesabatına görə, cari ilin yanvar–aprel aylarında Azərbaycanda günəş elektrik stansiyalarında elektrik enerjisi istehsalı 1,1 milyon kVt/saat yaxud 6,1 faiz artaraq 19,1 milyon kVt/saat təşkil edib.**

## Günəş enerjisi istehsalı 6 faiz artıb



Qeyd edilən dövrdə külək elektrik stansiyalarında istehsal edilən elektrik enerjisinin həcmi 10,8 milyon kVt/saat və ya 33,54 faiz azalaraq 21,4 milyon kVt/saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 7,5 milyon kVt/saat yaxud 9,87 faiz artaraq 83,5 milyon kVt/s təşkil edib.

Hesabat dövründə elektrik enerjisinin istehsalı 2022-ci ilin yanvar–aprel aylarına nisbətən istilik elektrik stansiyalarında 644,8 milyon kVt/saat və ya 7,48 faiz artaraq 9 milyard 266,1 milyon kVt/saat, su elektrik stansiyalarında 30,6 milyon kVt/saat yaxud 6,21 faiz azalaraq 462 milyon kVt/saat, digər mənbələr üzrə isə 2,2 milyon kVt/saat və ya 1,74 faiz azalaraq 124 milyon kVt/saat təşkil edib.

Qeyd edək ki, 4 ay ərzində respublika üzrə elektrik enerjisinin istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 600,3 milyon kVt/saat, yəni 6,5 faiz artaraq 9 milyard 852,1 milyon kVt/saat olub.

***"Xalq qəzeti"***

---

# "Yaşıl hidrogen" layihələrinə start verilib

## Bu ekoloji təmiz enerji "gələcəyin yanacağı" sayılır

**2050-ci ilədək karbon emissiyalarını sıfıra endirməyi hədəfləyən Avropa ölkələri "yaşıl keçid" platformasının əsas istiqamətlərindən sayılan hidrogenin istehsalı, onun saxlanması və ixracına nail olunması sahəsində intensiv iş aparırlar. Hidrogen isə planetimizdə ən bol elementlərdən biri olmaqla yanaşı, təmiz yanacaq növü kimi getdikcə daha çox maraq kəsb edir.**




"Yaşıl hidrogen" bərpaolunan enerjidən istifadə edilərək elektroliz nəticəsində əldə olunan enerji növüdür. Belə ki, hidrogen istehsalında külək və günəş enerjisi kimi bərpaolunan enerjidən istifadə olunduğundan onun tərkibində heç bir istixana qazı emissiyası yoxdur. Hidrogen yüngül qaz olduğu üçün yanma zamanı ondan üç dəfə çox istilik almaq mümkündür. Təsadüfi deyil ki, bu sahədə potensialın yüksək olmasına və ekoloji təmizliyinə görə hidrogeni "gələcəyin yanacağı" adlandırırlar. Məlum olduğu kimi, hazırda istehsal olunan hidrogenin çox cüzi hissəsi, təqribən 1 faizi "yaşıl hidrogen"dir. Bununla belə, Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin məlumatına görə, 2050-ci ilə qədər enerji istehsalının 12 faizi hidrogenin payına düşəcək.

Məlum olduğu kimi, 2016-cı il aprelin 22-də Birləşmiş Millətlər Təşkilatının Mənzil Qərargahında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Razılaşması imzalanıb. Sazişə imza atan 171 ölkədən biri də Azərbaycan Respublikası olub. Həmin ilin oktyabr ayının 28-də isə Prezident İlham Əliyev "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası ilə bağlı Tərəflərin 21-ci Konfransında qəbul olunmuş Paris Sazişinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu təsdiqləyib. Dövlət başçısının "Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində layihələrin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 5 dekabr tarixli sərəncamına əsasən isə Azərbaycanda Bərpa olunan enerji mənbələri üzrə komissiya yaradılıb.

Qeyd edək ki, alternativ və bərpaolunan enerji sahəsində yüksək potensiala malik olan Azərbaycan da Avropanın prioritet elan etdiyi "yaşıl enerji" platformasına qoşulan ilk ölkələrdəndir. Bu da təsadüfi deyil. Çünki ölkəmiz uzun illərdir ki, Avropa İttifaqı ilə enerji sahəsində fəal əməkdaşlıq edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın Avropa Komissiyası ilə bir çox sahələri əhatə edən enerji dialoqu var, bura təkcə qaz deyil, həm də bərpaolunan enerji və "yaşıl hidrogen" daxildir. Yeri gəlmişkən, hazırda Azərbaycanın ixrac etdiyi "mavi yanacağ"ın 50 faizindən çoxu məhz Avropa ölkələrinin payına düşür. "Köhnə qitə" isə 2050-ci ilədək karbon emissiyalı yanacaq növündən tam imtina etməyi hədəfləyir. Bu baxımdan gələcək uğurlu əməkdaşlıq üçün Azərbaycan, ilk növbədə, ekoloji təmiz enerji, o cümlədən "yaşıl hidrogen" istehsalına nail olmalıdır. Bunun üçün isə ölkəmizin bərpaolunan enerji potensialı kifayət qədərdir. "Yaşıl hidrogen" istehsalına gəldikdə isə, Azərbaycan özünün zəngin qaz ehtiyatları hesabına hidrogen enerjisi istehsalına nail olmaq baxımından yaxşı imkanlara malikdir. Eyni zamanda, hidrogenin istehsalı üçün ölkəmizdə emal müəssisəsi yaradılmalıdır. Həmin müəssisə isə günəş panellərindən və külək qurğularından alınan ekoloji təmiz enerji hesabına işləyəcək.

Artıq ölkəmizdə hidrogen istehsalı üzrə pilot layihələrin hazırlanmasına başlanılıb. Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə Niderlandın tanınmış "Advision" şirkəti Azərbaycanın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlilini yekunlaşdırıb. Azərbaycan Respublikası Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayevin dediyinə görə, hesabatda çox müsbət fikirlər yer alıb. Eyni zamanda, Dövlət Neft Şirkətində də bu sahədə müəyyən təhlillər aparılır.

Məlum olduğu kimi, hazırda ölkəmizdə alternativ enerji sahəsində üç pilot layihə həyata keçirilir. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Qaradağ günəş elektrik stansiyası layihəsi üzrə işlər artıq son mərhələyə daxil olub. Stansiyanın ilin sonuna qədər istismara verilməsi nəzərdə tutulub. Layihə çərçivəsində burada 500 min ədəd günəş paneli qurulur. Xızı-Abşeron külək elektrik stansiyası isə Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti tərəfindən inşa ediləcək. Hazırda ərazidə mobilizasiya işləri həyata keçirilir. Yaxın vaxtlarda isə stansiyanın tikintisinə başlanılması nəzərdə tutulur. Bundan əlavə, Böyük Britaniyanın BP şirkəti ilə işğaldan azad olunmuş Cəbrayıl rayonu ərazisində "Şəfəq" günəş elektrik stansiyasının tikintisi ilə bağlı saziş imzalanıb. Ötən müddətdə stansiyanın tikiləcəyi ərazi minalardan tam şəkildə təmizlənib. Artıq ayihə çərçivəsində sənaye miqyaslı məsələlərin həllinə start verilib.

Pilot layihələrlə yanaşı, Azərbaycanda 25 qiqavat günəş və külək enerjisi istehsal olunması ilə bağlı beynəlxalq şirkətlərlə müqavilələr və anlaşma memorandumları imzalanıb. Bu da onu deməyə əsas verir ki, ölkəmiz yaxın illərdə, həm də "yaşıl enerji" ixracatçısına çevriləcək. Elə Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev də hesab edir ki, ölkəmizdə istehsal olunacaq elektrik enerjisi Azərbaycan bazarı üçün həddindən artıq çoxdur. Onun fikrincə, bu enerji ya hidrogen və ya dekarbonizasiyaya töhfə verəcək digər formalara çevrilməli və ya ixrac olunmalıdır.

Göründüyü kimi, hazırda bütün dünyada hidrogenin istehsalı və istifadəsi ilə yanaşı, onun ixracı məsələsi də xüsusi aktuallıq kəsb edir. Mütəxəssislər bu yanacağın boru kəmərləri ilə nəqlini ən optimal variant hesab edirlər. Hazırda bunun üçün məqbul sayılan iki variant üzərində iş gedir. Birinci variant hidrogenin nəqli üçün ayrıca boru kəmərlərinin çəkilməsi ilə bağlıdır. Digər variant isə mövcud magistral qaz kəmərlərinin hidrogenin daşınması üçün modernləşdirilməsini və yenidən qurulmasını nəzərdə tutur.

Bəs, Azərbaycan gələcəkdə istehsal edəcəyi hidrogeni dünya bazarlarına hansı formada ixrac edə bilər? Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev deyib ki, ölkəmizdən hidrogenin ixracı ilə bağlı dörd variant mövcuddur. Bunlardan birincisi Cənub Qaz Dəhlizinin imkanlarından istifadə edilməklə hidrogen qarışığının təbii qazla birlikdə ixracı ilə bağlıdır. İkincisi, hidrogen ixracı üçün ayrıca boru tikilə bilər. Üçüncüsü, yaşıl enerjini ixrac edib elektrolayzerləri istehlakçıya yaxın yerdə quraşdırmaq olar. Dördüncüsü, başqa məhsulları, məsələn ammoniyanı istehsal edib ixrac etmək olar. Onun fikrincə, artıq ölkəmizdə hidrogen üzrə pilot layihələrin hazırlanması tapşırığı üzrə işlər gedir. Qarşıdakı illərdə hidrogenin ixracı ilə bağlı məsələyə də tam aydınlıq gətiriləcək.

***Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"***

# Türkiyənin demokratiya örnəyi: seçkilərdə qalib uca türk millətidir

## Son dayanacaq “28 May”dır

**Türkiyədəki prezident və parlament seçkiləri, gözlənildiyi kimi, böyük coşqu ilə keçdi. Bu seçkilər, eyni zamanda, uca türk millətinin bütün dünyaya demokratiya dərsinə çevrildi – desək, heç bir mübaliğəyə yol vermiş olmarıq. Rəqəmlərə diqqət yetirək, ölkə daxilində seçkilərdə seçici aktivliyi 88,92 faiz, ölkə xaricində isə 52,69 faiz səviyyəsində oldu. Həqiqətən, ortada müstəsna seçki mədəniyyəti var idi və buna nəzərən demək olar ki, prosesdəki nəticədən asılı olmayaraq, qazanan, bütövlükdə, əzəmətli Türkiyə dövlətçiliyidir.**

Əlbəttə, Azərbaycan cəmiyyətinin böyük əksəriyyəti Ədalət və Kalkınma Partiyasının (AKP) lideri, Türkiyənin hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın qalib gəlməsini istəyirdi və arzusunu açıq şəkildə bəyan edirdi. Cənab Ərdoğan və onun başçılıq etdiyi "Cümhur ittifaqı" müxalif "Millət ittifaqı"nın namizədi Kamal Kılıçdaroğlunu səs çoxluğu ilə üstələdi. Türkiyənin hazırkı lideri marafondan qalib ayrıldı. Əlbəttə, qardaş ölkənin seçki sisteminə görə, qalibiyyətin ilk turda rəsmiləşməsi mümkün deyil. Hər halda, elə indidən 14 gündən sonra – mayın 28-də hazırkı nəticənin dəyişməyəcəyini proqnozlaşdırmaq üçün əsaslar var. Yeri gəlmişkən, 28 mayda keçiriləcək prezident seçkilərinin ikinci turu çərçivəsində ölkə xaricində yaşayan vətəndaşlar üçün səsvermə prosesi 20 mayda başlanacaq və 24 may 2023-cü il tarixində başa çatacaq. Türkiyədə prezident seçkilərinin birinci turunun yekun nəticəsi isə mayın 19-da açıqlanacaq.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə xalqının iradəsinin əlahiddə mahiyyətinə söykənərək, ölkənin dövlət başçısına telefon zəngi etdi və təbrik mesajını çatdırdı. Nəzərə alaq ki, bu təbrik həm də Türkiyənin seçki mədəniyyətinə verilən dəyərin ifadəsi idi. Dövlətimizin başçısının telefon zəngi, eyni zamanda, Türkiyə lideri ilə şəxsi dostluq münasibətindən irəli gəlir. Bu dostluqda başlıca məqam isə R.T.Ərdoğanın hakimiyyəti illərində Azərbaycan–Türkiyə münasibətlərindəki qərarlaşmış sarsılmaz qardaşlıq amilidir. K.Kılıçdaroğlu isə Azərbaycanı həyatının projesi kimi təqdim etdiyi Böyük İpək yolu layihəsindən kənarda qoydu. Deməli, Ərdoğanın yaratdığı sistemin varlığı bizim üçün həm də buna görə önəmlidir.

Bu önəm heç də elə anlaşılmamalıdır ki, Azərbaycan özünün xarici siyasətini birbaşa Türkiyə amili üzərində qurur. Ölkəmizin dəqiq müəyyənləşdirilmiş müstəqil dövlətçilik xətti var və bu xətdə tərəfdaşlığa sadiqləri fərqləndirməyi bacarırıq. R.T.Ərdoğanlı Türkiyə "can Azərbaycan" şüarı ilə hər zaman fərqli olub, həmişə sadiqlik göstərib, xalqımızın haqq davasına tərəddüdsüz yanaşıb. Azərbaycana isə, bütövlükdə, Türk dünyasına tərəddüdsüz münasibət bəsləyən Türkiyə dövləti lazımdır.

Ərdoğanın 44 günlük müharibə zamanı digər dövlətlərin savaşa qatılması ehtimalına verdiyi reaksiyadakı qətiyyət hər birimizin yaxşı xatirindədir. Türkiyə lideri həmin qüvvələrə Azərbaycanın davası müstəvisindəki güzəştsizliyini, təxminən, belə ifadə etmişdi: atamızın qardaşı olsa belə, yol verməri. Təkcə bu ifadə hər şeyi deyir və onu göstərir ki, Türkiyənin hazırkı iqtidarının ölkəmizə münasibətdəki dostluq mesajlarının arxasında həm də gerçək və sarsılmaz tərəfdaşlıq motivi dayanır. Buna görə xalqımız ümidlidir ki, tərəfdaşlığımız cənab Ərdoğanın hakimiyyətdə qalması ilə daha da dərinləşəcək və iki dövlət olan tək millətin maraq və mənafelərinin qlobal miqyasda təmin olunmasında hər zamankı həllediciliyini qoruyacaqdır. Deməli, Prezident İlham Əliyevin gecə saatlarındakı telefon zəngi və təbriki dostluqla yanaşı, həm də tərəfdaşlığa sədaqətin nümunəsi kimi qiymətləndirilməlidir.

***

Türkiyədəki prezident və parlament seçkiləri dünyanın böyük diqqət mərkəzində idi. Bu diqqət baxımından ABŞ Prezidenti Co Baydenin sosial şəbəkə paylaşımına nəzərə salaq. Baydenin fikri bu idi: kimin qazanmasından asılı olmayaraq, dünyanın o tərəfi problemlidir. Xatırladaq ki, Birləşmiş Ştatlar Prezidentinin, hakimiyyətə gələr-gəlməz, Ərdoğanın seçki ilə devriləcəyi mesajı var. Deməli, Baydenin qəzəbli tviti Vaşinqtonun Türkiyə planlarının pozulduğunu göstərməkdədir. Bəli, Türkiyə Birləşmiş Ştatlar üçün problem olub. Çox güman, Prezident Bayden tviti ilə bu problemin növbəti illərdə də qalacağını vurğulamaqdadır.

Ağ ev lideri seçkinin hansı nəticələr doğurduğunu – Ərdoğanın uğurunu gördü. Ərdoğan qalibdirsə, deməli, Ankaraya münasibətdəki ənənəvi inkarçılıq və izolyasiya xətti davam etdiriləcəkdir. Düşünək görək, ötən illərdə ABŞ mövcud istiqamətdə nələr etdi. Bu mənada devalvasiya dalğasından tutmuş, Türkiyə iqtisadiyyatının çökdürülməsi yönümündəki ən müxtəlif tədbirlərədək bir sıra məqamları vurğulamaq mümkündür. Ancaq alınmadı. Türkiyə ayaqdadır, özü də dimdik.

***

Bəli, Qərbin müxtəlif beyin mərkəzlərinin, sosioloji qurumlarının seçkilərlə bağlı proqnozları da alt-üst oldu. Axı onların apardıqları rəy sorğularının nəticələrində “Millət ittifaqı”nın lideri K.Kılıçdaroğlu böyük səs fərqi ilə qalib idi. Belə nəticəyə gəlmək olar ki, Qərb institutları bu cür gedişlərlə xalqın iradəsinə təsir göstərməyə çalışırdılar. Maraqlıdır ki, onların baş vurduqları metodları iddiaçı müxalif kəsim də təkrarladı. Səslərin heç 30 faizi sayılmamış bir durumda, “Millət ittifaqı”nın tərəfdarları olan yüksək ranqlı şəxslər açıqlamalar verərək, özlərini qalib saydılar. Bununla da Türkiyədəki seçki ənənəsinə də şübhə ilə yanaşmaq əzmlərini ortaya qoydular. Əlbəttə, xalqın iradəsi qarşısında geri çəkilmək məcburiyyətində qalıb başlatdıqları xoşagəlməz ritorikanı durduraraq, seçkinin müqəddəsliyinə köklənməyi də yaddan çıxarmadılar.

Ancaq belə təəssürat yarandı ki, nəticələr fərqli olacağı təqdirdə, seçkiləri tanımayacaqlar. Bu, olduqca qorxunc tendensiyadır və hiss olunur ki, bu cür yanaşma ənənəvi Qərb inqilabçılığı texnologiyalarından qaynaqlanmaqdadır. Yaxın keçmişə nəzər salsaq görərik ki, Qərb dairələri analoji yanaşmalarla dünyanın müxtəlif bölgələrində dəyişikliklər etmiş, bu dəyişiklikləri demokratiyanın təntənəsi kimi qiymətləndirmişdilər. Sual olunur: Demokratiya adı altında pafoslu təqdimatlar inqilabların baş verdiyi ölkələrə rahatlıq və firavanlıq gətiribmi? Əsla yox! Hesab edirik ki, Türkiyə cəmiyyəti seçim zamanı həm də bu məqama diqqət yetirdi.

Qərbin ənənəvi seçki texnologiyalarının və inqilab ritorikasının vacib seqmentini sosial şəbəkələr təşkil etməkdədir. Seçkidən öncə Ərdoğan sosial şəbəkələrin Türkiyə seqmentinin, bir növ, arzuolunmaz şəxsinə çevrilmişdi. Onun daxili və xarici siyasətinin tənqidi ilə bağlı ən müxtəlif fikirlər dövriyyəyə gətirilir, beləcə xalqın iradəsinə təsir göstərilməsi xətti yürüdülürdü. Amma nəticələr göstərdi ki, sosial şəbəkələrdə yaradılmış ab-hava gerçək nəticələri əks etdirmir. Hərçənd, demək olmaz ki, bu seqmentin ictimai rəyə təsiri yoxdur. Var və onu da düşünək ki, Ərdoğanın səsçoxluğu həm də belə meyillərə rəğmən qeydə alındı. Yəni, seçkiyə Qərb institutlarının müdaxiləsi olmasaydı, böyük ehtimalla Türkiyənin hazırkı dövlət başçısının mövqeyi daha möhkəm olacaqdı.

Türkiyə xalqı ölkə iqtidarının gördüyü işləri, insanların problemlərinə həssas yanamasını yüksək qiymətləndirir. 14 may seçkiləri bunu bir daha ortaya qoydu. Diqqətçəkən məqamlardan biri də R.T.Ərdoğanın “əsrin faciəsi” kimi qiymətləndirilmiş zəlzələ bölgəsində mütləq üstünlük əldə etməsi idi. Halbuki, Qərb texnoloqları oyunlarını həm də zəlzələ faktoru üzərində qururdular. Onlar, insanların çətin olan durumlarına, məhrumiyyətlərinə siyasi sərmayə yatırmaqla, ayrı-ayrı fraqmentləri yada salmaqla, yayımlamaqla, fəlakətlə üzləşmiş əhalinin hisslərinə təsir göstərmək yolu tuturdular. Lakin alınmadı.

Xalq bütün oyunları pozdu. Həm də ona görə pozdu ki, zəlzələnin gətirdiyi çətin duruma baxmayaraq, ölkənin indiki hakimiyyətinin problemlərin həllinə ciddi önəm verdiyi, səmimiyyət nümayişi aşkardır. Zəlzələ günlərində Türkiyəyə kömək hər nə qədər insanlıq işi kimi qiymətləndirilsə də, yardım axınında məhz Ərdoğan faktorunun vacibliyi əsas götürülməlidir. Bunu xalq gözəl dərk etdi.

Bəli, Türkiyədəki seçkilər, yüksək beynəlxalq dəstəyə və bu dəstəyin manipulyativ texnologiyalarına nəzərən, əsas iddialı müxalif kəsim üçün tam bir fiasko sayılmalıdır. Fiaskonu şərtləndirən amillər sırasında, ilk növbədə, kənar güclərə arxalanmağın cəmiyyət tərəfindən qəbuledilməzliyi vurğulanmalıdır. Hesab edirik ki, belə bir şəraitdə əks düşərgədəkilər texniki sayılacaq məsələlərdə də lap əvvəldən düzgün addım atmadılar. Onlar özləri formalaşdırdıqları anti-Ərdoğan ritorikası fonunda ortaya böyük ölkənin zəif siyasi fiqurunu çıxartdılar. Halbuki gözlənilirdi ki, vahid namizəd K.Kılıçdaroğlu deyil, İstanbulda bələdiyyə seçkilərinin qalibi olmuş Əkrəm İmamoğlu olacaqdır.

Əslində, üç həftə əvvələdək, K.Kılıçdaroğlunun şansları son günlərdəkindən daha çox idi. Yəni, onun indiki səs fərqini azaltması mümkün görünürdü. Lakin “Millət ittifaqı”nın namizədinin xarici siyasət müstəvisindəki fikirləri onun bu istiqamətdəki tam piyadalığını göstərdi. Hər şey həmin vaxtadək ölkənin daxili problemlərinə fokuslanıb Ərdoğanı tənqiddən dividend qazanan Kılıçdaroğlunun, beynəlxalq miqyasda nələri edəcəyini açıqlayanda ortaya çıxdı. Haqqında əvvəldə də söz açdığımız Azərbaycan faktorunun önəmini məhz bu zaman gördük. Məlum oldu ki, bu faktor Türkiyə cəmiyyətində dostluq və qardaşlıq köklənişi ilə yanaşı, həm də qlobal əhəmiyyət daşımaqdadır.

***

44 günlük müharibənin nəticələrinə əsasən, Türkiyə Cənubi Qafqaza nüfuz baxımından əhəmiyyətli status qazandı. Həmin vaxtadək bölgənin Rusiyanın daxili orbiti sayılması reallığını nəzərə alsaq, bu status Ankaranın son yüz ildən də artıq bir zaman kəsiyində qazandığı müstəsna uğur sayılmalıdır. Həm mövcud anlamda, həm də Azərbaycanın zəlzələ ilə bağlı həssas yanaşması ortada olarkən, dövlətimizin başçısının Kahramanmaraşda şəhər salmaq vədi də varkən, Kılıçdaroğlunun ölkəmizi həyatının projesindən kənarda saxlaması, Türkiyə insanında, bir növ, soyuq duş effekti yaratdı. Ərdoğan iqtidarı isə bundan istifadə etməli idi və etdi də.

Türkiyənin indiki hakimiyyəti Kılıçdaroğlunun Azərbaycanı, necə deyərlər, kənarda qoyması müstəvisində, bütövlükdə, dünya siyasətinin konturlarına yükləndi, “Millət ittifaqı” namizədinin Qərb imperializmi ilə əlbirliyi xüsusunda ağlabatan artqumentləri dövriyyəyə gətirdi. Nəticədə K.Kılıçdaroğlunun ümumən, türk dünyasının birliyinə təhdid yarada bilməsinə dair diskussiyalar aktivləşdi. Beləliklə, AKP hakimiyyətinin ötən iyirmi ildə daxili siyasətdə qazandığı nəhəng uğurların kontekstində, düşüncələrə Ərdoğanın xarici siyasət baxımından Kılıçdaroğludan dəfələrlə üstünlüyü hakim kəsilməyə başlandı.

***

Ərdoğanın və onun təmsil etdiyi cinahın uğurunu şərtləndirən faktorlardan biri də terrordur. Seçkilər göstərdi ki, Türkiyə cəmiyyəti terror məsələsinə münasibətdə həssasdır. Həssasiyyəti iki cəhətdən dəyərləndirmək mümkündür. Birincisi, K.Kılıçdaroğlunun PKK ilə işbirliyi, ikincisi, PKK-nın Türkiyə dövlətçiliyinin hazırkı düzəninə, ölkənin ərazi bütövlüyü və suverenliyinə təhlükəsi. Diqqət yetirək, Ərdoğan iqtidarı, belə demək mümkünsə, xarici seçkilərdə də mütləq qalibdir. Bu isə o deməkdir ki, əsasən də Avropada yaşayan Türkiyə vətəndaşları qitə ölkələrinin PKK ilə işbirliyini dərk edirlər. Onlar seçkidə həm də bu qorxunc təmayülə qarşı birləşdilər. Bu dərketmənin fonunda Kılıçdaroğlu uğur qazanmamalı idi və qazanmadı da.

***

Kılıçdaroğlunun geriliyini, əksinə, Ərdoğanın uğurunu şərtləndirən daha bir cəhət erməni məsələsidir. Bəli, bu gün Türkiyə iqtidarının da İrəvana yönələn müəyyən jestləri var. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın və Milli Assambleyasının spikeri Alen Simonyanın Ankaraya səfərlərini vurğulamaq mümkündür. Lakin görünən budur ki, Ərdoğan hakimiyyəti İrəvanla münasibətlərə ehtiyatlı yanaşma ortaya qoymaqdadır. Yanaşma daha çox Ermənistanı, ümumən, Cənubi Qafqazdakı gərginlik faktoru olmaqdan çıxarmağa və ölkənin sırf coğrafi əhəmiyyətini nəzərə alaraq, onunla işbirliyinin qurulması məntiqinə söykənir. Necə deyərlər, itlə dostluq et, çomağını yerə qoyma. Lakin burada da Azərbaycan məsələsi aktualdır. Yəni, bu gün Türkiyə–Ermənistan münasibətlərinin normallaşmasının dinamikasını müəyyənləşdirən başlıca xüsusiyyət Azərbaycan-Ermənistan əlaqələridir.

Bəli, Ankara 44 günlük müharibə zamanı tutduğu mövqeyə sadiqlik ruhundadır. Bu ruh isə bütövlükdə, Türkiyə istimaiyyətinin erməni məsələsinə münasibətindəki həssasiyyat payına əsaslanmaqdadır. Nəzərə alaq ki, o ictimaiyyət tarixdə baş verənləri gözəl bilir. Dərk edir ki, indiki məqamda Ermənistana geniş qucaq açmaq həm də Türkiyənin bölünməsinə yönələn təşəbbüslərə açıq dəstək göstərməkdir. Bu baxımdan Kılıçdaroğlunun ortaya qoyduğu xətt yolverilməzdir. Diqqət yetirək, müxalif namizədin erməni məsələsi müstəvisindəki həssaslığı meydana çıxandan, onun reytinqində eniş başlandı. Yəni, Kılıçdaroğlu səsini həm də buna görə itirdi.

***

Bir daha vurğulayaq ki, mayın 14-də Türkiyədə keçirilmiş prezident və parlament seçkiləri ölkə demokratizminin təntənəsidir. Bu təntənə Ərdoğanın başçılıq etdiyi “Cümhur ittifaqı”nın ölkə parlamentində də üstünlüyə yiyələnməsi deməkdir. Əgər Türkiyənin hazırkı prezidenti ilə rəqibi arasındakı səs faiz nisbəti 49,51-in 44,88-ə bərabərdirsə, Böyük Millət Məclisindəki üstünlük baxımından “Cümhur ittifaqı” “Millət ittifaqı”nı daha çox qabaqlamaqdadır. Təxminən, 50 faizə qarşılıq 35 faiz. Yəni, birincinin 320-dən çox millət vəkili postuna ikincinin 215-dək millət vəkili postu.

Sonda bir daha qeyd edək ki, Türkiyədə mayın 28-də növbəti seçki, daha doğrusu, seçkilərin ikinci turu keçiriləcəkdir. Bu dəfə üç yox, cəmi iki namizəd – Rəcəb Tayyib Ərdoğanla Kamal Kılıçdaroğlu dövlət başçısı adı uğrunda yarışacaqlar. Təcrübə göstərir ki, seçkilərin ikinci turunda ilk turda üstün olan qüvvə uduzmur. Bu baxımdan, cənab Ərdoğanın da uğurunu yekun qələbəyə çevirəcəyi şəksiz görünməkdədir. Nəzərə alsaq ki, Qərb dairələrinin total anti-Ərdoğan ritorikası birinci turda iflasa uğradı, ikinci turdakı mənzərənin hakim komanda üçün daha aydın olacağı və onun nəticə çıxarmaq üçün düzgün addımlar atacağı şübhəsizdir. Hər bir halda seçim uca türk millətinindir.




***Ə.RÜSTƏMOV,***
***“Xalq qəzeti”***

# Ceyhun Bayramov Mövlud Çavuşoğlunu təbrik etdi



**15 may 2023-cü il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı baş tutub.**

Nazir Ceyhun Bayramov Türkiyədə keçirilən prezident və parlament seçkilərində cənab Ərdoğanın və hakim partiyanın səs çoxluğu ilə irəlidə olması münasibətilə nazir Çavuşoğluna təbriklərini çatdırıb. Bu seçkilər nəticəsində qardaş Türkiyənin daha da güclənəcəyinə əminlik ifadə olunub.

Xarici işlər naziri Mövlud Çavuşoğlu göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon danışığı zamanı, həmçinin bölgədə cari vəziyyət və sülh danışıqları üzrə son yeniliklər müzakirə edilib.

***“Xalq qəzeti”***

# XİN: Brüssel görüşünü faydalı hesab edirik

**“Avropa İttifaqı Şurasının Prezidentinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Prezidenti və Ermənistanın Baş naziri arasında bu formatda 14 may tarixli sayca beşinci görüşü iki ölkə arasında normallaşma gündəliyinin irəlilədilməsi baxımından faydalı və nəticə yönümlü hesab edirik”. XİN-in Brüssel görüşünün yekunları barədə bu şərhinin davamında bildirilir:**



“İlk növbədə, müxtəlif müdaxilə və şərtləndirmə cəhdlərinə görə 9 aya yaxın müddətdə fasilə verilən “Brüssel formatı”nda görüşün yenidən keçirilməsi tərəflər arasında ən yüksək səviyyədə dialoqun təşviqi baxımından əhəmiyyət kəsb edir.

Görüş zamanı Azərbaycan və Ermənistan arasında ikitərəfli sülh sazişi layihəsinin razılaşdırılması, sərhədlərin delimitasiyası və kommunikasiyaların bərpası istiqamətləri üzrə konkret nəticələrin əldə edilməsi məqsədilə ətraflı fikir mübadiləsi aparılıb.

Azərbaycan tərəfinin regionda sülh və sabitliyin təmin edilməsi ilə bağlı prinsipial mövqeyi bir daha tərəf-müqabillərin diqqətinə çatdırılıb. Xüsusilə, dövlətlərin ərazi bütövlüyünə hörmətin bir daha təsbit edilməsi, bu kontekstdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün Ermənistan tərəfindən də qəbul edilməsi müstəsna əhəmiyyət kəsb edir.

Görüş, həmçinin münaqişədən sonrakı normallaşma baxımından vacib olan humanitar məsələlərin müzakirəsi üçün bir fürsət təşkil edib. Bu kontekstdə, xüsusilə, itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi və minasızlaşdırma sahələrində addımlar atılmasının sürətləndirilməsinin vacibliyi bir daha vurğulanıb.

Azərbaycan və Ermənistan arasında bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı tanınması və hörmət edilməsi əsasında münasibətlərin normallaşdırılmasının regionda davamlı sülh və sabitliyin təmini üçün yeganə yol olduğunu bəyan edirik.

Bu istiqamətdə münasibətlərin normallaşması üçün tərəqqi əldə edilməsinə dəstək verən səyləri alqışlayır, bu məqsədi güdən beynəlxalq tərəfdaşlarla dialoqu və qarşılıqlı fəaliyyəti davam etdirməyə hazır olduğumuzu bir daha təsdiq edirik”.

***“Xalq qəzeti”***

# Türkiyədə seçkilər: ali post uğrunda mübarizə davam edir

## *Parlamentdə isə siyasi qüvvələr nisbəti artıq bəllidir*

**Bütün dünyanın nəfəs dərmədən izlədiyi Türkiyədə ümumi seçkilər başa çatıb. Parlamentin tərkibi müəyyən olunsa da, dövlət başçısının adı ikinci turda məlum olacaq. Belə ki, mayın 28-də keçiriləcək turda hakim AKP və ana müxalifəti təmsil edən CHP liderləri gərgin mübarizə aparmalı olacaqlar.**



Türkiyədə seçki qutularının tam açılmasından sonra "Cümhur İttifaqı"nın namizədi, hazırkı prezident Rəcəb Tayyib Ərdoğan 49,51 faiz, "Millət İttifaqı"nın namizədi Kamal Kılıçdaroğlu 44,88 faiz, ATA İttifaqının namizədi Sinan Oğan 5,7 faiz, Məmləkət Partiyasının sədri Məhərrəm İncə 0,44 faiz (seçkilərə üç gün qalmış namizədliyini geri götürüb – red.) səs qazanıb.

TRT xəbər verir ki, parlament seçkilərində nəticələrə görə, "Cümhur İttifaqı" 49,46 faiz, "Millət İttifaqı" 35,02 faiz, "Əmək və Azadlıq İttifaqı" 10,54 faiz, "Ata İttifaqı" 2,44 faiz, "Sosialist Güc Birliyi" 0,29 səs toplayıb. Türkiyə Böyük Millət Məclisinə 87 seçki dairəsindən 600 millət vəkili seçilib. Seçkilərdə 24 partiya və 151 müstəqil namizəd iştirak edib.

Seçici fəallığı Türkiyə üçün rekord – 88,84 faiz təşkil edib. MSK-nın məlumatına görə, namizədlərə verilmiş 53,9 milyon səsdən bir milyondan çoxu etibarsız sayılıb. Səslərin tam sayıldıqdan sonra Ədalət və İnkişaf Partiyasının başçılıq etdiyi "Cümhur İttifaqı" parlament seçkilərində üstünlük qazanaraq, 600 mandatdan 321-nə yiyələnib. "Millət ittifaqı" parlamentdə 213 yerə sahib olub.

Mayın 14-dən 15-nə keçən gecə AKP lideri R.T.Ərdoğan qurucusu və rəhbəri olduğu partiyanın Baş qərargahının balkonundan xalqa müraciət edib. O, Türkiyədə demokratiya bayramının tamamlandığını vurğulayıb. Onun fikrincə, Türkiyə bu seçkilərlə qabaqcıl demokratik ölkələrlə bir sırada yer tutduğunu bir daha sübuta yetirib. "Bu seçkilərdə vəzifələrini layiqincə yerinə yetirən hər kəsə təşəkkür edirəm. Üstəlik, öz gələcəyi üçün seçkilərdə rekord sayda iştirak edən ölkə vətəndaşlarımıza minnətdaram. Bu seçkilərdə qazanan tərəf ölkəmiz və xalqımız olub", – deyə o, vurğulayıb.

R.T.Ərdoğanın sözlərinə görə, 14 mayda Türkiyədə keçirilən seçkilərin bənzəri yoxdur: "Şükürlər olsun ki, heç bir acı hadisə yaşanmadan seçkiləri tamamladıq. CHP rəhbərləri və bəzi bələdiyyə sədrlərinin öz maraqlarını güdmələri bu gerçəkləri dəyişmir. Ölkəmiz seçki sisteminin güvənliliyi baxımından dünyaya örnək ola bilər. Heç kimin bunu öz siyasi ambisiyaları üçün pozmağa haqqı yoxdur. Biz hər zaman milli iradənin seçiminə hörmət etmişik və bundan sonra da hörmət edəcəyik".

Türkiyənin birinci xanımı Əminə Ərdoğan səsvermə ilə bağlı mövqeyini özünün sosial media hesabında paylaşıb. Orada qeyd olunur: "Bir olduq, birləşdik, böyük və güclü Türkiyə üçün alın təri tökdük. Əldə edilən uğurlarımıza yenilərini əlavə edərək "Türkiyə əsri" üçün yenə çiyin-çiyinə duracağıq".

Əminə Ərdoğan sonra yazıb ki güvən, sabitlik, xidmət deyərək bu yola ürəkdən qoşulan millətə təşəkkürünü bildirir: "Bu qürur və uğur hamımızındır. Xəyalları gerçəkləşdirmək və hər sahədə lider ölkə olmaq üçün düzgün addımlarla yola davam edin".

AKP sədrinin birinci müavini, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım prezident və parlament seçkilərində iştirak etdikdən sonra jurnalistlərə açıqlamasında bildirib ki, vətəndaşlar seçki prosesinə böyük maraq göstəriblər: "Səs vermək üçün yarım saat gözlədim. Nəticənin ölkəmiz və xalqımız üçün xeyirli olacağından əminəm. Seçki prosesinə göstərdiyi diqqətə görə xalqımıza təşəkkür edirəm".

B.Yıldırım, həmçinin söyləyib ki, Türkiyə seçki prosesi ilə bağlı kifayət qədər təcrübə qazanıb: "Əlbəttə, fərqli mövqelərimiz ola bilər. Amma bizi bir-birimizə bağlayan dəyərlərimiz, Vətənimiz, xalqımız, bayrağımız, inancımız var. İnşallah, hər şey ölkəmiz üçün daha yaxşı olacaq". B.Yıldırım sonda vurğulayıb ki, bu gün ölkəmizin və xalqımızın sabitliyə, sakitliyə və təhlükəsizliyin qorunmasına ehtiyacı var.

Dünən CHP lideri Kamal Kılıçdaroğlu da seçkilərin birinci turunun nəticələrinə münasibətini açıqlayıb. O, iqtidar komandasının "seçkilərə müdaxilə etmək" cəhdlərini pisləyib və seçkilərin ikinci turunda qalib gələcəyinə əmin olduğunu vurğulayıb.

Siyasi təhlilçilər ikinci turda hansı siyasətçinin qələbə qazanacağı barədə proqnozlar verməyə başlayıblar. Hesab olunur ki, prezidentliyə hər iki iddiaçı birinci turda səslərin 5,22 faizini toplayan ATA İttifaqının namizədi Sinan Oğanın səslərini qazanmağa cəhd edəcəklər.

Məlumdur ki, S.Oğan sağ mühafizəkar siyasi baxışları ilə fərqlənir. O, seçkiqabağı kampaniyası zamanı dəfələrlə bildirib ki, dövlət başçısı seçiləcəyi təqdirdə Türkiyədə məskunlaşan 13 milyondan çox miqrantın təcili surətdə öz ölkələrinə geri dönmələri üçün fərman imzalayacaq. Bir çox siyasətçilər bu bəyanatı cəmiyyətin müəyyən kəsiminin rəğbətini qazanmaq naminə populist yanaşma kimi dəyərləndirirlər.

Uzun müddətdir Türkiyədəki seçkiləri yaxından izləyən dünya mediası R.T.Ərdoğanın ikinci turda daha öndə olduğunu, K.Kılıçdaroğlunun qalib gəlmə ehtimalının xeyli aşağı olduğu qənaətindədir.Fransanın "Agence France-Presse" (AFP) xəbər agentliyi R.T.Ərdoğanın səsvermə bitəndən 6-9 saat sonra gecə yarısı xalqın qarşısına alqışlarla çıxdığına diqqət çəkərək, onun "önümüzdəki 5 ildə də xalqımıza xidmət etməyə davam edəcəyimizə ürəkdən inanıram" ifadəsinə yer verib.

K.Kılıçdaroğlunun səs nisbətinin məyusluq yaratdığını bildirən "AFP" seçki prosesi ilə bağlı bunları yazıb: "Kılıçdaroğlunun ittifaqı əvvəlcə səslərin sayılmasına etiraz edərək, müxalifətin irəlidə olduğunu iddia etdi. Lakin 74 yaşlı siyasətçi jurnalistlərin qarşısına çıxanda bir az ümidsiz görünürdü. O, ikinci turun qaçılmaz olduğunu etiraf etdi".

ABŞ-nin "Associated Press" (AP) xəbər agentliyində seçkilərlə bağlı yayımlanan məqalədə St. Laurens Universitetindən amerikalı tarixçisi Hovard Eissenstatın ikinci turla bağlı açıqlamalarına yer verilib. Eissenstatn R.T.Ərdoğanın partiyasının parlament nəticələrinin daha yaxşı oduğunu, bunun üçün də AKP liderinin ikinci turda daha üstün olduğunu vurğulayıb.

***Məsaim ABDULLAYEV, "Xalq qəzeti"***

### *Ekspert rəyi*



**Minaxanım ƏSƏDLİ, Azərbaycan Turizm və Menecment Universitetinin professoru**

Türkiyədəki prezident seçkilərinin birinci turu başa çatdı. Prezidentliyə heç bir namizəd 50 faiz plyus bir səs toplaya bilmədiyi üçün bu il mayın 28-də seçkilərin ikinci turu olacaq. Bu seçkilər bütün dünyaya bir daha göstərdi ki, qardaş ölkə ən yüksək səviyyədə seçkilər keçirməyi bacarır. Bu seçkilər Türkiyə demokratiyasının parlaq qələbəsi sayılmalıdır.

14 may seçkiləri həm də onu sübut etdi ki, türk cəmiyyəti siyasi cəhətdən çox yetkindir. Sakinlər dövlətin, eləcə də ailələrinin və övladlarının taleyinə biganə qalmırlar. Mən çağdaş dünyada ikinci bir demokratik ölkə təsəvvür etmirəm ki, orada Türkiyədə olduğu kimi, seçicilərin 90 faizə yaxını azad, sərbəst şəkildə səsvermə prosesinə qatılsın. Bu, çox yüksək göstəricidir.

Türkiyənin inkişaf və tərəqqisini istəməyən qüvvələr çoxdur. Onlar haqsız olaraq bu ölkənin iqtidarını avtoritarlıqda günahlandırırlar. Səhv edirlər. Heç bir avtoritar ölkədə belə yüksək səviyyədə azad, demokratik seçkilər keçirilmir. Necə deyərlər, hər şey göz qabağındadır.

Türkiyədəki seçkilərin nəticələrinin təkcə qardaş ölkə üçün deyil, bütün türk xalqlarının gələcək taleyi üçün böyük əhəmiyyəti var. Əminəm ki, müdrik türk vətəndaşları seçkilərin ikinci turunda da yüksək fəallıq nümayiş etdirəcək və ən layiqli namizədə səs verəcəklər.

# Türkiyədə prezident seçkilərinin ikinci turu keçiriləcək

**Türkiyədə mayın 14-də keçirilən prezident seçkilərində namizədlərin heç biri 50 faizdən çox səs toplamadığı üçün səsvermənin ikinci turu keçiriləcək**




Bunu Türkiyə Yüksək Seçim Kurulunun (MSK) sədri Ahmet Yener bildirib. Onun sözlərinə görə, prezident seçkilərinin ikinci turunun bazar günü, mayın 28-də keçirilməsi qərara alınıb.

MSK-nın sədri deyib ki, yerli vaxtla saat 15:15-dək seçki qutularının hamısı açılıb. Hazırkı Prezident Rəcəb Tayyib Ərdoğan 49,51 faiz, müxalifətin lideri Kamal Kılıçdaroğlu 44,88 faiz, ATA ittifaqının namizədi Sinan Oğan 5,7 faiz səs toplayıb. Seçici fəallığı 88,92 faiz təşkil edib.

Prezident seçkilərinin ikinci turunda Rəcəb Tayyib Ərdoğan və Kamal Kılıçdaroğlu mübarizə aparacaq və qalib sadə səs çoxluğu ilə müəyyənləşəcək.

***"Xalq qəzeti"***

**ABŞ və Avropa İttifaqı (Aİ) tərəfindən Çinin iqtisadi təsirini dəf etmək məqsədilə iqtisadi təhlükəsizlik tədbirləri üzrə əməkdaşlığı gücləndirmək qarşıya prioritet vəzifə kimi qoyulub.**

"Bloomberg" agentliyinin ABŞ–Aİ Ticarət və Texnologiya Şurasının dördüncü iclası ilə bağlı bəyanat layihəsində bu məsələ xüsusi qeyd edilib. Sənəddə hər iki tərəfin Çinin xarici hökumətlərə təsir göstərmək üçün iqtisadi vasitələrdən istifadə etməsindən irəli gələn narahatlıq önə çəkilib.

Çinin belə bir yolla xarici ölkələrə, o cümlədən, ABŞ və Aİ-yə üzv dövlətlərə təsir göstərmək imkanları barədə bəhs edərkən, bir neçə məqama diqqət yetirmək istərdik. Mütəxəssislərin fikrincə, ötən əsrin 70-ci illərindən başlayaraq, Çin iqtisadiyyatın ayrı-ayrı sektorlarında mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan bazar liberallaşmasına

Beləliklə, rəsmi Vaşinqton və bir çox Qərb ölkələri tərəfindən Çinin bazarın liberallaşdırılması yoluna qədəm qoymayacağı, əksinə, dövlət kapitalizmi formasının tətbiqindən geri dönməyəcəyi əminliklə diqqətə çatdırılırdı.

Beləliklə, mütəxəssislərin bildirdiklərinə görə, Çinin ÜTT-yə üzvlüyü ona beynəlxalq liberal dünya nizamının standartlarını real şəkildə qəbul etmədən Amerika, Qərb və digər qlobal iqtisadiyyatlara çıxışa nail olmaq imkanı yaratdı. Bu isə ölkənin beynəlxalq liberal normalara sözdə əməl etsə də, fəaliyyətdə boşluqlardan yararlanaraq xarici siyasətdə əyri yol tutduğunu deməyə əsas verdi.

# ABŞ və Avropa İttifaqı iqtisadi təhlükəsizlik əməkdaşlığını gücləndirir



keçməklə iqtisadiyyatını dəyişdirib. Bu ölkə, ilk növbədə, kənd təsərrüfatının kollektivləşdirilməsini tədricən azaldıb, qiymətlərə nəzarəti ləğv edib, dövlət müəssisələrinin sərbəstliyini gücləndirib, bütün bunlarla yanaşı, bank sektorunda genişhəcmli islahatlar gerçəkləşdirməklə sistemin şaxələndirilməsini reallaşdırıb. Bazarlarını birbaşa xarici investisiyalara açmaq üçün isə "yaşıl işıq" yandırıb. Belə bir tendensiya nəticəsində Çinin özəl sektorunda eksponensial artım özünü qabarıq büruzə verib.

Mütəxəssislər bildirirlər ki, bu ölkədə iqtisadiyyatın restrukturizasiyası, yəni, yenidən qurulması nəticəsində 1978-ci ildən başlayaraq, Ümumi Daxili Məhsul (ÜDM) tədricən yüksəlməklə təqribən on qat artıb və keçən il 17 trilyon dollara çatıb. Dünya Bankının 2022-ci il üzrə hesabatına əsasən, Çin qlobal ÜDM-in 18,6 faizini təşkil etməklə dünyanın ikinci ən böyük iqtisadiyyatı və ən güclü ixracatçısı kimi Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv qəbul edilib. Bu, əslində, Qərb tərəfindən böyük bir uğur kimi qarşılanıb və dünya iqtisadi sistemi üçün dönüş nöqtəsi və Çinin islahatlar yoluna qədəm qoymağa hazır olmasına bir işarə kimi dəyərləndirilib.

Həmin vaxt ABŞ və Qərb Çinin ÜTT-yə daxil olması ilə bu ölkənin beynəlxalq liberal iqtisadiyyata tam inteqrasiya ounacağına inanırdı. Lakin hələ 2018-ci ildə ABŞ-ın ticarət nümayəndəsi Robert Laythayzer bu fikirlə razılaşmır və ölkəsinin Çinin ÜTT-yə daxil olmasını dəstəkləməkdə səhv etdiyini bildirirdi. Başqa sözlə, Laythayzer Çinin "dövlətə məxsus, merkantilist ticarət rejimi"nin ÜTT üzvlərinin böyük əksəriyyətinin tətbiq etdiyi bazar əsaslı yanaşma ilə uyğun gəlmədiyini söyləyirdi. O zaman Barak Obama Administrasiyasının iki rəsmisinin– Kurt Kempbel və Ely Ratner də liberal beynəlxalq nizamın Çini nəzarətdə saxlaya və cilovlaya bilməyəcəyini vurğulayırdı.

Göründüyü kimi, Qərb Çinin əhəmiyyətli iqtisadi dirçəlişindən narahatlıq keçirir. Ekspertlər tərəfindən isə bu, xüsusilə ticarət kəsiri 1990-cı ildəki 10,4 milyard dollardan 2020-ci ildə 355 milyard dollara yüksələn ABŞ üçün həqiqət olması ilə təsdiqlənir. Avropa İttifaqının Çinlə cari ticarət kəsirinin 2011-ci ildəki 129 milyard avrodan 2022-ci ildə 248 milyard avroya qədər yüksəlməsi də narahatlıqla qarşılanır.

Xatırladaq ki, hazırda Qərbdə bir çox ekspertlər belə bir eksponensial ticarət kəsirini Çinin öz valyutasının məzənnəsini qəsdən aşağı salmaq və Qərb bazarlarını ucuz mallarla doldurmaq üçün yerli istehsalçılara subsidiyalar vermək kimi ədalətsiz ticarət təcrübələri ilə məşğul olduğunun göstəricisi hesab edirlər. Nəticədə, bu, ABŞ və digər Qərb ölkələrindən ixracatı məhdudlaşdırır, iş yerlərini, əmək haqqını və yaşayış səviyyəsini təhdid edir.

Mütəxəssislərin fikrincə, Çinin kompüterlər və avtomobillər kimi yüksək qiymətli malların istehsalına və ixracına keçməsi vəziyyəti daha da gərginləşdirə və Qərb ölkələrinin iqtisadiyyatını daha da çətin vəziyyətə sala bilər. Bu baxımdan "General Electric" kimi böyük ABŞ firmalarının Çin şirkətləri tərəfindən satın alınması hallarının artması və Çinin ABŞ Xəzinədarlığının qiymətli kağızlarında 1,095 trilyon dollar toplaması ciddi həyəcan doğurur.

ABŞ Konqresi valyuta siyasəti və digər ədalətsiz ticarət təcrübələrini həll edə bilmədiyi üçün Çinə qarşı sanksiyalar tətbiq etmək kimi bir çox qanun layihələri təqdim edib. 2030-cu ilə qədər Çinin ÜDM-nin ABŞ ÜDM-dən çox olacağı təxmin edilib.

Beləliklə, Qərb ekspertlərinin gəldiyi qənaət bundan ibarətdir ki, Çin Qərb üçün, xüsusən də ABŞ üçün ciddi təhdid yaradır. Əsas məsələ ABŞ və Qərbin qlobal miqyasda iqtisadi qeyri-müəyyənlik yaratmadan bunun qarşısını almaq üçün nə edə biləcəyidir.

***V.BAYRAMOV, "Xalq qəzeti"***

# Norveç Ukrayna hərbçilərinə təlim keçəcək

**Norveç Silahlı Qüvvələri bu il ərzində təxminən 3200 Ukrayna hərbçisinə təlim keçməyi planlaşdırır. Bu barədə Ukrayna Baş Qərargahının mətbuat xidməti məlumat yayıb.**



Məlumata görə, Norveçin Müdafiə naziri Byorn Arild Qram Daxili işlər naziri vəzifəsini icra edən Morten Eqgenlə birlikdə poliqonlardan birində Ukrayna hərbçilərinin təlimlərində iştirak edib.

"Biz Ukraynanı həm maliyyə, həm də təlimlə dəstəklədik və lazım olan qədər də dəstəkləyəcəyik", – Norveç Müdafiə Nazirliyinin rəhbəri bildirib.

Xatırladaq ki, aprelin sonunda Norveç Milli Qvardiyasının Heimevernet təlimatçıları Ukrayna Silahlı Qüvvələrinin yüzdən çox üzvünə hərbi tibb, odlu silah hazırlığı və komanda rəhbərliyi üzrə dörd həftəlik intensiv təlimə başlayıblar. Bu, ukraynalı döyüşçülər üçün Norveç Milli Qvardiyasının bir neçə kurslarından birincisidir.

Bundan əvvəl bildirilib ki, mayın 15-dən Kanada və Latviya UNIFIER əməliyyatı çərçivəsində Latviya ərazisində Ukrayna hərbçilərinə döyüş komandirləri səviyyəsində birgə təlim keçəcəklər.

***"Xalq qəzeti"***




# NATO-nun Baş katibi vəzifəsini tərk edəcək

**NATO-nun Baş katibi Yens Stoltenberq belə bir təklif alsa belə, oktyabr ayında səlahiyyət müddəti başa çatdıqdan sonra bu vəzifədə qalmağı planlaşdırmadığını deyib.**

"Report" xəbər verir ki, o, bu barədə Kopenhagendə keçirilən Demokratik Forumda danışıb.

"Yeganə planım payızda səlahiyyətlərimi təhvil verməkdir. Bununla da, əvvəlcə planlaşdırdığımdan iki dəfə daha artıq müddətə vəzifədə qalmış olacağam. Bu barədə deyə biləcəyim tək şey budur", – deyə o, bildirib.

***"Xalq qəzeti"***

Elçin – 80

# Xalq yazıçısının yubileyə sənət hesabatı

## Dramaturqun yubiley gecəsi onun yeni tamaşasının təqdimatı ilə əlamətdar oldu



**Çağdaş ədəbiyyatımızın görkəmli nümayəndəsi, Xalq yazıçısı Elçinin anadan olmasının 80-ci ildönümü münasibətilə şənbə günü Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının yaradıcı kollektivi bu sənət ocağı ilə sıx əməkdaşlıq edən dramaturqun yubileyinə onun sonuncu pyesi "Otelloya xəyanət" tamaşasını hədiyyə etdi. Yazıçının özünün, yaxınlarının, sənət dostlarının, ölkənin yaradıcılıq qurumları rəhbərlərinin və tanınmış ziyalıların iştirak etdiyi təntənəli premyera Elçinsevərlərin yubilyar ədibin yaradıcılığına böyük marağının və verdikləri yüksək qiymətin nümayişinə çevrildi.**

İlk tamaşanın əvvəlində səhnəyə müxtəlif qurumlar adından təbrik əklilləri qoyuldu. Teatrın baş rejissoru, Xalq artisti Aleksandr Şarovski və Xalq yazıçısı Elmira Axundova fəxri lojada əyləşmiş Xalq yazıçısı Elçini salamladılar, tamaşaçılara onun dramaturgiyasının özəlliklərindən və məhsuldarlığından, milli teatr səhnəsinə gətirdiyi yeniliklərdən söz açdılar, görkəmli yazıçı-dramaturqu ölkənin mədəni elitası adından səmimi təbrik etdilər. "Teatr içində teatr" formasında qələmə alınmış, meydan tamaşası üslubunda quruluş verilmiş yeni əsər böyük maraqla izlənildi və müəllifin yubiley hesabatının uğurlu nümunəsi kimi qarşılandı. Sonda yubilyar səhnəyə dəvət edildi, alqışlar altında gül-çiçəyə qərq edildi, şərəfinə yubiley tortu kəsildi.



Tamaşaçılara yüksək sənət zövqü gətirmiş, Elçin dramaturgiyası ilə canlı təmas yaratmış və müasir rejissorluq fəndləri ilə ərsəyə gətirilmiş səhnə əsərinin bəzi məqamlarını oxucularımızın nəzərinə çatdırırıq.

...Reallıqla xəyal arasında sərhəd nə zaman aradan götürülür? Səhnənin işıqları sönəndə, pərdələr salınanda aktyorlar nə hiss edirlər? Eyni bir rolu uzun illər ərzində oynamaq hansı hisslər yaradır? Bu və digər çoxsaylı suallara "Otelloya xəyanət" tamaşasına baxmaqla cavab tapmaq olar.

İlk dəqiqələrdən bəlli oldu ki, "Otelloya xəyanət" teatr içində teatr, tamaşa içində tamaşadır. Bu da Elçinin istedadlı dramaturq olması ilə yanaşı, həm də çağdaş dünya teatr proseslərinə dərindən bələdliyindən və yüksək estetik zövqündən, geniş əbəbiyyatşünaslıq görüşlərindən qaynaqlanır. Tamaşada aktyorlar aktyor obrazlarını oynayırlar. Məşhur Qəmərli (Azərbaycanın Xalq artisti Məbud Məhərrəmov) özünün baş rolu ifa etdiyi "Otello"da 500-cü tamaşasına hazırlaşır. Onun üçün reallıqla illüziya, gerçəkliklə oyun arasında sərhəd çoxdan silinib. O, artıq kimsəni görmür: həyatında yalnız teatr var, səhnə var, bir də Dezdemona adında məhəbbət var.

"Otello"nun səhnədən düşmədiyi 16 ildə Dezdemona obrazını oynayan bir çoxları dəyişib, baş qəhrəman isə həminki olaraq qalıb. Qəmərli hətta özünün bütün tərəf-müqabillərinin adlarını da xatırlamır. Onun üçün onlar hamısı, olsa-olsa, Şekspirin personajlarıdır. "Sonuncu" Dezdemona (Əməkdar artist Natəvan Hacıyeva) aktyora tələbəlik dövründən aşiq olub, amma o, bunu görmür...

Sirli-sehirli yad qadın (Gövhər Şabanova) Qəmərlinin yoluna çıxaraq onu məcbur edir ki, Otello haqqında düşünsün, əsl həqiqətdə onun kim olduğunu anlasın: qisasçıdırmı, qısqancdırmı, yoxsa, sadəcə, hiyləgər Yaqonun aldatdığı birisi... Bəs, yad qadın özü kimdir – aktyorun daha bir pərəstişkarı, yoxsa mələk cildində şeytan? Bəlkə, Qəmərlinin hər bir replikasını, hər bir mizanını əzbər bildiyi pyesin süjet xəttini dəyişməyə elə məhz o qadirdir?

Qocaman aktyor Qəmərli "Otello"nun 500-cü yubiley tamaşasında oynamağa hazırlaşır. Baxışa dünyanın hər yerindən qonaqlar dəvət olunub, teatr tənqidçiləri resenziyalar hazırlayır, müdiriyyət tanışlar-yaxınlar üçün əlavə bilet axtarır, yer tədarük edir və həddən çox köntöy suallar verən jurnalistlərdən yaxa qurtarmağa çalışır.

...Yenə səhnə, yenə tamaşa. Budur, Otello qısqanclığına üstün gələrək, həddən artıq tanış olan bu sözləri deməlidir: "Sən gecə dua etdinmi, Dezdemona?" Qəfildən sözləri unudur və mətndə olmayan elə ifadələr işlədir ki, elə bil, daha Şərin müttəfiqi olmaq, Yaqonun yalanına inanmaq istəmir. Başqa sözlə desək, Şekspirin dörd əsr əvvəl yazdığı faciənin süjet xəttini dəyişir. Tamaşa salonuna sakitlik çökür, səssiz bir həyəcan baş qaldırır. Heç kim nə olduğunu anlamır, amma qəfildən alqışlar qopur, camaat yeni süjet xəttini qəbul edir...

Tamaşadan sonra yubiley gecəsindən aldığı yüksək sənət təəssüratını bizimlə bölüşən həmkarımız, "Mədəniyyət" jurnalının baş redaktoru, Əməkdar jurnalist Zöhrə Əliyeva bildirdi:

–"Otelloya xəyanət" əsəri tamaşaçını teatrın təbiəti ilə bağlı düçüncələrə daldırır, bu güzgünün arxasına boylanmağa, aktyorlarla birlikdə insan təbiətini duymağa vadar edir. Baş qəhrəmanı narahat edən suallar hər birimizin duyğu və düşüncələri ilə səsləşir. Tanınmış rejissor İlqar Safatın quruluş verdiyi tamaşa seyrçilərin böyük marağına səbəb oldu. Tamaşada çoxlu cəlbedici rejissor tapıntısı var, bədii ifadə vasitəsi olan gözəl musiqi səslənir.

Elə aktyor heyəti də möhtəşəmdir. Lüdmila Duxovnaya və Məbud Məhərrəmov kimi sevimli xalq artistlərini səhnədə növbəti dəfə, həm də Elçin kimi sevimli bir dramaturqun yubiley gecəsində müəlliflə səhnədə görmək paytaxtın mədəni elitasına xüsusi zövq verdi. Tamaşaçılar da Məbudla bərabər, əzabverici şübhələrə, həyəcanlara qatıldılar, Aristotel demiş, mənəvi təmizlənmə keçirdilər. Əməkdar artistlər Salman Bayramov, Natəvan Hacıyeva, İnna İmranova, aktyorlar Yaroslav Trifonov, Gövhər Şabanova və digərləri də rollarının öhdəsindən məharətlə gəldilər. Bütün bunların nəticəsidir ki, tamaşa dəfələrlə sürəkli alqışlarla qarşılandı. Elçin dramaturgiyası öz orijinallığı və sirli bir cazibəsi ilə bu axşam bir daha sənətsevərlərin duyğu-düşüncələrinə hakim kəsildi.

Teatrsevər həmkarımızın verdiyi maraqlı məlumata əlavə olaraq qeyd edək ki, tamaşanın quruluşçu rəssamı Humay Həsənova, dekorasiya rəssamı Əməkdar mədəniyyət işçisi Aleksandr Fyodorov, kostyum üzrə rəssamı Səmra Axundova, xoreoqrafı Raulə Türkandır.

***Tahir AYDINOĞLU,***
***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

# Vətən sevdalısı idi... Torpaq yolunda şəhid oldu

## *Şəhid Məhəmməd Qarayevin 3 mərasimində keçirdiyimiz hisslər*

**Qəbələdəyik. Nə Yerin, nə Göyün üzü gülür, nə də buraya axışan insanların. Gurşad yağış yağır. Mayın 12-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində həlak olmuş Azərbaycan Ordusunun hərbi qulluqçusu Məhəmməd Qarayevin 3 mərasimidir. Rayon icra hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Şahmurad Abbasovla birlikdəyik. İkinci Vətən müharibəsinin iştirakçısı olan müsahibimiz kədərlə dillənir:**



– Kimdən soruşsanız, Məhəmməd haqqında ancaq xoş söz deyər. Nümunəvi gənc idi. Vətən sevdalısı idi, topraq yolunda da şəhid oldu... O qədər mehriban, ünsiyyətcil idi ki, hamının sevimlisinə çevrilmişdi. Səhərdən mərasimə gəlib-gedənlərin sayı-hesabı yoxdur. Rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri, Məhəmmədin xidmət etdiyi hərbi hissənin nümayəndələri, əsgər dostları, hətta qonşu rayonlardan da gələnlər var...

Çadır boşalır-dolur. Məhəmmədin atası Mahir girişdə dayanıb. Gələnləri qarşılayıb, yola salır. Zəhmətkeş adamdır. Ömrü boyu dülgərliklə məşğul olub. İki övladını əlinin zəhməti ilə böyüdüb...

Yaxınlaşıb başsağlığı veririk. Cavab verməyə, necə deyərlər, heyi qalmayıb. Eləcə başını tərpədir. Nəsə deyir, hiss edirəm ki, təşəkkürünü bildirir. Əlli dörd yaşlı atanı başa düşmək o qədər də çətin deyil. Ailənin yeganə oğul övladını itirib. Həmişə boyu ilə fəxr elədiyi balasını torpağa tapşırıb. Məhəmməd Azərbaycan İqtisad Universitetinin məzunu idi. Hərbi xidmətini başa vurmağa cəmi 49 gün qalmışdı...

**Yaxın dostu Fəqan Şeydayevin dedikləri:**

– Həmişə deyərdi ki, hərbi xidməti başa vurandan sonra mütləq biznes quracaq, karyerasını düzəldəcək. Hərdən deyərdi ki, hamınız mənimlə fəxr edəcəksiniz...

**Dostu Aqil Yunusov söhbətə qoşulur:**

– Fəxrimiz idi. Onunla bir yerdə heç vaxt darıxmazdıq. Tələbə vaxtı Bakıda hamımızın yığışdığı yer onun kirayədə qaldığı ev olardı. Deyərdik, gülərdik. Sən demə, ömrümüzün ən gözəl, qayğısız günlərini yaşamışıq...

Məhəmməd Qəbələdəki 4 saylı məktəbi bitirib. Həmişə sayılıb-seçilib. 7 il sinif rəhbəri olmuş Səadət Həşimova söhbət zamanı kövrəlir, danışa bilmir. Ovutmağa çalışırıq.

– İndi məktəbdən gəlirəm, –deyir. Bu gün dərsə Məhəmmədi yad etməklə başlamışıq. Vətənpərvər, tərbiyəli və mehriban uşaq idi. Məktəbdə keçirilən bütün tədbirlərdə başda olardı. Çox heyf...

Məhəmmədin atası Mahir Qarayevlə danışa bilmədik, anası Könül xanımla görüşməyə isə ürək eləmədik. Bir də axı nə danışacaqdıq, görüşüb nə deyəcəydik?

Yas mərasimindən çıxırıq, küçədə bir neçə qızla rastlaşırıq. İstər-istəməz düşünürük ki, görəsən, onların içərisində Məhəmmədin yolunu gözləyən kimsə vardımı...

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

**Qəbələ**

# Talışa qayıdanlara məşğulluq dəstəyi

**İşğaldan azad olunmuş yurd yerlərimizə Böyük Qayıdış proqramı üzrə görülən işlər çərçivəsində Tərtər rayonunun Talış kəndində də sakinlərin məşğulluğunun təminatı işləri davam edir. Dövlət Məşğulluq Agentliyinin nümayəndələri Talış kənd sakinlərindən özünüməşğulluq proqramına cəlb olunan 7 nəfərinə mal və materiallar formasında aktivlər təqdim ediblər.**



Verilmiş aktivlər hesabına onlar maldarlıq üzrə təsərrüfatlarını yaradıblar. Daha iki kənd sakini də yaxın günlərdə arıçılıq və qəssablıq fəaliyyət istiqamətləri üzrə aktivlərlə təmin ediləcək.

Media nümayəndələrinin həmin kənddə aktivlərlə təminat prosesi ilə tanışlığı üçün tur təşkil olunub. Mediatur iştirakçılarına bildirilib ki, Talış kəndinə köçürülən ailələrin hər biri ilə Dövlət Məşğulluq Agentliyinin nümayəndələri görüşlər keçirib, təhlillər aparılıb və kənd sakinlərindən 44 nəfər aktiv məşğulluq proqramları ilə əhatə olunub.



Onlardan 29 nəfər qurumun dəstəyi ilə işlə təmin olunub. Daha bir qrup sakinin də məşğulluğunun təminatı üçün işlər davam edir.

Kənddə özünüməşğulluq proqramına cəlb olunan sakinlər üçün ilk mərhələdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə birgə biznes təlimlər təşkil edilib. Həmçinin ərazidə fəaliyyət göstərən müəssisələr müəyyən olunub, vakansiya tələbləri öyrənilib. Müəssisə rəhbərləri ilə "İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi" proqramı üzrə əməkdaşlıq üçün hazırda işlər aparılır. Bu proqrama cəlb olunacaq sakinlərin əməkhaqqının bir hissəsi Dövlət Məşğulluq Agentliyi tərəfindən ödəniləcək. Bununla da proqram sakinlərin məşğulluğu ilə yanaşı, ərazidəki işəgötürənlərə də dəstək olacaq.

Eləcə də, kənd sakinlərindən bir qisminin yeni peşələrə yiyələnmələri məqsədilə onlar üçün peşə hazırlığı kurslarının təşkili də nəzərdə tutulub.

***Z.HÜSEYNOVA, "Xalq qəzeti"***

# Müdafiə Nazirliyində xidməti müşavirə

***Mayın 15-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Müşavirədə nazir müavinləri, qoşun növü komandanları, nazirliyin baş idarə və idarə rəisləri, həmçinin hərbi birlik komandirləri iştirak ediblər.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən qəzetimizə bildirilib ki, nazir Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb.

Azərbaycan–Ermənistan şərti sərhədi və Qarabağ iqtisadi rayonunda mövcud əməliyyat şəraiti təhlil edilib. Kəlbəcər istiqamətində baş vermiş son döyüş toqquşmalarına toxunan müdafiə naziri qarşı tərəfə layiqli cavab verildiyini, Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatların genişlənməsinin qarşısının qətiyyətlə alındığını və ona xeyli zərər vurulduğunu qeyd edib. Nazir baş verə biləcək silahlı insidentlərə qarşı bundan sonra da sərt cavab tədbirlərinin görülməsi barədə aidiyyəti vəzifəli şəxslərə göstəriş verib.

Müşavirədə qış dövrü ərzində qoşunların döyüş hazırlığı və hərtərəfli təminatı məsələləri müzakirə edilib, qarşıda duran bir sıra tapşırıqlar qoşun növü komandanlarına çatdırılıb.

General-polkovnik Z.Həsənov Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Raket və Artilleriya Qoşunları, Xüsusi Təyinatlı Qüvvələr və digər hərbi hissələrin əməliyyat planlarının dəqiqləşdirilməsi, habelə qoşunların qarşılıqlı fəaliyyətdə keçirilən intensiv təlim və məşqlərinin keyfiyyətinin daha da artırılmasının vacibliyini vurğulayıb.

Sonda müdafiə naziri bütün növ döyüş təminatı bölmələrinin gücləndirilmiş hazırlığına xüsusi diqqətin yetirilməsini tapşırıb.

***Q.QASIMOV, "Xalq qəzeti"***

# Şəhid ailələrini və qaziləri qəbul mərkəzləri

**Şəhid ailələri və müharibə iştirakçılarının müraciətlərinin qəbulu məqsədilə daha 4 rayonda – Ağsu, Bərdə, İmişli və Şəkidə regional vahid əlaqələndirmə mərkəzləri fəaliyyətə başlayıb. Yeni mərkəzlər Dövlət Sosial Müdafiə Fondunun (DSMF) həmin rayonlardakı ərazi filiallarının binasında fəaliyyət göstərir və ətraf bölgələr də daxil olmaqla, ümumilikdə, 23 rayon və şəhər üzrə şəhid ailələri və müharibə iştirakçılarına xidmət edir.**




Belə ki, Ağsu rayonundakı vahid əlaqələndirmə mərkəzində – İsmayıllı, Qobustan, Şamaxı, Ağsu rayonları üzrə, Bərdə rayonundakı vahid əlaqələndirmə mərkəzində – Şuşa, Xankəndi, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Tərtər şəhər və rayonları üzrə, İmişli rayonundakı vahid əlaqələndirmə mərkəzində – Beyləqan, İmişli, Saatlı, Sabirabad rayonları üzrə, Şəki rayonundakı vahid əlaqələndirmə mərkəzində – Balakən, Qax, Qəbələ, Oğuz, Şəki, Zaqatala rayonları üzrə xidmətlər göstərilir.

Beləliklə, ötən dövrdə DOST mərkəzlərində və DSMF-nin yerli bölmələrində olmaqla, artıq 71 rayon və şəhəri əhatə edən 16 regional vahid əlaqələndirmə mərkəzi yaradılıb.

Bu mərkəzlərdə 5 mərkəzi icra hakimiyyəti – Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və 71 yerli icra hakimiyyəti üzrə 26 növ xidmət "bir pəncərə"dən, operativ və şəffaf, vətəndaş məmnunluğu prinsipi əsasında təqdim edilir.

Qeyd edək ki, ötən dövrdə bu mərkəzlərdə 83 min 700 şəxsə xidmət göstərilib.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

# İdmanın zirvəsinə aparan böyük uğurun qarantı

## Dünyanın ən mahir nişançılarının Bakıda mübarizəsi uğurla başa çatdı

**Dünyanın idman mərkəzlərindən birinə çevrilmiş Azərbaycanda daha bir mötəbər turnir uğurla keçirildi. Bu dəfə mahir nişançılar Avropada ən böyük atıcılıq komplekslərindən biri olan Bakı Atıcılıq Mərkəzində bir araya gəldilər. Ölkəmizdə artıq üçüncü dəfədir keçirilən dünya kuboku yarışında 66 ölkədən 600-dən çox idmançı mübarizə apardı. Onu da qeyd edək ki, mötəbər yarış ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuşdu. Xatırlatmaq yerinə düşər ki, müxtəlif ölkələrdən ən güclü idmançılar ötən həftə xalqımızın ulu öndəri Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş Avropa tennis turniri, “Prezident kuboku-2023” beynəlxalq reqatası, “Baku Open-2023” beynəlxalq şahmat festivalı, həmçinin cüdoçuların yarışdığı Göygöl Avropa kubokunda iştirak ediblər.**



Təqdirəlayiq haldır ki, bu yarışların ünvanı təkcə paytaxt Bakı deyil, həm də, ölkəmizin ayrı-ayrı regionları, rayonlarıdır. Bununla da, ölkəmizin idman siyasətində prioritet istiqamətlərdən biri olan bədən tərbiyəsi və idmanın kütləviliynə nail olmaq üçün onun daha geniş coğrafi məkanda inkişaf etdirilməsi uğurla həyata keçirilir. Bu nüfuzlu idman tədbirlərinin digər regionlarla yanaşı, artıq işğaldan azad olunmuş torpaqlarımızda da keçirilməsi ölkəmizin bütün sahələrdə olduğu kimi, idmanda da artan gücünü, böyük nüfuzunu göstərir.

“Prezident kuboku-2023” beynəlxalq reqatasının 100 illlik yubileyini qeyd etdiyimiz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə inşa edilən Suqovuşan su anbarında start götürməsi özlüyündə rəmzi məna daşıyırdı. Bu gün düşmən işğalından azad olunmuş şəhər, qəsəbə və rayonlarda bu cür genişmiqyaslı beynəlxalq tədbirlərin təşkili bir daha göstərir ki, Qarabağa həyat qayıdır. Vəhşi düşmənin 30 il ərzində daşı daş üstündə qoymadığı doğma torpaqlarımızın dirçəlməsi dünyanın gözü önündə baş verir. Belə bir beynəlxalq turnirin təşkil edilməsi işğaldan azad edilən torpaqlara, həm də sülhün və sabitliyin qayıdışının gözəl nümunəsidir.

Azərbaycanda keçirilən hər hansı bir mötəbər idman tədbirinin iştirakçıları ölkəmizin tarixi nailiyyəti olan sülhün, sabitliyin, təhlükəsizliyin qorunmasını ilk növbədə vurğulayırlar. Təbii ki, bunu bütün ölkələr barədə demək olmaz. Buyaxınlarda Ermənistanda Avropa çempionatının açılış mərasimində ölkəmizin bayrağının vəhşicəsinə yandırılması dünyanın diqqət mərkəzinə gələrək qəti pislənildi. Düşmən ölkədə sülhün, həmrəyliyin bərqərar olmaması səbəbindən böyük tədbirlərin təşkili zamanı xarici qonaqların təhlükəsizliyi sual altına düşür. Ayrı-ayrı federasiyaların ən nüfuzlu idman yarışının ev sahibliyini Azərbaycana etibar etməsinin əsasında da bu faktorlar durur: İdmançıların öz potensiallarını üzə çıxarması üçün qurulan mükəmməl infrastruktur, yüksək səviyyəli təşkilatçılıq və ölkəmizdə sabitlik və təhlükəsizliyin hökm sürməsi. Elə ölkəmizdə keçirilən nüfuzlu tədbirlərin iştirakçıları da mətbuata verdikləri müsahibələrdə bu mühüm amilləri xüsusi vurğulayırlar.

Dünya kubokunda 10 metr məsafəyə pnevmatik tüfəngdən atəş açma üzrə yarışda qızıl medal qazanan **Çin atleti Han Jiayun** müasir üslublu Bakı Atıcılıq Mərkəzindəki meydançalarda yarışmağın ona xüsusilə zövq verdiyini qeyd edib. Yarışın yüksək təşkilatçılığını vurğulayan idmançı sabitlik adası olan Azərbaycanı çox bəyəndiyini, yerli sakinlərin xarici qonaqlara isti münasibətini xüsusi qeyd edib.

Kişilər arasında 25 metr məsafəyə tapançadan cəld atəş üzrə yarışın final mərhələsində gümüş medal qazanan **fransalı Klemen Besua** isə Azərbaycanda dəfələrlə yarışlarda iştirak etdiyini bildirib. Ölkəmizdə yarışların təşkilatçılıq səviyyəsini qeyd edən atlet burada heç zaman hər hansı problemlə qarşılaşmadığını da deyib. Ən son tələblərə cavab verən Bakı Atıcılıq Mərkəzini isə dünyada ən yaxşılardan biri olduğunu söyləyib.

İngiltərə tarixinin ən uğurlu atıcı qadını 50 metr məsafəyə tüfəngdən 3 mövqedən atəş üzrə yarışın final mərhələsində qızıl medal qazanan **Böyük Britaniya atleti Şona Makintoş** artıq 4-cü dəfədir Azərbaycanda olur. Deyir ki, Bakı bəyəndiyi ən gözəl şəhərlərdən biri, Bakı Atıcılıq Mərkəzindəki atəş meydanları isə dünyada ən yaxşılardandır. Havanın küləkli olması belə qızıl medal qazanmağa mane ola bilməyib. Atlet bunun özünün də bir əyləncə olduğunu bildirib.

Qarşıda ölkəmizi daha böyük idman tədbirləri gözləyir. Mayın 17-də Milli Gimnastika Arenasında bədii gimnastika üzrə Avropa çempionatı başlayacaq. Bu ayın sonunda isə taekvondo üzrə dünya çempionatı Bakıda təşkil ediləcək. Yarış Ümumdünya Taekvondo Federasiyasının 50 illiyinə təsadüf edəcəyindən yubiley ölkəmizdə qeyd olunacaq. Bu səbəbdən də mundial əvvəlkilərdən fərqlənəcək və paytaxtımıza 3 minədək qonağın gəlişi gözlənilir.

Avqustda isə atıcılıq üzrə dünya çempionatında iştirak etmək üçün planetin ən güclü idmançıları ölkəmizə gələcəklər. Paris Olimpiadasına ən çox lisenziya məhz Bakıdakı yarışda öz sahibini tapacaq.

Beləliklə, müxtəlif növlər üzrə dünyanın ən güclü idmançıları Azərbaycana böyük arzularla gəlirlər. Ölkəmizdə keçirilən hər bir nüfuzlu yarış idmanın zirvəsinə aparan böyük uğurun qarantına çevrilir.

***Leyla QURBANOVA,***
***“Xalq qəzeti”***

# Qadın 31 il komada qalıb

**İtaliyada qadın 31 il komada qaldıqdan sonra ürək tutması səbəbindən dünyasını dəyişib.**

“LADBible” nəşrinin yazdığına görə, 1991-ci ildə Milad bayramı ərəfəsində avtomobilini dirəyə çırpan Miriyam Visintin əməliyyat olunmayan kəllə-beyin travması alıb. Ölüm ayağında olsa da, həkimlər klinik şəraitdə onun həyatını xi-



las edə biliblər. Qadın həyati müalicəyə ehtiyacı olanların saxlandığı “La Madonnina” pansionatına köçürülüb. Bundan sonra zərərçəkmiş başqa bir qocalar evinə “Casa Sturm”a yerləşdirilib. Visintin son iki ayı ağciyərlərdə mayenin yığılması səbəbindən xəstəxanada keçirib.

Nəşrin məlumatına görə, həyat yoldaşı Angelo Farina Visintin bütün bu illər ərzində hər gün həyat yoldaşını ziyarət edib.

***Leyla AZAD,***
***“Xalq qəzeti”***


## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*öz gəmiləri üçün ehtiyat hissələrinin satın alınması məqsədilə*

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 19 may 2023-cü il saat 17.00-dəkdir.

Əlaqə telefonu- (012) 404-37-00, daxili:1016.
Ünvan- AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.

## “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

*“Balakən rayonunun Mahamalar və digər yaşayış məntəqələrinin, Balakənçay və Katexçay çaylarının sel sularından mühafizəsi tədbirləri”nin satın alınması ilə əlaqədar*

## AÇIQ TENDER ELAN EDİR

Satınalan təşkilatın adı- Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti
VÖEN- 1300300711
Kod- 805562
H/h - AZ 10 IBAZ 38070019449716100216
“Azərbaycan Beynəlxalq Bankı”nın Yasamal filialı
M/h- AZ03NABZ01350100000000002944
VÖEN- 9900001881
SWIFT : IBAZAZ2X (AZIPS-in üzvü)
Əlaqələndirici şəxs- Qulam Şamil oğlu Aslanov (A.A.S)
Satınalan təşkilatın ünvanı- Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69 a.
Əlaqələndirici şəxsin E-mail: tomiobm@mst.gov.az
Əlaqə nömrəsi- (012) 431 08 64.
Satınalma predmetinin adı - “Balakən rayonunun Mahamalar və digər yaşayış məntəqələrinin, Balakənçay və Katexçay çaylarının sel sularından mühafizəsi tədbirləri ”.
Ünvan- Balakən rayonu
İşlərin qısa təsviri - Balakən rayonunda uzunluğu 4394 metr, hündürlüyü 8 metr olan istinad divarının tikintisi.
İşlərin yerinə yetirilmə müddəti – 32 aydır.
Tender təkliflərinin qiymətləndirilməsi meyarları- tender təklifinin ödəniş şərti - 10 baldır.
-İddiaçı bağlanacaq satınalma müqaviləsinin yerinə yetirilməsi üçün avans ödənişi tələb etmədiyi halda bu meyar üzrə müəyyən olunmuş maksimal 10 bal alacaqdır.
İddiaçı tender təklifində 20 faizdən artıq avans ödənişi tələb edərsə, o zaman həmin iddiaçının tender təklifi kənarlaşdırılacaqdır. 20 faiz və daha az avans ödənişi tələb olunan tender təklifinin bu meyar üzrə alacağı bal aşağıdakı düstur əsasında hesablanacaqdır, (20–X)/20x10 X-tender təklifində iddiaçı tərəfindən tələb olunan avans ödənişinin müqavilə qiymətinə nisbətdə faizi.
Qiymət təklifi – 90 baldır.
Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi kadr və maliyyə imkanlarına malik olmaqla yanaşı,
• İddiaçının son 10 (on) tam təqvim ilində analoji işlər üzrə yerinə yetirdiyi müqavilələrin ümumi məbləği 7 min 500 manatdan az olmamalıdır.
• İddiaçı son 10 ildə ayrı-ayrılıqda, yaxud bir yerdə olmaqla ən azı 1 (bir) analoji iş kimi 4000 metr uzunluğunda və hündürlüyü 8 metrdən az olmamaq şərtilə beton bənd və ən azı 50 metr uzunluğunda fiksatorun tikintisi müqaviləsini yerinə yetirmiş olmalı və işlərin bitirilməsinə aid təsdiqedici sənədlərini (təhvil-təslim aktlarını və işbitirmə sənədlərini) təqdim etməlidir.
İştirak haqqı 5000 (beş min) manatdır.
İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
1. Tender təklifi azı 45 bank günü qüvvətə olmalıdır (tender təkliflərinin açıldığı gündən ən azı 30 bank günü qüvvədə olmalıdır). Tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
2. Tender təklifinin qiymətinin 1 faizi məbləğində tender təklifinin təminatı (bank zəmanəti, tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır (bank tərəfindən təqdim edilməlidir).
3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış (vergi xidməti tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı, sənədin əsli və ya notarial qaydada təsdiqini təqdim etməsi zəruridir).
4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (son maliyyə dövrünə olan məlumatı əks etdirməsi, sənədin əsli və ya notarial qaydada təsdiqini təqdim etməsi zəruridir).
5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bank tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı , sənədin əsli və ya notarial qaydada təsdiqini təqdim etməsi zəruridir).
6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (kommersiya və hüquqi şəxslərin dövlət qeydiyyatı reyestrindən çıxarış iddiaçı tərəfindən təqdim edilməli, nizamnamənin, dövlət reyestrindən çıxarışın və şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti).
7. Rekvizitlər( iddiaçının və ya bankın imzası və möhürü ilə təsdiq edilməlidir).
8. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (Asan xidmət tərəfindən təqdim edilməli və qeydiyyat tarixi cari rüb ərzində olmalıdır).
9. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması ,ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması(vergi xidməti tərəfindən təqdim edilməli və son rübü əhatə etməlidir).
10. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (iddiaçı tərəfindən təqdim edilməlidir).
11. İddiaçının kiçik və orta sahibkarlıq subyektlərinin meyarlarına uyğun olması.
(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilməlidir).
12. İddiaçının Azərbaycan Respublikası ərazisində tender predmeti üzrə fəaliyyət göstərməsi üçün müvafiq lisenziyası olmalıdır (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilməlidir).
13. Satınalma müqaviləsini bağlamaq səlahəyyətinin olması.
(imza səlahiyyəti olan şəxsin (əgər təsisçi direktor deyilsə) əmri, sənədin əsli və ya notarial qaydada təsdiqini təqdim etməsi zəruridir).
İddiaçılar tenderdə iştirak üçün yuxarıda 3-13-cü sıralarda göstərilən sənədləri 9 iyun 2023-cü il saat 17.00-a qədər (tender təkliflərinin açılışına 7 (yeddi) bank günü qalmış) qapalı zərfdə əsli və surəti olmaqla Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər.
İddiaçılar tender təklifi və bank təminatını isə 19 iyun 2023-cü il saat 17.00-a qədər (tender təkliflərinin açılışına 1 (bir) bank günü qalmış) qapalı zərfdə əsli və surəti olmaqla Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər.
İddiaçıların təklifləri 20 iyun 2023-cü il saat 15.00-da açılacaqdır.
Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*tabeliyindəki “Dənizçi təmir-tikinti” MMC üçün tələb olunan tikinti materiallarının satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il mayın 19-u saat 16.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1242.
Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

## “İsmayıllı Tikinti - 27” ASC səhmdarlarının nəzərinə!

29 iyun 2023-cü il saat 12.00-da “İsmayıllı Tikinti - 27” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
**1.** 2022-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi.
**2.** Səhmdarlara dividendlərin verilməsi.
Səhmdarların iştirakı vacibdir.
Telefon-055-347-80-89.
Ünvan- İsmayıllı şəhəri, Mübariz Orucov küçəsi 100.

***İdarə heyəti***

## “Astara Çay-1” ASC səhmdarlarının nəzərinə!

“Astara Çay-1” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2023-cü il saat 10.00-da cəmiyyətin yerləşdiyi inzibati binada keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
**1.** 2022-ci ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
**2.** Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirə olunacaq məsələ ilə bağlı sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək cəmiyyətə gəlməklə tanış ola bilərlər.
Telefon- 050-319-25-89.
Ünvan- Astara rayonu, Kijəbə qəsəbəsi.

***İdarə heyəti***

## “Çınqıl-Servis” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da “Çınqıl -Servis ” ASC səhmdarlarının illik ümumi yığıncağı İmişli rayonunun Çaxırlı kəndində “Çınqıl -Servis ” ASC-də keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
**1.** 2022-ci ilin maliyyə yekunlarına aid ASC-nin hesabatı.
**2.** Digər məsələlər.
Ünvan-İmişli rayonu, Çaxırlı kəndi, “Çınqıl-Servis” ASC.

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 101 (30217) 16 may 2023-cü il, çərşənbə axşamı

veb-sayt: www.xalqqazeti.az

## “CanSat” tələbə model peyk müsabiqəsi

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Kosmik Agentliyin (“Azərkosmos”) Elm və Təhsil Nazirliyinin dəstəyi ilə “CanSat Azərbaycan 2023” tələbə model peyk müsabiqəsinin finalı keçiriləcək.**




Artıq müsabiqənin iki mərhələsi – “Qeydiyyat” və “Layihələndirmə” öz işinə yekun vurub. Hazırda peyk modellərinin “Reallaşdırma” mərhələsi davam edir. Bu mərhələdə ölkənin 10 təhsil müəssisəsini təmsil edən 76 tələbədən ibarət 15 komanda iştirak edir.

İyunun 29-da baş tutacaq “Uçuş öncəsi yoxlamalar və final uçuş” mərhələsinə keçən qaliblərin və iştirakçı komandaların siyahısı gələn ay elan ediləcək.

*Fidan SALMANOVA,*
*“Xalq qəzeti”*

*İdman xəbərləri*

# Sarayevodan Vətənə 2 qızıl və 1 gümüş medal gətirildi

**Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda gənc və yeniyetmə taekvondoçular arasında Multi Avropa Oyunlarında uğurla çıxış edən millimizin üzvləri Vətənə qayıdıblar. Taekvondoçularımızı Heydər Əliyev Beynəlxalq Aeroportunda federasiyasının kollektivi, idman ictimaiyyətinin nümayəndələri qarşılayıblar.**



Yeniyetmələrdən ibarət yığmanın baş məşqçisi Rəşad Məmmədov “Xalq qəzeti”nə açıqlamasında bildirdi ki, komanda yarışa yaxşı hazırlaşmışdı. Təmsilçilərimizin 2 qızıl və 1 gümüş medal qazanması yaxşı nəticədir: “Azərbaycan yeniyetmələrin yarışında ümumi hesabda oğlanlar arasında ikinci yeri tutdu. Təbii ki, bununla arxayınlaşmaq olmaz. Növbəti yarışlarda daha yüksək nəticələr əldə etmək üçün çalışmalıyıq”.

Turnirin qızıl medalını qazanan İlyas Hətəmli rəqiblərinin güclü olmasına baxmayaraq, çempion olduğunu vurğuladı. Turnirdə birinci yeri tutmağı qarşıya məqsəd qoyduğunu bildirən idmançı hədəfə çatdığı üçün məmnun olduğunu dedi.

Millinin digər üzvü Şəms Əlizadə isə çempion olmağı hər bir idmançının arzusu olduğunu qeyd etdi: “Məhz yarışa yaxşı hazırlaşmaqla bu uğuru əldə etmək olar. Yarışda qızıl medal qazanmağımda məşqçilərimin böyük əməyi var. Onlara minnətdarlığımı bildirirəm.

Qeyd edək ki, gənclərdən ibarət komanda isə yarışı 1 gümüş, iki bürünc medalla başa vurub.

*Sənət inciləri*

## Tahir Salahovun “Növbədən qayıdanlar”ı



**“Növbədən qayıdanlar” dünya şöhrətli rəssam Tahir Salahovun məşhur rəsm əsərlərindən biridir. 1957-ci ildə çəkilən bu sənət əsəri rəssamın neft mövzusunda yaratdığı ilk əl işidir. Rəsm zamanında sənətsevərlər tərəfindən böyük rəğbətlə qarşılanıb.**

İncəsənət tənqidçisi olan Yekaterina Degot deyib: “Növbədən qayıdanlar” əsərində insanlar nisbətən rahat və gərginlikdən uzaqdırlar. Bu əsərlə rəssam bizə neftçilərin çəkdikləri əzab-əziyyətləri göstərmək istəyib, düzünü desək, buna nail olub. Elə buna görədir ki, əsər təkcə Azərbaycanı yox, dünya incəsənətinin inciləri siyahısındadır”.

Yeri gəlmişkən, tabloda rəsm əsərində rəssam əsasən “soyuq” rənglərdən istifadə edib. Hətta, demək olar ki, “isti” rənglərə müraciət edilməyib.

Rəsm əsəri hazırda Sankt-Peterburqdakı Rusiya İncəsənət Akademiyasında saxlanılır.

*Leyla HADİ,*
*tələbə-jurnalist*

## Qarışqa “bicliyi”

**Avstraliyalı tədqiqatçılar yırtıcılardan qorunmaq üçün qarışqaların bütöv bir koloniyasının özlərini ölü kimi göstərdiyini aşkar ediblər. Bu barədə Avstaliyanın heyvanlar haqqında dərc olunan jurnalında məlumat verilib.**



Xəbərdə bildirilir ki, Cənubi Avstraliya Universitetinin bir qrup tətqiqatçı alimi Kenquru adasında yarasaların yuvasına baxış keçirərkən özlərini ölü kimi göstərən qarışqa sürüsünə rast gəliblər. Latınca adı “Polyrachis femorata” olan bu qarışqa növü geniş burunlu, tikanlı qarışqa kimi də tanınır. Qrup adıçəkilən qarışqa növünə ilk dəfədir rast gəldiklərini deyir.

Yırtıcılardan qorunma üsulları arasında rəngini dəyişdirən buqələmunlar və ya ölü kimi davranan həşərat və kərtənkələlər var. Lakin bütöv bir heyvan sürüsünün yırtıcılardan qaçmaq üçün özlərini ölülüyə vurması nadir hadisədir. Belə bir hala indiyə qədər heç harada rast gəlinməmişdir.

*Fidan HÜQUQQIZI,*
*“Xalq qəzeti”*




## Cüdoçu qızlarımızdan 2 medal

**Gənc cüdoçular arasında Litvanın Kaunas şəhərində keçirilən Avropa kuboku turnirində Azərbaycan millisi iki medal qazanıb.**

Qızların mübarizəsində Leyla Dəmirova (48 kq) və Nigar Süleymanova (78 kq ) bürünc medala sahib olublar.

Yarışda 16 ölkədən 180-ə yaxın cüdoçu iştirak edib.

## Paraüzgüçülərimiz 4 gümüş medal qazanıblar

**Almaniyanın paytaxtı Berlin şəhərində keçirilən paraüzgüçülük üzrə dünya seriyası yarışında millimiz 4 gümüş medal qazanıb.**

Təmsilçilərimizdən Raman Saley 100 və 50 metrəyə arxasüstə, 100 metrəyə butterfly üsulu ilə, Vəli İsrafilov isə 200 metrəyə brass üsulu ilə üzmə yarışlarında gümüş medala sahib çıxıblar.

Millimizin digər üzvü Könül Süleymanova 100 metrəyə arxasüstə üzmə növündə dünya çempionatına lisenziya əldə edib.





## Karateçimizdən Premyer Liqa turnirində qızıl medal

**Azərbaycan karateçisi İrina Zaretska (68 kq) Mərakeşin paytaxtı Rabatda keçirilən Premyer Liqa turnirində qızıl medal qazanıb.**

İlk görüşlərində bütün rəqiblərini məğlub edən idmançı finala yüksəlib. Həlledici mərhələdə isveçrəli Yelena Quiriçə 4:0 hesabı ilə qalib gələn millimizin üzvü yarışın qalibi adını qazanıb.

## Dünya çempionatında gümüş və bürünc mükafat

**Azərbaycan boksçuları Özbəkistanın paytaxtı Daşkənddə keçirilən dünya çempionatını 2 medalla başa vurublar.**



Millimizin üzvü, 86 kiloqram çəki dərəcəsində mübarizə aparan Avropa Oyunlarının qalibi Alfonso Dominqes gümüş, Məhəmməd Abdullayev (+92 kq) bürünc mükafata layiq görülüb.

Mükafat fondu 5,2 milyon ABŞ dolları olan yarışda 107 ölkədən 538 idmançı mübarizə aparıb.

## Ağırlıqqaldıranımız Afrika çempionatının qalibi olub

**Tunisdə keçirilən ağır atletika üzrə 33-cü Afrika çempionatında Azərbaycanın ağırlıqqaldırma üzrə idmançısı böyük uğur qazanıb.**

Millimizin üzvü Nazilə İsmayılova (45 kq) birdən qaldırma hərəkətində 60, təkanla qaldırma hərəkətində 72 kiloqram çəkini ram edib, toplam 132 kiloqram (60+72) nəticə göstərib. Bu göstərici ilə o, bu çəki dərəcəsində həm birdən, həm təkanla qaldırma hərəkətləri, həm də toplamda qalib olub.

Qeyd edək ki, Azərbaycan yığmasının başqa qitənin çempionatında çıxışına səbəb bu ilin aprelində İrəvanda keçirilən Avropa çempionatının açılışında bayrağımızın vəhşicəsinə yandırılması olub.

*L.QURBANOVA, “Xalq qəzeti”*




## Təsviri “redaktə” edən proqram

**Bəzi insanlar öz normal görünüşlərini bəyənmir və fotoşəkillərinə fərqli proqram vasitələri ilə düzəlişlər edərək, sosial media platformalarında yerləşdirirlər. Hətta dünyada 200 milyon dəfədən artıq yüklənmiş “FaceTune” adlı proqrama abunə olmaq üçün ödəniş edənlər də az deyil.**




Əvvəl yalnız fotoşəkillər üzərində dəyişikliklər edə bilən bu proqram indi qısa selfi videoları üçün də yeni versiyasını istifadəyə verib. Tətbiq istifadəçilərə üz görünüşlərində incə dəyişikliklər etməyə– qırışları hamarlaşdırmağa və ya alternativ olaraq görünüşlərini tamamilə dəyişdirməyə imkan verir. Bu proqram vasitəsilə insanlar üzlərini daralda, gözlərinin formasını və ölçüsünü dəyişdirə və ya özlərinə rəqəmsal burun əməliyyatı da edə bilərlər.

Qeyd edək ki, İsrailin “Lightricks” firmasına məxsus proqramdan əldə olunan ümumi gəlir 1,8 milyard dollar təşkil edir.

*Fidan HÜQUQQIZI,*
*“Xalq qəzeti”*

*Proqnoz*

## Bu gün hava yağıntılı olacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 16-da Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Gün ərzində bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, axşam cənub küləyi ilə əvəz olunacaq. Gecə 8-12°, gündüz 14-19° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunu, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz yağıntılar tədricən kəsiləcək. Bəzi



yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 17-22° isti, dağlarda gecə 0-4° şaxta, gündüz 0-5° isti olacaq.

*Qəzənfər QASIMOV,*
*“Xalq qəzeti”*

✓ 1999-cu ildə Gəncə şəhər 25 nömrəli orta məktəb tərəfindən Məmmədov Salami Əsgər oğlunun adına verilmiş orta təhsil haqqında kamal attestatı itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

“Azərbaycan Meliorasiya və Su Təsərrüfatı “ASC-nin Tikilməkdə olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyətinin kollektivi qurumun direktoru Ramiz Vəkilova bacısı

**ÜZEYRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının iqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümova azizi

**SƏADƏT İBRAHİMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5183
SİFARİŞ 1229
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00